**Şeyx Abbas Qumi**

# İMAM ƏLİNİN FƏZİLƏTLƏRİ

Bakı - 2006

| | |
|---|---|
| **Kitabın adı:** | İmam Əlinin fəzilətləri |
| **Müəllif:** | Şeyx Abbas Qumi |
| **Tərcümə edən:** | Seyyid Azər Əhmədoğlu<br>Mahir Bəylərzadə |
| **Nəşriyyat:** | Əhli-beyt məktəbi |
| **Çap tarixi** | 1998/1419 |
| **Çap növbəsi:** | Birinci |
| **Tiraj** | 3000 |

# ÖN SÖZ

الحمد لله على تواتر آلائه المتجلى بخلقه لخليفته والظاهر لقلوبهم بحجته والصلاة على محمد سيد بريته و بشير رحمته و على الاصفياء من عترته سيما ابن عمه و زوج ابنته و شعاع شمسه و باب مدينته صلوات الله عليهما و آلهما ما اتصل الغد بامسه واليوم بليلته

Bu kitab bir neçə fəsilə malikdir. Hər bir fəsildə Həzrət Əmirəl-möminin Əli (ə)-ın fəzilətlərindən biri haqqında söhbət olunur.

أنا و جميع من فوق التراب    فداء لتراب نعل أبي تراب
امام مدحه ذكرى و دابى    و قلبى نحوه ما عشت صاب

Şeirin məzmunu:

**«Mən və bütün yer üzündə yaşayanlar Həzrət Əbu Turabın (Əli (ə)-ın) ayaqqabısının altındakı torpağına qurban olaq!**

**Bu İmamı tərifləmək mənim adətimdir, nə qədər ki diriyəm ürəyimi ona bağlamış və onun aşiqiyəm».**

Bu şeirimi mömin qardaşlarıma, Həzrət Əmirəl-möminin (ə)-ın şiələrinə hədiyyə edirəm. Onlar da məni öz dualarında yaddan çıxartmasınlar və imkan daxilində bu şeiri çap etdirərək ümumi müsəlmanları faydalandırıb və mənim üçün axirət zəxirəsi qərar versinlər.

Allahın Rəsulundan (s) rəvayət olunur: **«Hər kəs Əli ibn Əbutalib (ə)-ın fəzilətlərindən birini qələmə alsa, həmin**

**yazı pozulub aradan gedənə qədər Mələklər onun üçün istiğfar edərlər».**[1]

Həmçinin o Həzrət buyurub: **«Hər kəs Həzrət Əli (ə) haqqında yazılmış fəzilətə baxsa, Allah-Təala həmin şəxsin gözü ilə mürtəkib olduğu günahları bağışlayar».**

Elm xadimləri üçün məlum olduğu kimi, Əmirəl-möminin Əli (ə)-ın fəzilətlərini heç bir bəyanla açıqlamaq mümkün deyil və o Həzrətin fəzilətləri heç bir kitaba sığmaz. Hətta səmavi mələklər Əli (ə)-ın mənəvi məqamlarını dərk edə bilməzlər.

علی را قدر پیغمبر شناسد
که هرکس خویش را بهتر شناسد[2]

Həqiqətən, Əli (ə) fəzilətlərini saymaq dənizin suyunu ovucla ölçməyə bənzəyir. Hədislərdə Əhli-beytin (ə) dilindən yazılıbdır: **«Biz, Allahın kəlmələriyik, bizim fəzilətlərimizi sayıb qurtarmaq olmaz».**[3]

کتاب فضل ترا آب بهر کافی نیست
که تر کنی سر انگشت و صفحه بشماری

**Yəni sənin (Əli (ə)-ın) fəzilətləri haqqındakı kitabı barmağı yaş edib səhifələmək üçün dərya suyu kifayət deyil.**

Elə buna görə də qələm ələ götürülüb bu haqda qısa bir kitab yazmağa cürət etmirdim. Lakin ümid-varam ki, Əmirəl-möminin (ə) kəramət mədəni və alicənab bir şəxs olduğu üçün məni bağışlayar, bu kiçik bir xidməti məndən qəbul edər.

---

[1] «Biharül-ənvar» cild 38, səh. 196.

[2] Bu şeirdə «Mübahilə» ayəsinə və «وانفسنا وانفسكم» cümləsinə işarə olunur.

[3] «Biharül-ənvar» cild 24, səh. 174.

# BİRİNCİ FƏSİL

Müaviyə ibn Əbi Süfyan zorakılığcasına hakimiyyəti ələ keçirdəndən sonra həccə getdi. O, Mədinə şəhərinə daxil olarkən hökm etdi ki, carçılar **«Hər kim Əli (ə) və Əhli-beytin fəzilətləri haqqında hədis rəvayət etsə, Müaviyə onu cəzalandıracaq»** - deyə, Mədinənin küçə və bazarlarında uca səslə bunu xalqa elan etsinlər. Həmçinin o məlum, qanun çıxartdı ki, hər bir yerdə xətib çıxış etməmişdən qabaq (nəuzubillah) Əli (ə)-a lənət oxusun.

Müaviyə həcc məqsədi ilə Mədinədən Məkkəyə sarı yola düşdü.[1] O, Məkkəyə çatandan sonra həcc mərasimini yerinə yetirib Şama (indiki Suriya) qayıtdı və öz hakimiyyətini gücləndirməyə, eyni zamanda şiələrin kökünü kəsməyə başladı. Bütün şəhərlərin hakimlərinə yazdı ki, Əli (ə)-ın dostlarını ümumi hüquqlardan məhrum etsinlər və onları öldürsünlər. Həmçinin yazdı ki, kimliyindən aslı olmayaraq əgər o Həzrətin dostu olduğu halda kiçik bir ehtimal versənizsə də onun başını bədənindən ayırın.

Elə ki Müaviyənin fərmanı qəddar hakimlərə çatdı şiələri qətlə yetirməyə və onların mal-dövlətlərini qarət etməyə başladılar. Şiələrin çoxunu töhmətləndirməklə və Əli (ə)-a olan məhəbbətləri haqqında kiçik etimal verməklə belə onları qətlə yetirirdilər. Onların evlərini xaraba qoydular. Şiələri güclü

---

[1] O, müsəlmanların gözündən pərdə salaraq onları aldadıb özünü dindar kimi tanıtdırmaq üçün dini mərasimləri yerinə yetirirdi.

nəzarət altına saldılar. Əgər hər hansı bir şiə başqa bir şiə ilə söhbət etmək istəyirdisə, onu öz evinə aparırdı, hətta xadimlərinin gözündən uzaq yerdə oturur, otağın qapısını bağlayıb öz dostu ilə söhbət edirdi. Buna da kifayətlənməyib dostuna müqəddəs andlar verməklə ona danışdıqları sözləri başqa yerdə söhbət etməməsini tövsiyə edirdi. Bəs belə bir vəhşət və qorxu içində dostu üçün hədis rəvayət edirdi.

Əgər rəvayətçilər Əmirəl-möminin (ə)-dan bir hədis nəql etmək istəyirdilərsə, o Həzrətin adını cürət edib dilə gətirə bilmirdilər. Deyirdilər: Mənim üçün Qüreyş tayfasından bir kişi, yaxud Peyğəmbərin (s) əshablarından biri bu hədisi nəql etdi; Yaxud deyirdilər: حدثنی ابوزینب «Əbu Zeynəbin (Zeynəbin atası) mənə bu hədisi dedi».[1]

Şiələrin vəziyyəti elə ağırlaşmışdı ki, Əmirəl-möminin (ə)-ın haqqında bildikləri fəzilətləri deməyə cürətləri yox idi. Hətta o Həzrətin əshablarından biri olan Əbdullah Şəddad Ləysi həmişə arzu edib deyərdi: Ey kaş, mənə imkan verirdilər xalqın arasına gedib sübhdən axşama qədər Həzrət Əli (ə)-ın fəzilətləri haqqında söhbət edirdim, sonra boynumu qılıncla vururdular!

Bəni-Üməyyə xilafəti dövrdə bu hadisə daha da şiddətləndi. İş o yerə çatdı ki, riyakar rəvayətçilər və dünyapərəst alimlər Bəni-Üməyyə və onların ata-babalarını xalqın gözündə fəzilətli cilvələndirmək üçün qondarma hədislər deyirdilər; bunun əksinə olaraq Əmirəl-möminin (ə) və Onun pak Əhli-beytinə böhtan atır və töhmət vururdular. Nəuzubillah deyirdilər:

اللهم ان ابا تراب الحد فی دینک و صد عن سبیلک

---

[1] «Əbu Zeynəb» Əli (ə)-ın qeyri-məşhur künyasidir.

**«İlahi, həqiqətən Əbu Turab dinini inkar etdi və sənin yolundan çıxdı».**

Bəli, insafsızlar bu cür nalayiq sözlər işlədirdilər. Ömər ibn Əbdüləziz xilafəti dövründə çıxış zamanı Əmirəl-möminin (ə)-ı təhqir etmək qadağan olsa da bu bidət xalq arasında qalmışdı. Çünki xalq bu cür tərbiyyə etmişdilər və camaat o Həzrətə nalaiq söz deməyə adət etmişdilər. Hərran[1] camaatı deyirdilər:

لا صلاة الا بلعن ابی تراب

**«Namazda Əbi Turaba[2] (nəuzubillah) lənət oxumasan, namaz deyil».**

Əli (ə) şiələri üçün yer kürəsinin heç bir hissəsində əmin-amanlıq yox idi. Hər bir an onların canını və malını təhlükə gözləyirdi. Şiələr pərakəndə olmuşdu, hərəsi bir yerdə yaşayırdı. Əgər bir nəfərə yəhudi, yaxud nəsrani desəydilər, «Əlinin şiəsi» deməkdən yaxşı idi.

Bu hadisənin şərhi çox uzundur və burada onların hamısını yazmaq məqsədində deyiləm. Lakin qeyd etmək istəyirəm ki, belə bir ağır vəziyyətdə o Həzrətin fəzilətləri haqqında nəql olunmuş hədislər şərq və qərbi bürüyübdür.

Xəlil ibn Əhməd Əruziyə dedilər ki, Əmirəl-möminin Əli (ə)-ın fəzilətlərindən birini nəql et!

O, dedi: - Bu haqda nə deyim? O Həzrətin dostları düşmənin qorxusundan öz canlarını qorumaq üçün Onun fəzilətlərini gizlətdilər; eyni zamanda Həzrətin düşmənləri paxıllıq və düşmənçilik üzündən Onun fəzilətlərini ört-bastır etmək üçün əllərindən gələni əsirgəmədilər. Dost-düşmən Əli

---

[1] Dəməşqin məhəllələrindən biridir.
[2] Əli (ə)-ın ləqəbidir.

(ə)-ın fəzilətlərini gizlətməsinə baxmayaraq, o Həzrətin aşkar olmuş parlaq fəzilətləri şərq və qərbi bürüdü.

Müəllif deyir: Xəlilin bu sözü çox mətin və düzgün bir sözdür. Bunu o Həzrətin möcüzələrindən saymaq olar. Əgər belə olmasaydı, gərək Əli (ə)-ın hətta bir dənə fəzilətindən belə əsər qalmırdı, Onun nuru bütövlüklə sönmüş olurdu və Həzrətin əlleyhinə aparılmış təbliğatlar millətlər arasında qalırdı. Lakin Əli (ə)-ın fəzilətləri şərq və qərbi əhatə edibdir. Onun dost və düşməni tərifləyir, fəzilətləri dillər əzbəri olmuşdur.

يُرِيدُونَ لِيُطْفِئُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ وَاللَّهُ مُتِمُّ نُورِهِ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

***«Onlar Allahın nurunu batil sözləri ilə (ağızlarıyla) söndürmək istəyirlər. Allah isə, kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər».***[1]

Rəvayət olunur ki, bir gecə Mənsur Dəvaniqi[2] Süleyman Əməşini öz yanına çağırtdırdı. Süleyman onun yanına gəldi. Mənsur dedi: - Süleyman gəl mənim yanımda otur!

Elə ki, Süleyman yaxınlaşdı, Mənsur onun üstündən hənut iysini hiss edərək dedi: - Düz de, yoxsa, səni dardan asdıraram. Bu hənut iysi nədir?

Süleyman dedi: - Eşitdim ki, sən məni çağırıbsan, öz-özümə fikirləşdim Əli (ə)-ın fəziləti haqqında məndən hədis soruşmaq istəyirsən; əgər hədis nəql etsəm sən məni öldürəcəksən. Buna görə də öz ölümüm üçün hazırlaşdım. Vəsiyyətimi edib özümə meyyit qüslü verəndən sonra bura gəldim.

---

[1] «Səff» surəsi, ayə 8.

[2] Abbasi sulaləsinin ikinci xəlifəsi idi.

Mənsur dedi: - Ey Süleyman, Əli (ə)-ın fəziləti haqqında necə dənə hədis bilirsən?

Dedi: - Bir az bilərəm.

Mənsur: - Nə qədər?

Dedi: - Təqribən 10 min hədis bilirəm.

Mənsur: - Allaha and olsun, Əli (ə)-ın fəzilətləri haqqında bir hədis deyərəm ki, o hədisin əzəməti sənin bildiklərin hədislərin hamısını yadından çıxardar!

Sonra Mənsur Əli (ə)-ın fəzilətini nəql etməyə başladı. Həmin hədisi Şeyx Səduq və başqa alimlər çoxlu mötəbər sənədlərlə rəvayət ediblər.

Başqa bir rəvayətdə yazılıbdır: Bir gün Harun ər-Rəşid Bağdad alimlərini bir yerə topladı, o cümlədən Mühəmməd ibn İdris Şafeyi, Mühəmməd ibn Həsən Şeybani, Əbu Yusif və Vaqidini çağırtdırdı. Məclisin çoxu alimlərdən təşkil tapdı.

Harun Mühəmməd ibn İdris Şafeidən soruşdu: - Ey əmi oğlu, Əli (ə)-ın fəzilətləri haqqında neçə dənə hədis bilirsən?

Şafei dedi: - Təqribən dörd yüz hədis.

Harun dedi: - Düz de, məndən qorxma!

Şafei dedi: - Dörd yüzdən artıq.

Harun Mühəmməd ibn Həsənə üzünü tutub dedi: - Sən Əli (ə)-ın fəziləti haqqında necə dənə hədis bilirsən?

Dedi: - Min hədisdən çox bilmirəm.

Sonra üzünü Əbu Yusifə çevirib soruşdu: - De görüm, sən bu haqda neçə dənə hədis bilirsən?

Dedi: Ey Əmir! Əgər qormasaydıq, Əli (ə) fəzilətləri barəsində saysız-hesabsız hədis nəql edərdik. Bu haqda hədislərin sayı-hesabı yoxdur.

Harun dedi: - Kimdən qorxusan?

Dedi: - Sən və tərafdarlarından.

Harun: - Sən bu barədə olan hədisləri nəql et, qorxma!

Dedi: - Əli (ə)-ın fəzilətləri haqqında bildiyim hədislərin 15 mini müsnəd[1] 15 min mürsəl[2] hədisdir.

Daha sonra Harun, Vaqidiyə üzünü tutub soruşdu: Əli (ə)-ın fəzilətləri haqqında sən neçə hədis bilirsən?

Vaqidi Əbu Yusifin dediklərini təkrar etdi.

Harun dedi: - Lakin mən öz gözümlə o Həzrətin elə bir fəzilətini gördüm ki, siz nəql etdiyiniz fəzilətlərin hamısından əzəmətlidir. Sonra Harun, Dəməşqin xətibinin hekayətini onlara dedi: Həmin xətib Əli (ə)-a (nəuzubillah) söyüş verir və nalayiq sözlər deyirdi. Elə bu işinə görə də it simasına düşdü.

Bu cür hədislər o Həzrətin fəzilətləri haqqında yazılmış kitablarda çoxdur.

İbn Şəhraşub rəvayət edir ki, köçəri ərəblərdən biri Kufənin məscidində gördülər. O, deyirdi: «Ey yer və göylərdə, dünya və axirətdə şöhrət tapmış şəxs![3] Zülmkar sultanlar, tarixin ən qəddar padşahları sənin parlaq nurunu söndürmək üçün əllərindən gələni əsirgəmirdilər. Lakin Allah-Təala buna mane oldu və sənin nurunu daha da işıqlandırdı.

Bu sözləri deyən şəxsdən soruşdular: «Sən kimin haqqında danışırsan?»

Dedi: - Mənim dediklərim Həzrət Əli (ə) haqqındadır.

O, bu sözü deyib gözdən itdi.

Şəbi deyir: Həmişə eşidirdim ki, Bəni-Üməyyənin xətibləri, çıxış edənləri minbərə çıxıb Əmirəl-möminin Əli (ə) təhqiramiz sözlər deyirlər. Buna baxmayaraq elə bil ki, kimsə

---

[1] Əgər hədisin silsilə sənədi bütün mərhələlərdə Məsum (ə)-ma qədər zikr olunsa ona «müsnəd» hədis deyilir.

[2] Hədisin axırıncı ravisi (rəvayətçisi) məlum olmasa ona «mürsəl» hədis deyilir.

[3] Onun bu sözdən məqsədi Həzrət Əli (ə) idi.

Həzrət Əli (ə)-ın qolundan tutub göylərə qaldırır və onu daha da şöhrətləndirirdi.

Həmçinin eşidirdim ki, həmin xətiblər həmişə minbərə çıxıb ata-babalarını xalq üçün tərfiləyir, onları xalqın gözündə yüksəltmək istəyirlər. Lakin bunun əksinə olaraq öz tərifləri ilə elə bil ki, murdar leşi xalqa göstərir və onun üfunətli iyisini daha da aşkar edirdilər. Yəni, öz ata-babalarını paka çıxartmaq üçün tərifləyir və xalqın gözündə hörmətli şəxsiyyətlər kimi cilvələndirmək istəyirdilər. Amma onlar öz məqsədlərinə çatmırdılar və qəsbkar ata-babalarının pislikləri, bir sözlə həqiq simaları xalq üçün daha da aydınlaşırdı.

Nəql edirlər ki, Bəni-Üməyyə ələ salmaq məqsədiylə Əmirəl-möminin (ə)-a «Əbu turab» deyirdilər. Lakin bu işləri ilə bil ki, o Həzrətə zər-zivər paltarını geyindirirdilər.

## İKİNCİ FƏSİL

Şeyx İmamüddin Təbəri «Bəşarətül Mustəfa» kitabında Şərik Qazidən belə rəvayət edir: Süleyman Əməşin vəziyyəti ağırlaşmışdı. Onun ömrünün son anları idi. Mən də onun yanında idim. Birdən İbn Əbi Leyla, ibn Şəbrəmə və Əbu Hənifə [1] otağa daxil oldular. Onlar Süleymanın iyadətinə gəlmişdilər. Əbu Hənifə üzünü Süleymana tutub dedi: Ey Süleyman, Allahdan qorx! Bilməlisən ki, sən axirət günlərinə yaxınlaşır və dünya günlərinin axırıncı gününü keçirdirsən. Sən Əli (ə)-ın fəzilətləri haqqında elə hədislər rəvayət edibsən ki, əgər onları nəql etməsəydin daha yaxşı olardı.

Süleyman dedi: - Hansı hədisi deyirsən?

Dedi: - Məsələn: **«Ənə qəsimül cənnəti vənnari»**[2]

أنا قسيم الجنة و النّار

hədisini nəql edibsən.

Süleyman dedi: - Mənimlə belə danışırsan? Məni oturdub bir yerə söykəyin!

O, oturandan sonra Əbu Hənifəyə dedi: - Ey Əbu Hənifə, Əbu Mütəvəkil mənim üçün bir hədis nəql edirdi. O da Əbu Səid Xidridən rəvayət edirdi. Əbu Səid Xidri deyir ki, Rəsulullah buyurdu:

Qiyamət günü Allah-Təala mənə və Əliyə deyəcək: «Hər kəs sizi istəyirdisə Behiştə və hər kəs sizinlə düşmənçilik edirdisə onu cəhənnəmə daxil edin!»

---

[1] Bu üç nəfər sünnilərin böyük alimlərindəndir.
[2] Mən cənnət və cəhənnəmi bir-birindən ayıran şəxsəm.

Bu hədis Allah-Təalanın buyurduğu «Əlqiya fi cəhənnəmə kullə kaffarin ənidin»

أَلْقِيَا فِي جَهَنَّمَ كُلَّ كَفَّارٍ عَنِيدٍ

(Allah Peyğəmbər (s) və Əli (ə)-a buyuracaqdır): ***«Atın Cəhənnəmə hər bir inadcıl kafiri!»***[1] ayəsinə işarə edir. Əbu Hənifə öz dostlarına dedi: - Qalxın ayağa gedək, daha Süleymanın bu sözlərinə dözə bilmərik.

---

[1] «Qaf» surəsi, ayə 24.

## ÜÇÜNCÜ FƏSİL

Ali Osman sultanlarından biri sultan Murad ya da sultan Süleyman idi. O bir gün Nəcəfi-Əşrəfə gedirdi. Həzrət Əmirəl-möminin (ə) nurlu hərəminin günbəzi göründü. Onun vəzirlərindən biri şiə idi. Lakin bunu heç kəs bilmirdi. Həmin vəzir günbəzi görən kimi atdan yerə düşdü. Sultan onun atdan düşməsinin səbəbini soruşdu. Vəzir dedi: Qəbir sahibinin hörmətini saxlamaq üçün atdan düşdüm. O, «Raşidin» xəlifələrindən biridir.

Sultan dedi: Mən də onun hörmətinə atdan düşürəm.

Nasibilərdən[1] biri sultanın yanında idi. O, dedi: - Əgər Əli (ə) xəlifə idisə, sən də xəlifə və müsəlmanların valisisən, dirinin hörməti ölünün hörmətindən daha çoxdur. Buna görə bu qəbirin sahibinə hörmət etmək məqsədi ilə sənin atdan düşməyin yaxşı deyil.

Sultan onun bu sözlərini eşidib şəkkə düşdü. O dedi: - Belə isə Qurana isxitarə edəcəyəm.

Quran açdılar. Səhifənin əvvəlində bu ayə yazılmışdı:

إِنِّي أَنَا رَبُّكَ فَاخْلَعْ نَعْلَيْكَ إِنَّكَ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى

***«Mən, həqiqətən, sənin Rəbbinəm. Nəleynini ayyaqqabını) çıxart, çünki sən müqəddəs vadidə - Tuvadasan!».***[2]

Sultan bu ayəni eşidən kimi atdan düşdü və əmr etdi ki, həmin nasibinin boynunu vursunlar.

---

[1] Peyğəmbər (s) Əhli-beyti və İmamlarla düşmənçilik edənlərə «nasibi» deyilir.

[2] «Taha» surəsi, ayə 12.

## DÖRDÜNCÜ FƏSİL

İbn Əbil Hədid Mötəzilə[1] firqəsinin ən böyük alimlərindən biridir. O, Əmirəl-möminin Əli (ə)-ın tərifi haqqında yeddi qəsidə yazıbdır. Həmin qəsidələr «Əl-qasidüssəbə» adı ilə şöhrət tapıbdır. «Mədarik» kitabının müəllifi seyyid Mühəmməd və Rəzi İmami həmin qəsidələrə şərh yazıbdır. Qəsidələrdən birini Əmirəl-mominin (ə)-ın müqqədəs zərihinin üstündə yazıblar. Bu qəsidə yetmiş beytdir. Onun bir neçə beyti İmam Hüseyn (ə)-ın müsibəti haqqındadır.

Həmçinin İbn Əbil Hədid Məkkənin fəthi barəsində aşağıdakı qəsidəni deyibdir:

فيا رتبة لو شئت ان تلمس السهى بها لم يكن ما رمته متعذرا
ويا قدميه اىّ قدس وطئتما و اى مقام قمتما فيه انوارا
فليس سواع بعدها بمعظم ولا الات مسجودا و معذرا

Şerin məzmunu:

**«O, (Əli (ə)) elə bir məqama malikdir ki, əgər «Suha» ulduzuna onun məqamı ilə çatmaq istəsən, sənin üçün mümkündür.**

**Ey Əli (ə)-ın ayaqları, siz nə qədər müqqədəs yerə qədəm qoydunuz və nə qədər böyük yerdə durdunuz!**

**Həzrət Əli (ə) Peyğəmbərin (s) çiyninə çıxıb bütləri sındırandan sonra, artıq «Suvaq» bütü hörmətdən və «Lat» bütünə heç kəs səcdə etmədi».**

Əbil Hədid qeyd olunan beytlərdə müxtəlif sənədlərlə rəvayət olunmuş Əli (ı)-ın bir fəzilətinə işarə edibdir. O da bundan ibarətdir ki, Həzrəti Əli (ə) Peyğəmbərin (s) çiyninə

---

[1] Mötəzilə - sünnü firlərindən biridir.

ayağını qoyub Kəbənin damına çıxdı. Bütləri yerə ataraq onları tikə-tikə etdi. Şairlər bu haqda fars və ərəb dillərində çoxlu şeirlər yazıbdır.

Sonra İbn Əbil Hədid «Hüneyn» müharibəsini və Rəsulullahın (s) bu müharibədə Əbu Bəkrin vasitəsi ilə məğlubiyyətini, Əbu Bəkrin qorxub döyüşdən qaçmasını və Əli (ə)-ın şücaətini şeirə çəkir.

İbn Əbil Hədid deyir ki, Əbu Bəkrin «Hüneyn» müharibəsində qaçması təəccüblü deyil, bu iş onun adəti idi. Çünki, Əbu Bəkr «Ühüd» və «Xeybər» müharibəsində də döyüşdən qaçıb Peyğəmbəri (s) tək qoydu.

İbn Əbil Hədid «Xeybər»in fəthi haqqında yazır:

وما أنس الا انس الذين تقدم     و فرهما والفر قد علما حوب
وللراية العظمى و قد ذهبا بها     ملابس ذل فوقها  و حلابيب
عذرتكما ان الحمام لمبغض     و ان بقاء النفس للنفس  محبوب

Şeirin məzmunu:

Hər nəyi yaddan çıxartsam da bir hadisəni yaddan çıxartmaram. O da bundan ibarətdir ki, o iki nəfər (Ömər və Əbu Bəkr) müharibə zamanı hamıdan qabaq özlərini irəli atırdılar. Lakin elə ki, döyüş başlanırdı ikisi də cihaddan (Allah yolunda döyüşdən) qaçırdılar. Halbuki, cihaddan qaçmaq həlakedici günahlardan biridir və onlar bunu yaxşı bilirdilər.

Həmçinin heç vaxt yaddan çıxartmaram: Əbu Bəkr və Ömər Rəsulullahın (s) bayrağını götürüb müharibəyə getdilər. Lakin döyüşdən qaçaraq İslam bayrağımı zillət rənginə boyadılar.

Bəli, onlar ölümdən qorxurdular və yaşamaq istəyirdilər. Ölümdə qorxmayıb öz canını İslam yolunda fəda verməyə hazır olan başqa bir şəxsdir ki, buyurur:

والله لإبن أبی طالب آنس بالموت من الطفل الی مخالب أمه

**«And olsun Allaha, Əbu Talibin oğlunun (Əli (ə) ölümə ilan əlaqəsi, uşağın öz anasının südünə olan əlaqəsindən daha da çoxdur».**

İbn Əbil Hədid Əbu Bəkrə demək istəyir: Bir az yavaş get, yavaş! Belə deyil ki, hər kəs yüksək məqama çatmaq istəsə, onun ağır məsuliyyətini öz boynuna götürə bilər. Bu fikirləri, xəyalları başından çıxart; sən hara, yüksək məqama çatmaq hara!

İbn Əbil Hədid öz qalan sözlərində Həzrət Əmirəl-mominin (ə)-ı tərifləyir və eyni zamanda Əbu Bəkrin Əli (ə) kimi ola bilməməsini kinayə ilə belə bəyan edir:

Böyüklük və alicənablıq o adam üçündür ki, heç vaxt «Lat» bütünə ibadət etməyibdir. Sünnilərin hamısı bilirlər ki, Əmirəl-möminin Əli (ə) heç vaxt bütə səcdə etməyibdir. Elə buna görə də sünnilər Həzrət Əli (ə)-ın adını eşidərkən deyirlər:

كرم الله وجهه

**«Allah-Təala onun üzünü ağ etsin!»**

İbn Əbil Hədid sözünə belə davam edir: Həzrət Əli (ə) «Bəraət» ayələrini Allah məsləhəti ilə Məkkə kafirləri üçün oxudu. Halbuki, Peyğəmbər (s) həmin ayələri kafirlər üçün oxumağı sənə (Əbu Bəkrə) tapşırdı. Sən kafirlərin yanına gedib «Bəraət» ayələrini oxumaq məqsədi ilə Məkkəyə tərəf yola düşdün. Lakin, sən Mədinədən çıxandan sonra Cəbrayıl Peyğəmbərin (a) yanına nazil olub dedi: Bu işi ya sən, ya da Əli (ə) yerinə yetirməlidir. Sizdən başqa heç kəsin bu işi görməyə ləyaqəti yoxdur.

Sonra Peyğəmbər (s) Həzrət Əli (ə)-ı göndərdi. Əli (ə) ayələri alıb səni qeri qaytardı. Sən Peyğəmbərin (s) yanına

qayıdandan sonra o Həzrət buyurdu: **«Mən özüm səni geri qaytarmadım, bu iş Allahın əmri idi».**

Həmçinin İbn Əbil Hədid deyir: Rəsulullah (s) Əbu Bəkr camaat namazında imamət etməyə icazə vermədi.

Bir gün Rəsulullah (s) xəstələndi. Həzrətin xəstəliyi şiddətlənmişdi. Bilal azan dedi. Peyğəmbər (s) buyurdu: **«Mənim məscidə getməyə taqətim qalmayıbdır, sizin biriniz qabaqda durub camaat namazı qılsın».**

Aişə dedi: - Atam Əbu Bəkrə deyin camaat namazı qılsın.

Həfsə dedi: - Atam Ömərə deyin camaat namazı qılsın.

Əbu Bəkr bunu eşidən kimi tələsik mehrabda durdu. Camaat da onun dalında cərgəyə durub namazlarını ona iqtida etməyə hazırlaşdılar.

Peyğəmbər bu xəbəri eşitdi. O Həzrət bildi ki, Əbu Bəkr camaat namazının imamətliyini ələ keçirtmək istəyir. Peyğəmbər (s) dünyadan gedəndən sonra da xəlifəlik iddiasını edəcək. Elə buna görə də Peyğəmbər (s) buyurdu: «Məni məscidə aparın».

Əmirəl-möminin Əli (ə) və Fəzl ibn Abbas Peyğəmbərin (s) qolundan tutub məscidə gətirdilər. Peyğəmbər (s) taqətsizlikdən yol gedə bilmirdi, zəiflikdən ayaqlarını qaldırıb addım ata bilmirdi. O Həzrət məscidə çatandan sonra əli ilə işarə edərək Əbu Bəkri mehrabdan çıxartdı. Peyğəmbər (s) özü namaz qıldı. Sonra Əbu Bəkr və Ömərə əmr etdi ki, Mədinə şəhərindən çıxsınlar və Üsamət ibn Zeydin[1] qoşununa qoşulub ona kömək etsinlər. Həmçinin Peyğəmbər (s) Üsamət ibn Zeydin qoşunundan ayrılıb geri qayıdan şəxsə lənət oxudu.

---

[1] O, Rəsulullahın (s) dostlarından biri idi. Peyğəmbər (s) dünyadan gedən vaxt Üsamət ibn Zeyd qoşun başçısı idi və Əbu Bəkr onun fərmanını yerinə yetirməli idi.

Üsamət ibn Zeyd Mədinənin yaxınlığındakı «Cürüf» adlı məntəqədən ötüb getməmişdi ki, Peyğəmbər (s) dünyadan getdi. Bunu eşidən Əbu Bəkr Zeydin əmrindən çıxaraq Mədinəyə qayıtdı.

İbn Əbil Hədid deyir: Həzrət Əli (ə) elə bil şəxs deyil ki, «ğar» mağarasında ürəyi qorxuya düşsün; elə bir şəxs deyil ki, «Bədr» müharibəsində kölgə altında oturub özünü gizlətsin.[1]

Həzrət Əli (ə) elə bir şəxsdir ki, Rəsulullah Məkkədən çıxıb Mədinəyə gedəndə müşriklər və kafirlərin bundan xəbəri olmaması üçün O Həzrətin yatağında yatdı. Kafirlər elə bilirdilər ki, yatağda yatan Peyğəmbərdir. Onlar bu xəyal ilə Peyğəmbəri (s) öldürmək üçün münasib fürsət axtarırdılar.[2] Buna görə də Əli (ə) Peyğəmbərin (s) yatdığı yerdə yataraq öz canını Rəsulullahın (s) yolunda fəda etməyə hazır oldu. Kafirlərin siyirilmiş qılıncları qarşısında özünü ölümə hazırladı. Həmin vaxt Əbu Bəkr Rəsulullah (s) ilə birlikdə Məkkənin kənarındakı dağda olan mağaraya sığındı. Əbu Bəkr öz-özünə fikirləşirdi ki, kafirlər Peyğəmbəri (s) axtara-axtara bura da gələ bilərlər. Buna görə də o, qorxusundan qəm-qüssə içində qərq olmuşdu. Onun ürəyi döyündüyü üçün Peyğəmbər (s) buyurdu:

لَا تَحْزَنْ إِنَّ اللَّهَ مَعَنَا

***«Qəmgin olma, Allah-Təala bizimlədi».***[3]

Həmçinin, Əbu Bəkr «Bədr» müharibəsində Qüreyş kafirlərinin qorxusundan özü üçün gölgələnəcək tapıb

---

[1] İbn Əbil Hədid bu sözləri ilə Əbu Bəkrə işarə edir. Çünki, Əbu Bəkr mağarada düşmən qorxusundan ürəyi titrəyirdi və Bədr müharibəsində özünü meydanda göstərmirdi.

[2] Allah-Təala Cəbrailin vasitəsi ilə kafirlərin bu planını Peyğəmbərə (s) xəbər verdi.

[3] «Tövbə» surəsi, ayə 40.

oturmuşdu. Lakin Həzrət Əli (ə) döyüşün qızğın anlarında düşmənlə vuruşur və onları həlak edirdi. O Həzrət Qüreyş qoşununun sərkərdələrini öldürdü. Nəhayət, Peyğəmbər (s) qələbə çaldı.

Həzrət Əli (ə) böyük və ağılasığmaz bir şəxsiyyətdir. O, bəşəriyyətin hidayətçisidir. Buna görə də öz əlindən gələn yaxşılığı camaat üçün əsirgəmirdi. Öz payını miskin, yetim və əsirlərə verirdi.

Həzrət Əli (ə) bir gün orucluqda iftar açmaq istəyirdi. Bir nəfər dilənçi o Həzrətin qapısını döydü. Həzrət öz yeməyini ona verib həmin gecə ac yatdı.

# BEŞİNCİ FƏSİL

Abdullah ibn Məsud rəvayət edir ki, günlərin bir günü Rəsulullah (s) şam və xiftən namazını qılıb qurtarandan sonra bir kişi ayağa qalxıb dedi: - Ey Mühacir və Ənsar tayfası! Mən qərib bir kişiyəm, heç nəyim yoxdur, mənə yemək verin.

Rəsulullah (s) buyurdu: - Ey dərviş, qəribçilikdən danışıb məni narahat etmə! Dörd dənə şey qəribdir: 1 - Əgər bir yerdə məscid olsa və orada yaşayanlar gedib namaz qılmasalar, həmin məscid qəribdir; 2 - Əgər bir evdə Quran olsa və evin sahibləri onu oxumasa, o Quran qəribdir; 3 - Əgər bir xalqın arasında alim olsa və xalq ondan dini məsələləri soruşmasa, həmin alim qəribdir; 4 - Dördüncü qərib isə kafirlərin arasında əsir olmuş müsəlmandır.

Sonra Rəsulullah buyurdu: **Hər kəs bu kişinin ehtiyacatını ödəsə, Behiştə gedəcək.** Həzrət Əli (ə) ayağa qalxıb, həmin kişinin əlindən tutub öz evinə apardı. O, Həzrət Fatimeyi-Zəhraya (s.ə) dedi: **- Ey Rəsulullahln (s) qızı, bu qonaq üçün yemək hazırla!**

Fatimeyi-Zəhra dedi: **- Ya Əli (ə), evdə yemək azdır, Həsən və Hüseyn (ə) da acdırlar və sən özün də oruc tutubsan. Evdə olan yemək isə bir nəfərlikdir.**

Həzrət Əli (ə) buyurdu: **- Uşaqları yatızdır və həmin yeməyi qonağa ver!**

Sonra Fatimeyi-Zəhra (s.ə) yeməyi gətirdi. Həzrət Əli (ə) yeməyi qonağın qarşısına qoydu. O Həzrət öz-özünə fikirləşirdi ki, əgər yemək yesəm qonağ doymayacağ; əgər yeməsəm qonağ narahat olacaq. Buna görə də çırağın işığını artırmaq bəhanəsi ilə onu söndürdü. Fatimeyi-Zəhra (s.ə)-a dedi ki, **qonaq yeməyi yeyib qurtarana qədər çırağı yandırma, qoy**

**bizə yeməyin çatmamasını bilməsin.** Həzrət Əli (ə) özüdə ağzını tərpədirdi ki, qonaq elə bilsin o da yemək yeyir. Qonaq yeməyi yeyib qurtarandan sonra Fatimeyi-Zəhra (s.ə) çırağı gətirdi. Həzrət Əli (ə)-ın gözü qonağın qabına sataşdı, gördü ki, yemək olduğu kimi qalıbdır. Buyurdu: - **Ey qonaq, nə üçün yeməyini yemirsən?**

Dedi: **Doydum.**

Sonra Həzrət Əli (ə), Fatimeyi-Zəhra (s.ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), Fizzə və qonşular həmin yeməkdən yedilər, lakin ondan artıq da qaldı.

Həzrət Əli (ə) sabahısı gün Rəsulullahın (s) yanına gəldi. Peyğəmbər (s) buyurdu: **- Ya Əli, dünən axşam necə keçdi?**

Əli (ə) buyurdu: **- Yaxşı keçdi.**

Sonra Həzrət Peyğəmbər (s) çırağın sönməsini və yeməyin bərəkət tapmasını danışdı.

Həzrət Əli (ə) dedi: **- Ya Rəsulullah, sizə kim bu xəbəri verdi?**

Peyğəmbər (s) buyurdu: **- Cəbrayıl yanıma gəldi və bu xəbəri çatdırandan sonra bu ayəni mənə nazil etdi:**

وَيُؤْثِرُونَ عَلَىٰ أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

***«Özlərini ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar».***[1]

Müəllif deyir: Bu məzmunda sünni və şiə təriqi ilə çoxlu rəvayətlər nəql olunubdur və şairlər onu şeirə çəkiblər.

---

[1] «Həşr» surəsi, ayə 9.

## ALTINCI FƏSİL

Şeyx Nuri (r.ə) «Şaxeye-Tuba» kitabında buyurub: Hillə şəhəhərində çox yaxşı bir kişi var idi. İnu adı Hacı Cavad idi. O, qəsidə oxuyurdu. Qəsidə oxuyan zaman əmmaməsini çıxardıb yerə qoyar və məclisin ortasında gəzə-gəzə qasidə oxuyardı. Mən 20 il bundan qabaq onun qasidə oxumağını Nəcəfi-Əşrəfdə gördüm. O, bir dənə hadisəni Hillə camaatından da eşitdim. Bu hadisə şöhrət tapmışdı. Hadisə bundan ibarətdir:

Bir gün Bağdadın böyük şəxsiyyətləri, o cümlədən qazi və müfti Hillə şəhərinə getdilər. Onlar Hillə şəhərinin var-dövlətli adamlarından birinin qonağı oldular. Şənlik keçirtmək məqsədi ilə ev sahibinə dedilər ki, Hacı Cavad onlar üçün qəsidə oxusun.

Hacı Cavad qasidə oxuyarkən, bəzi vaxt öz təbii halından çıxardı. Ev sahibi qorxurdu ki, o, şahları məzəmmət edən qəsidələr oxusun. Buna görə də onların təklifini qəbul etmək istəmədi. Lakin onlar çox təkid etdilər. Nəhayət, qərara aldılar ki, Hacı Cavad qəsidə oxusun. O, həmişəki adəti ilə ayağa qalxdı, əmmaməsini çıxardıb yerə qoydu. Sonra tərifli qəsidələri oxumağa başladı. O, tərifli qəsidələri oxuyub qurtardıqdan sonra özündən asılı olmayaraq məzəmmət edici qəsidələri oxumağa başladı. Bunu görən ev sahibi çox narahat oldu. Hacı Cavada qaş-göz ilə işarə etdi ki, bu cür qəsidələri belə bir məclisdə oxumasın. Lakin faydası olmadı. O, məzəmmət edici qəsidələri oxumaqda idi. Məclisdə olanlar qəlyan çəkirdilər. Hacı Cavadın məzəmmət edici qəsidələri onların ürəklərini dağladı, daha qsidənin təhqiramiz kinayələrinə dözə bilmədilər, səbirləri tükənmişdi. Hacı Cavadı

xoşluqla sakitləşdirmək istədilər. Lakin mümkün olmadı. Onlardan biri Hacı Cavadı qəsidə oxumaqdan çəkindirmək üçün qəlyanın qızmar kömrünü onun əmmaməsinin üstünə qoydu. Lakin əmmamə yanmadı. Başqası bu işi təkrar etdi. Yenə də əmmamə yanmadı. Qəlyanın bütün kömürlərini onun əmmaməsi üstünə tökdüər. Lakin nə Hacı Cavad bu işi gördü, nə də əmmaməsi zərrə qədər belə tüstü çıxmadı. Onlar məcbur olub əmmaməyə od vurdular. Əmmaməni alov bürüdü və heç bir hissəsi görünmədi. Məclisdəkilər təəcüb icində qərq olmuşdular. Nəhayət, Hacı Cavad öz ürəyi istədiyi kimi qəsidəni sona çatdırdı. Əmmaməni qoyduğu yerdə görmədi. O, əmmamənin harada olmasını soruşdu. Dedilər: - Əmmamə həmin alovun arasındadır və yanır. Hacı Cavad əlini alovun içinə salıb əmmaməsini götürdü. O, əmmamənin üstündəki külləri yerə tökdü, sonra başına qoydu. Əmmamə zərrə qədər də yanmamışdı.

Məclisdəkilər heyrət içində idilər. Orada onların çoxu bu hadisəni öz gözləri ilə gördükləri üçün şiə oldular.

Bəli, bu hadisə İmamların möcüzələrindən biridir və həmin qəsidə fəzilətə malikdir. Həmçinin bu özü Hacı Cavad üçün bir kəramət hesab olunur.

## YEDDİNCİ FƏSİL

Əbu Əbdillah Hüseyn ibn Əhməd «İbn Həccac» ləqəbiylə şöhrət tapmışdı. O, şiə şairlərinin və Əhli-beyti tərifləyənlərdən biri idi. İbn Həccac hicrinin 391-ci ilində Bağdad şəhərində dünyadan gedibdir. İmam Museyi Kazım (ə)-ın qəbrinin ayaq hissəsi tərəfində dəfn olunubdur. Onun vəsiyyəti ilə qəbrinin üstündəki lövhədə yazılıb.

وَكَلْبُهُمْ بَاسِطٌ ذِرَاعَيْهِ بِالْوَصِيدِ

***«Onların (Kəfh əsabının) iti də iki əlini (qabaq pəncələrini) mağaranın astanasına uzanıb yatmışdı».***[1]

Alimlərin bir dəstəsi, o cümlədən Seyyid Rəzi onun üçün mərsiyə oxuyubdur.

«Fəiyyə» qəsidəsini Əbu Əbdillah Hüseyn ibn Əhməd yazıbdır. O, bu qəsidədə Əmirəl-möminin Əli (ə)-ı tərifləyir və Həzrətin düşmənlərini tənqid edir. Həzrət Əli (ə)-ın çoxlu fəzilətlərini öz qəsidəsində qeyd edibdir.

Mən burada Əbu Əbdillah Hüseyn ibn Əhməd haqqında bir hadisəni sizin üçün yazıram:

Sultan Məsud Bəbəyhi, yaxud Əzuzud-dövlə Deyləmi bir gün Əmirəl-möminin Əli (ə)-ın hərəminin divarlarını tikdirib qurtardı. Sonra hərəmə daxil olub onun qapısının astanasını öpdü. Orada Seyyid Mürtaza kimi böyük alimlər də hazır idilər. Əbu Əbdillah Hüseyn ibn Əhməd irəli gəlib öz «Faiyyə» qəsidəsini oxumağa başladı. O, Həzrət Əli (ə)-ın düşmənləri haqqında nalaiq sözlərlə yazdığı qəsidəni oxumaq istədikdə Seyyid Murtaza narahat olub onunla sərt rəftar edərək dedi:

[1] «Kəf» surəsi, ayə 18.

**Həzrət Əli (ə)-ın hərəmində nə üçün bu cür nalaiq sözləri işlədirsən?!**

Əbu Əbdillah Hüseyn ibn Əhməd ürəyi sınığ halda evinə qayıtdı. Gecə yuxuda Əmirəl-möminin Əli (ə)-ı gördü. Həzrət Əli (ə) ona dedi: **Narahat olma, mən özüm Seyyid Murtəzanı sənin yanına göndərəcəyəm və o, səndən üzür istəyəcək. Seyyid Murtəza sənin evinə gəlib üzür istəməyincə onun yanına getmə!**

Seyyid Mürtaza həmin gecə yuxuda gördü ki, İnamlar Peyğəmbərin (s) ətrafında oturublar. Seyyid Mürtəza tələsik onlara tərəf getdi və salam verdi. Lakin Onlar Mürtazaya etina etmədilər. Bu, Seyyid Mürtaza üçün çox ağır idi. O, ərz etdi: - **Ey mənim ağalarım, mən sizin qulunuzam və övladlarınızdanam. Nə üçün məni dindirmisiniz?**

Peyğəmbər (s) buyurdu: **- Çünki, sən bizim şairimiz Əbu Əbdillah Hüseyn ibn Əhmədin qəlbini sındırdın. Onun evinə get və ondan üzür istə! Sonra onu sultanın yanına aparıb bizim ona olan məhəbbətimizi sultana da xəbər ver!**

Seyyid Mürtaza yuxuda diksinib ayıldı. Əbu Əbdillah Hüseyn ibn Əhməd gilə gedib qapını döydü. İbn Əhməd evin içərisindən səslənib dedi: **- Ey əziz seyyidim, səni mənim yanıma göndərən şəxs əmr etdi ki, sən evimə daxil olmayınca mən çölə çıxmayım.**

Seyyid Mürtaza dedi: - Gözüm üstə.

Sonra evə daxil olub ondan üzürxahlıq etdi. Onu sultanın yanına apardı. Seyyid Mürtaza və ibn Əhməd gördükləri yuxunu sultan üçün danışdılar. Sultan İbn Əhmədə böyük hörmət edəndən sonra, həmin qəsidəni axıra qədər oxumağı ondan xaiş etdi. Qəsidə 64 beytdi.

## SƏKKİZİNCİ FƏSİL

Əbulfərəcin «Əğani» kitabında Mədainidən rəvayət olunur ki, bir gün Seyyid Hümeyri Kufədə atına minib dedi: **- Hər kəs Həzrət Əli (ə) haqqında elə bir fəzilət nəql etsə və mən onu şeirə çəkməmiş olsam, bu atı və öz üstümdə olan bütün şeyləri ona bağışlayacağam.**

Hədis rəvayətçiləri Əmirəl-möminin (ə)-ın fəzilətləri haqqında olan hədisləri nəql etməyə başladılar. Seyyid Hümeyri də onların nəql etdikləri fəzilətlərin məzmununda yazdığı şeirləri oxuyurdu. Nəhayət, bir nəfər kişi Əbul Vail Muradidən belə bir rəvayət nəql etdi:

**Mən Əmirəl-möminin Əli (ə)-ın yanında idim. O Həzrət namaz qılmaq üçün dəstəmaz alırdı. Həzrət corabını ayağından çıxartdı. Gözlənilmədən bir ilan o cənabın ayaqqabısına daxil oldu. Bir neçə dəqiqədən sonra Həzrət Əli (ə) ayaqqabısını geymək istədi. Birdən bir qarğa sürətlə şığıyıb Həzrətin ayaqqabısını dimdiyinə götürərək göyə uçdu. Bu vaxt ayaqqabının içindəki ilan yerə düşdü.**

Seyyid Hümeyri bu hədisi eşitməmişdi və bu məzmunda şeir yazmamışdı. Buna görə də öz əhdinə vəfa edib atı və yanında olan bütün şeyləri həmin kişiyə bağışladı.

## DOQQUZUNCU FƏSİL

Müvəffəq ibn Əhməd Əli ibn Əbu Talib (ə)-dan rəvayət edir ki Rəsulullah (s) «Xeybər»i fəth edən günü (Əli (ə))-a buyurdu:

**Əgər mənim ümmətim, nəsraninin İsa ibn Məryəm haqqında dedikləri xoşagəlməz sözləri sənin haqqında deməsəydilər, sənin fəzilətin haqqında elə söz deyərdim ki, bütün müsəlmanlar ayaqqabının altındakı torpağı öpüb və sənin yerə tökülən dəstəmaz suyunu şəfa suyu kimi istifadə edərdilər. Lakin sənin fəzilətinə bu qədər kifayət edir ki, sən məndən və mən səndənəm; mənim irsim sənə çatır, sənin irsin mənə çatır. Harun Musadan olduğu kimi sən də məndənsən, yalnız bu fərqlə ki, məndən sonra peyğəmbər gəlməyəcək.**

**Ya Əli, sən mənim borclarımı ödəyənsən və dinimin yolunda cihad edənsən. Axirətdə sən hamıdan mənə yaxın olacaqsan. Qiyamət günü mənim hovuzuma sən xəlifəlik edəcəksən və münafiqləri, ikiüzlüləri orada uzaqlaşdıracaqsan. İlk dəfə sən mənim hovuzumun yanına gələcəksən. Ümmətimin arasında hamıdan qabaq sən Behiştə daxil olacaqsan.**

**Sənin şiələrin nurdan düzəlmiş minbərlərdə oturacaqlar. Onlar mənim ətrafımda uzanacaqlar və sevinc dolu qəlblərlə oturacaqlar. Mən onlara şəfaət verəcəyəm və onlar Behiştdə mənim qoşunlarım olacaqlar.**

**Ya Əli, sənin düşmənlərinin hamısı qiyamət günü üzüqara, məyus və susuz olacaqlar. Arasıkəsilmədən onları alovdan düzəlmiş taziyanələrlə vuracaqlar.**

**Ya Əli, sənin müharibən mənim müharibəm və sənin sülhün mənim sülhümdür; sənin açıq sözün mənim açıq sözümdür və sənin sirrin mənim sirrimdir. Sən mənim elmimin qapısısan və sənin övladların mənim övladlarımdır. Sənin ətin mənim ətimdir, sənin qanın mənim qanımdır. Haqq səninlə və sənin dilində, qəlbindədir, sənin baxışındadır. İman mənim ətim və qanınla qarışdığı kimi sənin ətin və qanınla da qarışıbdır.**

**Allah-Taala mənə əmr etdi ki, sənin və ailənin Behiştə gedəcəyiniz üçün sənə gözaydınlığı verim. Sənin düşmənin isə cəhənnəmdə olacaq. Süşmənin mənim hovuzuma yaxınlaşmayacaq, dostun isə uzaqlaşmayacaq.**

Əli (ə) buyurur: «**Mən səcdə etdim, Allaha həmd-səna etdim. Çünki, Allah-Taala İslamı, Quranı mənə ehsan etdi və məni Peyğəmbərin (s) dostu qərar verdi**».

Rəsulullahdan (s) rəvayət olunur: «**Qiyamət günü dörd dənə şeydən soruşulmayınca heç kəs yerindən tərpənə bilməyəcək. Həmin dörd şey bunlardan ibarətdir: Birinci insanın ömrü haqqında soruşacaqlar. Deyəcəklər: - Ömrünü harda keçirtdin? İkinci soruşacaqlar: Cavanlığını harada keçirtdin? Üçüncü soruşacaqlar: Mal dövlətini necə kəsb etdin və nəyə xərclədin? Dördüncü Əhli-beytin məhəbbəti haqqında soruşacaqlar**».

## ONUNCU FƏSİL

Əmirəl-möminin Əli (ə) Rəsulullahdan (s) sonra xalq arasında ən zahid və sadə yaşayan şəxs idi. Heç kəs o Həzrət qədər zahid deyildi. Bütün zahidlər o Həzrətin qarşısında təvazö edirdilər. Həzrət Əli (ə) heç vaxt doyunca yemək yemədi. Onun yeməyi və paltarları hamının yemək və paltarından sadə idi. Paltarı köhnə və yeməyi arpa çörəyi idi. Onun nəleyni xurma ağacının sarğılarından düzəldilmişdi.

Həzrət Əli (ə) 5 il xəlifə oldu. Lakin bu müddət ərzində özü üçün mal-dövlət toplamadı, əksinə öz alın təri və əl zəhməti ilə qazanmış pul ilə 1000 nəfər qul alıb Allah yolunda azad etdi. O Həzrətin əməli, Behişt və Cəhənnəm ömrü boyu gözü qarşısında olan şəxsin əməli kimi idi. O, həmişə öz qazandığını xalq üçün xərcləyirdi. Özü isə arpa çörəyi yeyirdi.

و كان طعامه خبزا و زيتا　　　و يؤثر باللحوم الطارقينا

**Həzrət Əli (ə)-ın yeməyi arpa çörəyi ilə zeytun yağı idi. Amma başqalarına ləzzətli yeməkləri paylayırdı.**

Bir dəfə Ədiyy ibn Hatəm Həzrət Əli (ə)-ın yanına getdi. O, Həzrətin qarşısında saxsıdan düzəlmiş köhnə bir qabı gördü. Qabın içində bir az su və onun yanında quru çörək tikəsi ilə duz var idi. Ədiyy dedi: **- Ya Əmirəl-möminin (ə), mən görürəm ki, sən bu uzun müddətli günlərdə ac qarnına müsəlmanların işlərində çalışırsan, gecə isə sübhədək oyaq qalır, ibadət edir və Allaha bəndəlik edirsən. Belə isə bu sənin iftarındırmı?!**

Həzrət buyurdu:

علل النفس بالقنون والا　　　طلبت منک فوق ما يکفيها

**Öz nəfsini qənaətçiliyə adət etdir və onu qənaət etməyə öyrət, əgər bu cür etməsən nəfs lazım miqdardan da artıq səndən tələb edəcək.**

Əhnəf ibn Qeys rəvayət edir: **Mən bir dəfə Müaviyənin yanına getmişdim. Onun üçün o qədər şirin gətirdilər ki, mən təəccüb etdim. Sonra süfrə açıb cürbə-cür yeməklər düzdülər. Mən həmin yeməklərin adını da bilmirdim. Buna görə də yeməklərin adını bir-bir Müaviyədən soruşdum və o, cavab verirdi. Müaviyə öz yeməklərini tərifləməyə başladı. Məni ağlamaq tutdu. Müaviyə dedi: - Nə üçün ağlayırsan?**

**Dedim: - Bir hadisə yadıma düşdü.**

**Dedi: - Hansı hadisə?**

**Dedim: - Bir gecə Həzrət Əli (ə)-ın yanında idim. İftar vaxtı çatdı. O Həzrət məni öz yanında saxladı. Sonra İmam Əli (ə) ağzı bağlı qabdakı xörəyi istədi. Xörəyi gətirdilər. Qabın ağzı bağlı olduğu üçün soruşdum: «Bu nədir?»**

**Buyurdu: - Arpa unundan hazırlanmış xörəkdir.**

**Dedim: - Qabın ağzını nə üçün bağlatdırıbsan, qorxdun ki, ondan götürərlər?**

**Buyurdu: - Xeyir, qorxdum ki, Həsən ya Hüseyn ona yağ vurarlar, buna görə də qabın ağzını bağlatdırdım.**

**Dedim: - Məgər xərəyə yağ qatmaq haramdırmı?**

**Buyurdu: - Xeyr, amma ədalətli imama vacibdir ki, xalq arasında ən fəqir şəxsdən də sadə yemək yesin.**

Müaviyə dedi: **- Elə bir şəxs haqqında danışırsan ki, heç kəs onun fəzilətini və üstünlüyünü inkar edə bilməz.**

Əsbəğ ibn Nabatə deyir ki, Həzrət Əli (ə) buyurdu: **Əgər bu köhnə paltarlarımla, öz dəvəm və vəsilələrimlə sizin şəhərə gəlsəm, sonra sizin şəhərdən çıxanda öz**

**gətiediklərimdən əlavə bir şey aparsam, bilməlisiniz ki, Allah və müsəlmanların malına xəyanət etmişəm.**[1]

Rəvayət olunur ki, bir gün Həzrət Əli (ə) parca bazarına getdi. Bir kişiyə dedi ki, bu iki paltarı mənə sat.

Həmin kişi dedi: **- Ya Əmirəl-möminin, hər nə istəsən mənim varımdır.**

Həzrət Əli (ə) bildi ki, satıcı onu tanıyıbdır. Buna görə də onun yanından gedib bir oğlanın dükanına girdi. Ondan iki paltar aldı, birini üç dirhəmə, o birisini iki dirhəmə. Sonra buyurdu: **Ey Qəmbər**[2] **bu üç dirhəmlik paltarı sən gey!**

Qəmbər dedi: **- Bunu siz özünüz geyin, çünki, minbərə çıxıb xalq qarşısında moizə edirsiniz.**

Həzrət buyurdu: **- Ey Qəmbər, sən cavansan, gərək yaraşıqlı paltar geyəsən. Əgər sənin paltarından qiymətlisini geysəm, Allah dərgahında xəcalət çəkərəm. Rəsulullah (s) buyururdu ki, özünüz geydiyiniz paltarlardan qulamlarınız üçün də alın və özünüz yediyiniz yeməkləri onlara da yedizdirin.**

Satıcı oğlanın atası gəldi. O, ərz etdi: **Ya Əmirəl-möminin (ə) oğlum səni tanımayıbdır. O, səndən iki dirhəm artıq alıbdır!**

Həzrət buyurdu: **- Bu iki dirhəmi mənə qaytarma, almayacağam. Çünki, nə o məni, nə də mən onu aldatmamışam, bu müamiləyə ikimiz razı olmuşuq.**

Süveyd ibn Qəflə rəvayət edir: Mən Əmirəl-möminin Əli (ə)-ın yanına getdim. Gördüm ki, Həzrətin qabağında bir kasa vardır. Kasanın içərisində çox acı aş var idi. Həzrət quru arpa

---

[1] «Biharül-ənvar» cild 40, səh. 325.
[2] Qənbər Həzrət Əli (ə)-ın xidmətçisi idi.

çörəyini onun içinə doğrayıb yeyirdi. O, mənə təklif etdi ki, yemək yeyim. Dedim: **Oruc tutmuşam.**

Buyurdu: **Rəsulullah (s)-dən eşitmişəm ki, hər kəs oruc tutduğu üçün istədiyi xörəyi yeməsə (xörək yeməkdən özünü qorusa), Allah-Taala ona Behiştin yemək-içməyini qismət edəcək.**

Süveyd deyir: **- O Həzrətin kənizi Fizzə idi. Fizzə Həzrətin yanında durmuşdu. Mən ona dedim: Vay olsun sənin halına, ey Fizzə! Məgər Allahdan qorxmursanmı? Nə üçün Əmirəl-mömininə (ə) verdiyiniz çörəyin (arpa çörəyinin) ununu yaxşı təmizləmirsiz, ələmirsiniz?!**

Fizzə dedi: **- Ağa özü bu cür tapşırıbdır.**

Həzrət Əli (ə) məndən soruşdu: **- Fizzəyə nə dedin?**

Mən Fizzəyə dediklərimi Həzrət üçün təkrar etdim.

Həzrət buyurdu: **- Atam, anam Rəsulullaha (s) qurban olsun! O, heç vaxt yediyi çörəyin ununu təmizlətdirmədi.**

Əsbəğ ibn Nəbatə rəvayət edir: Əgər Əmirəl-möminin (ə) yanına bir şey gətirsəydilər, Həzrət onu «beytul-mala» [1] qoyardı. Sonra onu fəqir-füqəraya paylayar və buyurardı:

يا صفراء يا بيضاء لا تغرينى غرى غيرى

**«Ey dinar və ey dirhəm! Məni aldatmayın, gedin başqasını aldadın».**

[1] Müsəlmanların ümumi sərvəti, hüququ.

## ON BİRİNCİ FƏSİL

İbn Əbil Hədid (sünni alimi) deyir: Əgər Həzrət Əmirəl-möminin (ə) iftixar məqamına gəlsə, Allah-Taala ona bəxşeş etdiyi fəsahət, bəlağətlə öz fəzilətlərini bəyan etsə və bu işdə bütün fəsih ərəblər o Həzrətə kömək etsə, yenə də onun məqamı haqqında Rəsulullahın (s) buyurduqlarının onda bir hissəsini bəyan edə bilməzlər. Mənim məqsədim Həzrət Əli (ə)-ın fəzilətləri haqqında olan məşhur hədislər deyil ki, şiə alimləri onun imamətini bu hədislərlə sübut edir. Məsələn: «Qədir-xum» hədisi, Həzrət Əli (ə)-ın ilk dəfə iman gətirməsi haqqında olan hədis və bu cür hədislər mənim məqsədim deyil. Mənim mühəddislərin[1] o Həzrətin məqamı haqqında nəql etdikləri bir necə xüsusi hədislərdir və bu hədislər Həzrət Əli (ə)-dan başqa heç bir əsabın barəsində deyilməyibdir. Mən burada bizim (sünnülər) hədis alimlərimizin Həzrət Əli (ə)-ın fəzilətləri haqqında rəvayət etdikləri hədislərin, az bir hissəsini nəql edəcəyəm. Çünki onların nəql etdikləri hədislərlə xatircəmlik tapıram, bu hədislər başqalarının rəvayət edir.

Sonra İbn Əbil Hədid Həzrət Əli (ə)-ın fəzilətləri haqqında 24 hədis rəvayət edir. Hədisləri nəql edəndən sonra deyir: Bu hədisləri rəvayət etməyimin səbəbi bundan ibarətdir ki, Həzrət Əli (ə)-dan uzaqlaşanları və onu istəməyənləri qəflət yuxusundan oyadım. Çünki, onlar elə başa düşürdülər ki, Həzrət Əli (ə) qururlu bir şəxsdir. Onlar, Həzrət Əli (ə)-ın «Nəhcül-bələğə» kitabını oxuyan zaman, orada bir sıra cümlələri, o cümlədən Həzrətin Allah nemətlərinə şükr etməsi, Rəsulullah (s) üçün istəkli şəxs olmasını və başqalarından

[1] Hədis rəvayətçiləri.

seçilməsini oxuyarkən, onu təkəbbürçü, qururlu bir şəxs kimi təsəvvür edirlər. Bundan qabaq əshabların bir dəstəsi də o Həzrət haqqında bu cür fikirləşirdilər. Necə ki, Ömərə dedi: - Həzrət Əli (ə)-ı qoşun başçısı və sərkərdə et!

Ömər dedi: - Bu məqam Əli (ə)-ın gözündə kiçikdir və o, bundan tüksək məqama çatmaq istəyir.

Yaxud Zeyd ibn Sabit deyir: Biz, Əli və Usamədən qururlu bir şəxs görmədik.

İbn Əbil Hədid deyir: - Mən Həzrət Əli (ə)-ın buyurduğu:

نحن الشعار و الاصحاب و نحن الخزنةو الابواب

kəlamların şəhərində bu hədisləri nəql edirəm ki, camaat Rəsulullahın (s) yanındakı o Həzrətin yüksək məqamını tanısınlar. Camaat bilməlidirlər ki, əgər Rəsulullah (s) Həzrət Əli (ə)-ın fəzilətlərini bəyan edibdirsə, deməli o Həzrət bu fəzilətlərə laiqli bir şəxsdir. Belə olan surətdə daha Onu «təkəbbürçü», «qururlu» ünvanları altında müttəhəm etmək düzgün iş deyil. O Həzrət sözün həqiqi mənasında bütün fəzilətlərə malik idi. O, heç vaxt qururlu şəxslər kimi nə danışıqda, nə də əməldə rəftar etmədi. Əksinə Həzrət Əli (ə)-ın əxlaqı hamının əxlaqından üstün, təbii xüsusiyyəti hamıdan üstün, təvazökarlığı hamıdan çox, səbri hamının səbrindən artıq və gülərüz bir şəxs idi. Necə ki, o vaxt bəziləri Həzrət Əli (ə)-a «xoştəbiət» və «zarafatcı» sözlərini nisbət verirdilər. Halbuki, bu iki xüsusiyyət (xoştəbiət, zarafatçı) təkəbbür və qururla ziddir.

İbn Əbil Hədid başqa bir yerdə deyir: Həzrət Əli (ə)-ın fəzilətləri o qədər çoxdur ki, onlarla sayıb qurtarmaq və şərh etmək mümkün deyil. Bir halda ki, hətta Həzrətin düşmənləri Onun fəzilətlərinə iqrar edirlər və Onun fəzilətlərini ört-bastır edə bilmirlərsə, mən Həzrət Əli (ə) haqqında nə deyə bilərəm.

Bildiyiniz kimi Bəni-Üməyyə sülaləsi müsəlmanların xilafətini qəsb etdilər, şərqdən qərbə qədər qüdrət sahibi oldular. Onlar Həzrət Əli (ə)-ın nurunu söndürmək və Onun məhəbbətini xalqın qəlblərindən çıxartmaq üçün bütün ağlasığmaz hiylələrə əl atdılar. Həzrət Əli (ə)-a ağlabatmaz töhmətləri verdilar. Minbərin üstündə Həzrətə (nəüzu billah) lənət oxudular. Həzrət Əli (ə)-ı tərifləyənlərə işkəncə verir, zindana salır və öldürürdülər. Onu fəzilət və şöhrəti haqqında olan hədisləri nəql etməyə qoymurdular. Hətta camaat öz övladlarının adını «Əli» qoymağa qorxurdular. Hər kəsin adı Əli idisə öz adını gizlədirdi. Buna baxmayaraq yenə də Həzrət Əli (ə)-ın adı yüksəlir və xalqın gözündə ucalırdı. Necə ki, müşk ətrinin üstünü nə qədər çox örtsələr bir o qədər onun ətirli iysi ətrafı bürüyər, həmçinin Həzrət Əli (ə)-ın adını nə qədər çox aradan aparmaq istəyirdilərsə bir o qədər Onun adı şöhrət tapırdı. Həzrət Əli (ə) günəş kimi idi. Günəşin işığını da söndürmək mümkün deyil. O Həzrət işıqlı bir gündüz idi, Əgər Onu bir göz görmürdüsə başqa gözlər görürdü.

Mən elə bir şəxsiyyətin haqqında nə deyə bilərəm. Hər bir fəzilət ona mənsubdur və hər bir firqəni, tayfanı özünə cəzb edir. O, bütün fəzilətlərin rəisi və bütün tərifə laiq xüsusiyyətlərin mənbəidir. Fəzilətin cavan çağlarını o, ələ keçiribdir və fəzilət meydanında hamıdan çox irəliləyibdir. Hər kəs bir fəzilətdə kamilləşsə, bilməlidir ki, o Həzrətin ardıcılı olması və ondan itaət etməsi sayəsindədir. Məlum olduğu kimi elmlərin ən şərafətlisi və ən müqəddəs İlahi elmdir. Çünki, hər elmin şərəfi və müqəddəsliyi onun mövzusu qədərdir. İlahi elmin mövzusu da bütün mövcudatdan müqəddəsdir. Buna görə də İlahi elm ən şərəfətli elmdir. Belə bir elmin banisi Həzrət Əli (ə)-dır və bu elmi özündən sonrakı nəsillər üçün yadigar qoyubdur.

İbn Mərdəviyyə öz kitabında yazır ki, Nafe ibn Əzrəq Abdullah ibn Ömərə dedi: Əli (ə) mənim düşmənimdir. Abdullah ibn Ömər dedi: Ey Allah düşməni, sən elə bir şəxslə düşmənçilik edirsən ki, Onun keçmişdə İslama etdiyi xidmətlərin hətta biri belə dünya və dünyada olanların hamısından yaxşıdır.

Müəllif deyir: Həzrət Əli (ə)-ın fəzilətlərini onun düşmənləri də təsdiq edirlər. Hətta Əmirəl-möminin Əli (ə)-ın ən qəddar düşmənlərindən biri olan Əmr ibn As (Əmras) o Həzrətin fəziləti haqqında şeir deyibdir.

# ON İKİNCİ FƏSİL

## ƏMİRƏL-MÖMİNİN ƏLİ (Ə)-IN FƏZİLƏTLƏRİ HAQQINDA OLAN AYƏ VƏ HƏDİSLƏR

Qeyd etmək lazımdır ki, bu fəsildə 40 mətləb yazacağam. Bu 40 mətləbin birinci beş dənəsi Həzrət Əli (ə)-ın şənində nazil olmuş ayələr, ikinci beş dənəsi o Həzrətin imamətini sübut edən hadislər və qalan otuz mətləb Onun fəzilətləri haqqındadır.

## HƏZRƏT ƏLİ (Ə)-IN HAQQINDA NAZİL OLMUŞ BEŞ AYƏ

Birinci ayə:

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***«Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər».***[1]

Bu ayə Həzrət Əli (ə)-ın haqqında nazil olubdur və bu məsələni bütün müsəlmanlar, istər şiə, istər sünnilər təsdiq edirdilər. O Həzrət günorta namazının nafiləsini qıldığı halda öz üzüyünü (namaz qılanda barmağa vurulan əqiq üzüyü namazın savabını artırır) dilənçiyə ehsan etdi. Allah-Təala bu işi bəyənəndən sonra yuxarıda qeyd olunan ayəni öz əziz Peyğəmbərinə nazil etdi.

---

[1] «Maidə» surəsi ayə 55.

İkinci ayə «Təthir» ayəsidir. «Təthir» ayəsi Peyğəmbərin (s), Əli (ə)-ın, Fatimə (s.ə)-ın, İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın barəsində Ümmü Sələmənin evində nazil olubdur.[1]

Əmirəl-möminin (ə) buyurdu ki, Rəsulullah (s) hər gün sübh çağı bizə gəlir və buyururdu:

الصلوة رحمكم الله «انما يريد الله ليذهب عنكم الرجس اهل البيت و يطهركم تطهيرا»

**«Namaz vaxtıdır, Allahın rəhməti sizin üçün olsun! Siz ey Peyğəmbərin Əhli-beyti! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər!»**

Üçüncü ayə «İnsan» surəsinin «Həl əta» ayəsidir. Bu ayə Əmirəl-möminin (ə)-ın, Fatimə (s.ə)-ın, İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın barəsində nazil olubdur.

Dördüncü «Mübahilə»[2] ayəsidir. Bu ayədəki «Ənfüsəna» kəlməsindən məqsəd Həzrət Əli (ə)-dır. Burada Əli (ə)-ın Peyğəmbərin (s) müqəddəs nəfsi olduğu sübuta yetirilir. «Ənfüsəna» kəlməsi ilə məlum olur ki, Həzrət Əli (ə) bütün kamilliklər və fəzilətlərdə Peyğəmbər (s) ilə şərikdir, Peyğəmbərdə (s) olan bütün İlahi xüsusiyyətlərə malikdir. Həzrət Əli (ə)-ın Peyğəmbərdən (s) fərqli cəhəti yalnız peyğəmbərliyə çatmamasıdır.

Bir dəfə Məmun İmam Rza (ə)-a dedi ki, Həzrət Əli (ə)-ın haqqında olan ən böyük fəzilət hansıdır?

Həzrət buyurdu: **«Mübahilə ayəsindəki fəzilət ən böyük fəzilətdir».**

---

[1] «Təthir» ayəsi haqqında geniş məlumat toplamaq istəyənlər Ayətullah üzma Fazil Lənkaraninin azərbaycan dilində tərcümə olunmuş «Əhli-beyt» kitabına müraciət etsinlər.

[2] «Ali-İmran» surəsi ayə 61.

Şeyx Əzri bu fəzilətə aşağıdakı şeirlə işarə edir:

و هو فى آية التباهل نفس المصطفى ليس غيره اياها

Şeirin məzmunu:

**O (Həzrət Əli (ə)), Həzrət Mühəmməd Mustafanın (s) nəfsi və canıdır. Ondan başqa heç kəs bu cür deyil.**

Beşinci ayə «Məvəddət» ayəsidir. Bu ayədə Allah-Təala buyurur:

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ

***«(Ya Peyğəmbər!) De: «Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm».***[1]

Ayədəki «Qurba» kəlməsindən məqsəd Əli (ə), Fatimə (s.ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə)-dır. Ayənin ikinci hissəsində buyurur:

وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا ۚ إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

***«Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!» Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir!»***

Burada «Həsənətən» حَسَنَةً kəlməsindən məqsəd onların məhəbbətidir.

Müəllif deyir: Əmirəl-möminin Əli (ə)-ın haqqındakı ayələr çoxdur. Məsələn:

وَالسَّابِقُونَ السَّابِقُونَ أُولَٰئِكَ الْمُقَرَّبُونَ

***«Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də)***

---

[1] «Şura» surəsi ayə 23.

***öndədirlər! (Nə xoşbəxtdir onlar!) Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir».***[1]

Bu ayədən məqsəd Həzrət Əli (ə) və onun şiələridir.

Necə ki,

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

***«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır».***[2] ayəsi də o Həzrət və şiələri haqqındadır.

أَفَمَنْ كَانَ مُؤْمِنًا

***«Məgər mömin kimsə ilə fasiq eynidirmi?!»***[3] ayəsi Həzrət Əli (ə)-a işarə edir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا

«Ya əyyühəlləzinə əmanu»[4] cümləsi olan bütün ayələrin ən parlaq nümunəsi Həzrət Əli (ə)-dır.

Aşağıdakı ayədən məqsəd Əmirəl-möminin (ə)-dır:

وَهُوَ الَّذِي خَلَقَ مِنَ الْمَاءِ بَشَرًا فَجَعَلَهُ نَسَبًا وَصِهْرًا

***«İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsl qohum (qan qohumu) və sonradan qohum edən Odur».***[5]

Çünki, Həzrət Əli (ə) Peyğəmbərin (s) əmisi oğlu və qızının (Fatimeyi-Zəhra (ə)) həyat yoldaşıdır.

مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ

---

[1] «Vaqiə» surəsi ayə 10-11.
[2] «Bəyinə» surəsi ayə 7.
[3] «Səcdə» surəsi ayə 18.
[4] Ey iman gətirənlər.
[5] «Furqan» surəsi ayə 54.

***«Suları şirin və acı olan) iki dənizi O qovuşdurdu»***[1] ayəsi Həzrət Əli (ə) və Fatimeye-Zəhra (s.ə)-ın haqqındadır. Bu ayədən sonrakı ayə, yəni:

بَيْنَهُمَا بَرْزَخٌ لَا يَبْغِيَانِ

***«Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar (özləri üçün müəyyən edilmiş həddi aşmazlar)».***[2]

Peyğəmbərin (s) haqqında, ondan sonrakı ayə isə İmam Həsən (ə) və İmam Hüseyn (ə) barəsindədir. Həmin ayə bundan ibarətdir.

يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ

***«Onlardan (o iki dənizdən) inci və mərcan çıxar».***[3]

Allah-Təalanın buyurduğu:

لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ

***«Ona görə ki, bunu (möminlərə nicat verib kafirləri məhv etməyimizi) sizə bir ibrət dərsi edək və dərk edən (öyüd-nəsihəti cani-dildən dinləyən) qulaq bunu eşidib yadda saxlasın!»***[4] ayə Həzrət əli (ə)-a aiddir.

Aşağıda qeyd etdiyim ayələrin hamısı Həzrət Əli (ə)-ın barəsindədir:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ ۙ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ

***«Haqqı (Quranı) gətirən və onu təsdiq edənlər (Peyğəmbər və möminlər) isə əsl müttəqilərdir».***[5]

---

[1] «Ərrəhman» surəsi ayə 19.
[2] «Ərrəhman» surəsi ayə 20.
[3] «Ərrəhman» surəsi ayə 22.
[4] «Haqqə» surəsi ayə 12.
[5] «Zümər» surəsi ayə 33.

Bu ayədəki «Və səddəqə bihi» cümləsi Həzrət Əli (ə)-a aiddir.

هُوَ الَّذِي أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ

***«O Allah ki, səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi».***[1]

Burada «mömin» kəlməsində məqsəd Əli (ə)-dın.

وَكُونُوا مَعَ الصَّادِقِينَ

***«Doğru olanlarla olun!»***[2]

Allah-Təala bu ayədə Həzrət Əli (ə)-la olmaqa əmr edir.

Allah-Təala «Təhrim» surəsinin 8-ci ayəsində Həzrət Əli (ə) haqqında buyurur.

يَوْمَ لَا يُخْزِي اللَّهُ النَّبِيَّ وَالَّذِينَ آمَنُوا مَعَهُ

***«Qiyamət günü Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xar etməyəcək».***

Qurandakı «səbil», «sirat», «mizan» və «siratun müstəqimun» kələmələrindən məqsəd Əli (ə)-dır.

Həzrət Əli (ə) Məkkə şəhərinə gedib «Bəraət» ayələrini kafirlər üçün oxudu.

Həzrət Əli (ə) «Nəcva»[3] ayəsinə əməl etdi. Öz dinarını 10 dirhəmə satdı və on dəfə sirrini Rəsulullah (s) dedi. On dəfənin hər birində sirrini deməmişdən qabaq bir dirhəm ehsan etdi. Nəhayət, Allah-Təala aşağıdakı ayə ilə «Nəcva» ayəsini öz əvvəlki qüvvəsindən saldı:

أَأَشْفَقْتُمْ أَنْ تُقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَاتٍ

---

[1] «Ənfal» surəsi ayə 62.
[2] «Tövbə» surəsi ayə 119.
[3] «Mücadilə» surəsi ayə 12.

***«Məgər siz (Peyğəmbərlə) məxfi danışmazdan əvvəl sədəqə verməkdən qorxdunuzmu?»***[1]

Qurandakı «şəhid», «sadiq», «musəddiq», «siddiq», «fəzl», «rəhmət», «nemət» və «imamun mubin» kəlmələrinin hamısından məqsəd Həzrət Əli (ə)-dır.

وَمَنْ عِنْدَهُ عِلْمُ الْكِتَابِ

***«Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin şahid olması yetər!»***[2]

Allah-Təalanın bu ayədəki buyurduğu şəxs Əli (ə)-dır.

Qurani-Kərimdəki «ayətun-kubra» və «nəbəun əzimun» Həzrət Əli (ə)-dır.

Həzrəti Əli (ə) buyurub:

ما لله آية اكبر منى ولا لله نبأ اعظم منى و لقد عرضت ولايتى على الأمم الماضيه فأبت أن تقبلها

**«Allah-Təala məndən böyük ayəti (nişanəsi) yoxdur və məndən böyük başqa bir xəbər Allahın yanında mövcud deyil».**[3]

Quranda «Valideyni» kəlməsindən məqsəd Allahın Rəsulu (s) və Həzrət Əli (ə)-dır. Çünki Rəsulullah (s) buyurub:

أنا وعلي أبوا هذه الأمة ولحقنا عليهم أعظم من حق أبوي ولادتهم، فإنا ننقذهم إن أطاعونا من النار إلى دار القرار، ونلحقهم من العبودية بخيار الأحرار.

**«Mən və Əli (ə) ümmətin atasıyıq və onların boynundakı haqqımız öz ata-analarının haqqından böyükdür. Çünki, əgər onlar bizə itaət etsələr Cəhənnəm**

---

[1] «Mücadilə» surəsi ayə 13.
[2] «Rəd» surəsi ayə 43.
[3] «Biharül-ənvar» cild 36, səh. 2.

**odundan nicat verəcək və əbədi Behiştə aparacağıq. Onları azadcasına yaşayanlar qovuşduracağıq».**[1]

Quranda gələn «Həblullahu-l-mətin»[2], «Salihu-l-mömininə»[3], «İxvanən əla sururin mütəqabilinə»[4], «Və li kulli qövmin hadin»[5] sözlərindən məqsəd Həzrət Əli (ə)-dir. Allah-Təala «Maidə» surəsinin 54-cü ayəsində buyurur:

فَسَوْفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّو

***«Allah elə bir tayfa gətirər ki, Allah onları, onlar da (Allahı) sevərlər».***

Ayədəki «qövm» kəlməsinin ən parlaq nümunəsi Həzrət Əli (ə)-dır.

Allah-Təala başqa bir ayədə buyurur:

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللَّهِ

***«(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz?»***[6]

Peyğəmbər (s) müşriklərin şiddətli təzyiqi altında idi. Müşriklər o Həzrəti öldürmək qərarına gəldikdə Cəbrail onların bu çirkin planını Peyğəmbərə (s) xəbər verdi. Peyğəmbər (s) gecə qaranlıq hər yeri bürüyəndən sonra Məkkədən çıxdı. Həmin gecə Həzrət Əli (ə) Peyğəmbərin yatağında yatıb öz canını Allah yolunda fəda etməyə hazır oldu. Çünki, müşriklər

---

[1] «Biharül-ənvar» cild 36, səh. 9.
[2] «Ali-İmran» surəsi ayə 103.
[3] «Təhrim» surəsi ayə 4.
[4] «Hicr» surəsi ayə 47.
[5] «Rəd» surəsi ayə 7.
[6] «Tövbə» surəsi ayə 19.

Peyğəmbəri (s) öz yatağında yatdığı yerdə öldürmək istəyirdilər.

Həmçinin «Həşr» surəsinin 9-cu ayəsi, «Əraf» surəsinin 44-cu və 48-ci ayəsi və «Saffat» surəsinin 24-cü ayəsi[1] Həzrət Əli (ə)-ın haqqındadır. Qeyd etdiyim ayələri yuxarıdakı tərtiblə yazıram:

وَيُؤْثِرُونَ عَلَىٰ أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

***«Özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar».***[2]

فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَنْ لَعْنَةُ اللَّهِ عَلَى الظَّالِمِينَ

***«Elə bu zaman onların (hər iki dəstəsinin) arasında bir carçı (İsrafil və ya cənnətdəkilərdən biri): «Allah zalımlara lənət eləsin!» – deyə səslənəcək».***[3]

وَنَادَىٰ أَصْحَابُ الْأَعْرَافِ رِجَالًا يَعْرِفُونَهُمْ بِسِيمَاهُمْ قَالُوا مَا أَغْنَىٰ عَنْكُمْ جَمْعُكُمْ وَمَا كُنْتُمْ تَسْتَكْبِرُونَ

***«Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: «Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi», - deyəcək».***[4]

وَقِفُوهُمْ ۖ إِنَّهُمْ مَسْئُولُونَ

***«Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!»***[5]

---

[1] Həzrət Əli (ə) haqqındakı ayələri toplamaq istəyənlər «Biharül-ənvar» kitabının 35 və 36-cı cildlərinə müraciət etsinlər.

[2] «Həşr» surəsi ayə 9.

[3] «Əraf» surəsi ayə 44.

[4] «Ərəf» surəsi ayə 48.

[5] «Saffat» surəsi ayə 24.

## HƏZRƏT ƏLİ (Ə)-IN İMAMƏTİNİ SÜBUT EDƏN BEŞ HƏDİS

Birinci hədis «Qədiri-Xum» hədisidir. Bu hədisi həm şiə, həm də sünni rəvayətçiləri nəql edibdir və heç kəs onu inkar edə bilməz. «Qədiri-Xum» hədisini Peyğəmbər (s) buyurubdur. Allahın Rəsulu (s) öz həcc əməllərini yerinə yetirəndən sonra müsəlmanlarla geri qayıtdı. Həzrət Qədiri-Xum adlı bir məkana yetişdi. Orada müsəlmanları bir yerə topladı Əmirəl-möminin (ə)-ı dəvənin üstünə qaldırdı. Peyğəmbər (s) müsəlmanlara elan etdi ki, Əli (ə) mənim vəsimdir. Həzrət Əli (ə)-ın haqqında camaata sifariş etdi. Həzrət Əli (ə)-am üçün müsəlmanlardan beyət götürdü. Hamı Əli (ə)-ı Peyğəmbərdən sonra öz rəhbər və İmamı kimi tanıdılar.

Peyğəmbər (s) Qədiri-Xumdakı çıxışında aşağıdakı sözləri elan etdi:

مَن كنتُ مولاه فهذا مولاه اللهمَّ والِ مَن والاه وعادِ مَن عاداه وانصرْ مَن نصرَه واخذلْ من خذلَه

**«Mən hər kəsin mövla və rəhbəriyəmsə, Əli (ə) də onun rəhbəridir. Ya Allah, Əli (ə) ilə dostluq edənlə dostluq et, onunla düşmənçilik edənlə düşmənçilik et, Əli (ə)-a kömək edənə kömək et və onu xar edəni zəlil et!»**

İkinci hədis «Mənzələt» hədisidir. Bu hədisi də şiə və sünni rəvayətçiləri mötəbər sənədlərə əsasən nəql edibdir.

Rəsulullah (s) Əmirəl-möminin Əli (ə)-a buyurdu:

أَنْتَ مِنِّي بِمَنْزِلَةِ هَارُونَ مِن مُوسَى، إِلَّا أَنَّهُ لا نَبِيَّ بَعْدِي

**«Sənin mənə olan nisbətin Harunun[1] Musaya olan nisbəti kimidir, yalnız bir fərqimiz vardır ki, məndən sonra peyğəmbər olmayacaq».**

Peyğəmbər (s) bu sözü ilə elan etmək istəyir ki, Harun Musa (ə)-ın bütün işlərdə vəziri və özündən sonra xəlifəsi olduğu kimi Həzrət Əli (ə)-am da hər bir işdə mənim vəzirim və məndən sonra müsəlmanların xəlifəsidir.

Üçüncü hədis Həzrət Əli (ə)-a salam vermək haqqında olan hədisdir.

Büreydə rəvayət edir: «Rəsulullah (s) bizə əmr etdi ki, bundan sonra Həzrət Əli (ə)-ma salam verəndə deyin:

السَّلامُ عَلَيْكَ يا أَمِيرَ الْمُؤْمِنِينَ

**«Əssəlamu əleykə ya Əmirəl-möminin».**

Peyğəmbər (s) burda Əli (ə)-a «Əmirəl-möminin», yəni «möminlərin rəhbəri və imamı» ləqəbini verir. Bu ləqəb yalnız Əli (ə)-a məxsusdur və Allah tərəfindən seçilibdir.

Dördüncü hədis: Rəsulullah (s) buyurub:

عَلِی مَعَ الحَقِّ وَالحَقُّ مَعَ عَلِی، وَ الحَقُّ یدورُ حَیثُ ما دارَ عَلِیٌّ

**«Əli (ə) haqq və haqq Əli (ə) ilədir. Hər yerdə Əli (ə) olsa, haqq da oradadır».**

Beşinci hədis «Teyr» hədisidir. Bu hədis çoxlu sənədlərlə nəql olunubdur. Hədis bundan ibarətdir:

Bir dəfə Rəsulullah (s) üçün toyuq bişirib hədiyyə ünvanı ilə gətirdilər. Rəsulullah (s) buyurdu:

اللّٰهُمَّ ائتِنی بِأَحَبِّ خَلقِک إلَیک؛ یأکلُ مَعِیَ

---

[1] Harun Musa (ə)-ın vəsisi idi.

**«Ya Allah, öz xəlqinin ən yaxşısını mənim yanıma yetir və mənimlə birlikdə bu xörəyi yesin!»**

Bu vaxt Həzrət Əli (ə) Peyğəmbərin (s) yanına gəldi və birlikdə yemək yedilər.

## HƏZRƏT ƏLİ (Ə)-IN FƏZİLƏTLƏRİ VƏ KAMALLARI

Həzrət Əli (ə)-ın fəzilətləri saysız-hesabsızdır. Mən burada Həzrətin fəzilətlərinin az bir hissəsini yazıram.

**Birinci fəzilət:** Həzrət Əli (ə) Peyğəmbərin (s) çiyninə ayağını qoyub Kəbənin damına çıxdı və orada olan bütləri yerə ataraq sındırdı.[1]

**İkinci fəzilət:** Rəsulullah (s) həm yaşadığı dövürdə, həm də dünyadan gedəndən sonrakı dövürdə öz həyat yoldaşlarını Həzrət Əli (ə)-a tapşırdı.

**Üçüncü fəzilət:** Həzrət Əli (ə) hamıdan qabaq Peyğəmbərə (s) imam gətirdi.

**Dördüncü fəzilət:** Həzrət Əli (ə) Rəsulullahın (s) qardaşı idi. Əli (ə) hamıdan çox Peyğəmbərin (s) xüsusiyyətlərinə yiyələnmişdi. Peyğəmbər onu hamıdan çox istərdi. Rəsulullah (s) buyururdu: Əli (ə)-ın mənə olan nisbəti, başımın bədənimə olan nisbəti kimidir.

Əmirəl-möminin (ə) buyurub: Bir dəfə Həzrət Rəsulullahın (s) yanına germək istədim. Peyğəmbər (s) öz evində idi. Mən otaqa daxil olmaq üçün qapını döyərək, icazə istədim. Peyğəmbər (s) icazə verdi. Otağa daxil oldum. Peyğəmbər (s) buyurdu: Ya Əli, Mənim evim öz evindir. Bəs nə üçün icazə istəyirsən?

---

[1] «Biharül-ənvar» cild 38, səh. 70.

Dedim: - Ya Rəsulullah, icazə alandan sonra evə daxil olmaq istəyirəm.

Buyurdu: - Ya Əli (ə) Allah istəyəni sən də istəyirsən və özünü İlahi əxlaqlarla zinətləndiribsən.

Ya Əli (ə) sən mənim qardaşımsan. Allah-Taala səndən gizlin bir sirr mənə göndərməyibdir. Sən məndən sonra vəsimsən. Səni xalq içində məzlum edəcəklər.

Ya Əli (ə) səninlə olan mənimlə və səndən ayrı olan məndən də ayrıdır. Hər kəs desə «mən səni çox istəyirəm, lakin Əlini (ə) özümə düşmən bilirəm», yalan deyir. Çünki, Allah-Taala məni və səni bir nurdan yaradıbdır».

**Beşinci fəzilət:** Həzrət Əli (ə) «Xəndək» müharibəsində Əmr ibn Əbdəvidlə döyüşdü. Əli (ə)-ın ona vurduğu zərbə Peyğəmbərin (s) ümmətinin qiyamətə qədərki əməlllərindən üstündür. Peyğəmbər (s) bu haqda buyurdu:

لَضَربَةُ عَلِيّ خَيرٌ مِن عِبادَةِ الثّقلين

**«Həqiqətən Əli (ə)-ın zərbəsi çin və insin ibadətindən üstündür».**

**Altıncı fəzilət:** Əbu Bəkr və Ömər Xeybər müharibəsində İslamın bayrağını götürüb döyüş meydanına yollandılar. Lakin onlar döyüşmədən meydandan qaçdılar. Peyğəmbər (s) buyurdu:

لأعطينَّ الراية غداً رجُلا يحبّه الله ورسوله ويُحبّ الله ورسوله كرَّار غير فرَّار لا يَرجِعُ حَتّى يَفتَحَ اللهُ عَلى يَديه

**«Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah və Rəsulu onu çox istəyir, həmçının o, Allahı və Rəsulunu çox istəyir. O, elə bir şəxsdir ki, döyüş zamanı arası kəsilmədən düşmən qarşısında qaçmaz. O, Allahın köməyi ilə Xeybəri fəth etməyincə geri qayıtmayacaq».**

Səhər açıldı. Peyğəmbər (s) İslam bayrağını Həzrət Əli (ə)-a verdi. Əli (ə) meydana yollandı. O, düşmənin pəhləvanlarından biri olan Mərhəbi cəhənnəmə vasil etdi. Sonra Xeybər qalasının qapısını yerindən qopartdı və Xeybəri fəth etdi.

**Yeddinci fəzilət:** Mühacirlər[1] Peyğəmbərin (s) göstərişi ilə Məkkə şəhərindən Mədinə şəhərinə köçdülər. (Çünki, müşriklər və kafirlər müsəlmanlara həddindən artıq əzab-əziyyət verirdilər). Onlar, Mədinədə Peyğəmbərin (s) məscidinin ətrafında özləri üçün ev tikdilər. Hər evdən bir qapı məscidin içinə açılırdı. Rəsulullah (s) Allahın hökmü ilə Məaz ibn Cəbələ buyurdu ki, camaatı məscidə çağırsın. Camaat məscidə gələndən sonra Peyğəmbər (s) buyurdu: «Əli (ə)-dan başqa hər kəsin evinin qapısı məscidin içinə açılırsa, həmin qapını bağlasın və bir daha məscidə daxil olmasın!»

Peyğəmbər (s) buyurdu: Bu hökm Allah tərəfindəndir.

قَالَ رَسُولُ اللَّهِ (ص) لَا يَحِلُّ لِأَحَدٍ أَنْ يُجْنِبَ فِي هَذَا الْمَسْجِدِ إِلَّا أَنَا وَ عَلِيٌّ وَ فَاطِمَةُ وَ الْحَسَنُ وَ الْحُسَيْنُ عَلَيهِمُ السَّلَام وَ مَنْ كَانَ مِنْ أَهْلِي فَإِنَّهُمْ مِنِّي

**«Mən, Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə)-dan başqa heç kəsin evindən bu məscidin içinə açılan qapıdan ged-gəl etməyə icazəsi yoxdur».**[2]

**Səkkizinci fəzilət:** Həzrət Əli (ə) peyğəmbərlərin xüsusiyyətlərinə malik idi. Hər kəs Adəmin (ə) elmini, Nuhun (ə) hikmətini, İbrahimin (ə) səxavət və helmini, Süleymanın (ə) gülər üzünü, Davudun (ə) zöhdünü və Yusifin (ə) cəmalını müşahidə etmək istəsəydi, Əmirəl-möminin Əli (ə)-baxardı. Çünki, Əli (ə) onların yadigarı idi.

---

[1] Peyğəmbərin (s) hökmü ilə Məkkədən Mədinəyə hicrət edən, keçən müsəlmanlara «mühacirlər» deyilir.

[2] «Biharül-ənvar» cild 39, səh. 20.

**Doqquzuncu fəzilət:** Mələklər Həzrət Əli (ə)-ı çox istəyirdilər və o Həzrətin xidmətçisi olmaqla iftixar edirdilər. Mələklər Həzrət Əli (ə)-ı həddindən artıq istədikləri üçün Allah-Taala yeddinci asimanda Əli (ə)-ın simasında bir mələk xəlq etdi. Hər gün 70 min mələk onu ziyarət edir və ziyarətin savabını Həzrət Əli (ə)-ın aşiqləri üçün göndərirdilər.

**Onuncu fəzilət:** Həzrət Əli (ə) üçün dəsmal ilə bir vedrə «Kövsər» hovuzunun suyundan nazil oldu. O həmin su ilə yuyunandan sonra dəsmal ilə özünü quruladı.[1]

Başqa bir rəvayətdə nəql olunur ki, Həzrət Əli (ə)-am müharibələrin birində idi. Namaz vaxtı yetişdi. Əli (ə) dəstamaz almağa su tapa bilmədi. Cəbrayıl su və Mikayıl dəsmal gətirdi. Əli (ə) dəstəmaz alıb dəsmalla əl-üzünü sildi.[2]

**On birinci fəzilət:** Allah tərəfindən Peyğəmbər (s) və Həzrət Əli (ə) üçün çoxlu töhfələr, hədiyyələr nazil olubdur, o cümlədən nar, üzüm, heyva və s.

**On ikinci fəzilət:** Həzrət Əli (ə) Behişt və Cəhənnəmi bir-birindən ayırandır.

Həmçinin o Həzrət «Kövsər» hovuzunun saqi və su paylayanıdır. Dünya və axirətdə Peyğəmbərin (s) pərçəmdarıdır. Həzrət Əli (ə)-ı istəmək iman və Onu düşmən tutmaq kafirlikdir; Onun vilayəti (hökumətçiliyi) Allah və Peyğəmbərin (s) vilayətidir; Onunla ədavət saxlamaq Allah və Peyğəmbərlə (s) ədavət saxlamaqdır. Həzrət Əli (ə)-ın vilayətini hər kəs qəbul etsə İlahi əzabdan amanda qalacaq. Əgər bütün bəşəriyyətin qəlbində Həzrət Əli (ə)-ın məhəbbəti olsaydı, Allah-Taala Cəhənnəm odunu xəlq etməzdi. Od ağacı yandırdığı kimi Əli (ə)-ın məhəbbəti də günahları yandırır.

---

[1] «Biharül-ənvar» cild 39, səh. 114.
[2] «Biharül-ənvar» cild 39, səh. 116.

Həzrət Əli (ə)-ın misalı «Qul huvəllahu əhəd» misalı kimidir, yəni hər kəs bir dəfə «Qul huvəllahu əhəd»-i oxusa, elə bil ki, Quranın üçdə bir hissəsini oxuyubdur, hər kəs iki dəfə oxusa, elə bil ki, Quranın üçdə iki hissəsini oxuyubdur, hər kəs üç dəfə oxusa, elə bil ki, Quranın hamısını oxuyubdur. Eləcə də hər kəs Əli (ə)-ın məhəbbətini dili ilə iqrar etsə, imanının üçdə bir hissəsini ələ gətirmiş olar, hər kəs Əli (ə)-mı həm dildə, həm qəlbən istəsə imanın üçdə iki hissəsini qazanmış olar, hər kəs dildə və qəlbdə Həzrəti sevəndən sonra əməldə də Ona kömək etsə imanın hamısını ələ gətirmiş olar.[1]

Peyğəmbərin (s) səhabələri münafiq və iki üzlü insanların nişanəsini, Həzrət Əli (ə)-la düşmənçilik edənləri bilir. Əli (ə)-la düşmənçilik edənlər ya zinadan ya da heyz qanından əmələ gələnlər olubdular.

Peyğəmbər (s) Əli (ə)-a buyurub:

لا يُحِبُّکَ إِلّا مَن طابَت وِلادَتُه وَ لا يُبغِضُکَ إِلّا مَن خَبُثَت وِلادَتُه وَ لا يُوالِيکَ إِلّا مُؤمِنٌ وَ لا يُعادِيکَ إِلّا کافِرٌ

**«Səni halalzadədən başqa heç kəs istəmir və səni zinadan əmələ gəlmiş adamdan başqa heç kəs özünə düşmən tutmur. Səni yalnız mömin adam istəyir və yalnız kafir adam səninlə düşmənçilik edir».**[2]

Peyğəmbər (s) buyurubdur:

حُبُّ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ حَسَنَةٌ لَا تَضُرُّ مَعَهَا سَيِّئَةٌ وَ بُغْضُهُ سَيِّئَةٌ لَا تَنْفَعُ مَعَهَا حَسَنَةٌ

**«Əli ibn Əbu Talib (ə)-ı sevmək yaxşılıqdır, hər kəsin qəlbində onun məhəbbəti olsa, ona heç bir zərər çatmaz;**

---

[1] «Biharül-ənvar» cild 39, səh. 193.
[2] «Biharül-ənvar» cild 39, səh. 300.

**onunla düşmənçilik etmək günahdır, hər kəs Əli (ə)-la düşmənçilik etsə, heç bir yaxşı iş ona fayda verməz».**[1]

Həmçinin Peyğəmbər (s) buyurubdur:

شِيعَةُ عَلـيٍّ (ع) هُمُ الفائِزُونَ يَومَ القِيامَةِ

**«Əlinin şiələri qiymət günü nicat tapanlardır».**

İbn Abbas rəvayət edir ki, Həssan ibn Sabiti «Mina»-da gördüm. Rəsulullah (s) və əshabı da orada idi. Rəsulullah (s) buyurdu:

**«Ey müsəlmanlar, bu Əli ibn Əbu Talibdir, ərəbin seyyididir, mənim vəsimdir. Onun mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Lakin məndən sonra peyğəmbər gəlməyəcək.**

**Əgər tövbə edən şəxsin qəlbində Əli (ə)-ın məhəbbəti olmasa, onun tövbəsi qəbul olmayacaq».**

Sonra Peyğəmbər (s) üzünü Həssan ibn Sabitə tutub buyurdu: - Ey, Həssan, bu barədə bir şeir de!

Həssan bu şeiri dedi:

لا تُقبَلُ التَّوبَةُ مِن تائِبِ إلّا بِحُبِّ عَلِي بنِ اَبي طالِبِ
أَخِي رَسُولِ اللهِ بَل صِهرَةِ وَالصِّهرُ لا يُعدَلُ بِالصّاحِبِ
وَمَن يَكُن مِثلَ عَلِيٍّ وَقَد رُدَّت لَهُ الشَّمسُ مِنَ المَغرِبِ

Şeirin məzmunu:

Heç bir tövbə edənin tövbəsi Əli (ə)-ın məhəbbəti olmadan qəbul olmaz, Əli (ə) Allahın Rəsulunun (s) qardaşı və kürəkənidir. Kürəkən sahabə ilə bərabər deyil. Kim Əli (ə) kimi ola bilər, halbuki günəş o Həzrət üçün məğribdən geri qaytarıldı.[2]

---

[1] «Biharül-ənvar» cild 39, səh. 304.
[2] «Biharül-ənvar» cild 37, səh. 260.

**On üçüncü fəzilət**: Həzrət Əli (ə)-a tohin etmək kafirlikdir. Hər kəs hədis kitablarına müraciət etsə görəcək ki, Həzrət Əli (ə)-a tohin edənlər bu dünyanın özündə də İlahi əzaba düçar olubdur. Məsələn: Bir kişi Əli (ə)-a tohin etdi. O, bu işinə görə dəvənin ayağı altında qalıb həlak oldu. Bir nəfər xətib o Həzrətə söyüş verdiyi üçün kor oldu. Həmçının, Əbi Əbdillah Əlmühəddis Əli (ə)-ın fəzilətini inkar etdiyi üçün kor oldu. Dəməşqli bir xətib Həzrəti təhqir etdiyinə görə onun zahiri görünüşü it sifətinə çevrildi. Bir nəfər azan verən şəxs Əli (ə)-a söyüş verdiyinə xatir donuz sifətinə düşdü, başqa bir kişinin üzü kömür kimi qaraldı.

Həzrət Əli (ə) ona tohin edənlərdən birinu boğazını yuxuda sıxdı. Həmçının o Həzrəti təhqir edənlərdən bir dəstəsi, o cümlədən Əhməd ibn Həmdun Musili yatdıqları yerdə həlak oldular.

Mühəmməd ibn İbadın qonşusu Həzrətə tohin edirdi. Nəhayət, onun başı bədənindən ayrıldı.

Haris ibn Noman Həzrət Əli (ə)-ın imamətini inkar etdi. Allah-Taala ona böyük əzab nazil etdi.[1]

**On dördüncü fəzilət:** Həzrət Əli (ə) xalqın ən böyük alimidir. O, Həmişə Rəsulullahın (ə) xidmətində idi və nübüvvətin elm xəzinəsindən bəhrələnirdi. Peyğəmbər (s) dünyadan gedən zaman elmin min qapısını Həzrət Əli (ə)-ın üzünə açdı, hər qapıdan da min qapı açıldı.[2]

Peyğəmbər (s) buyurubdur:

أَنَا مَدِينَةُ العِلمِ وَعَلِيٌّ بابُها

**«Mən elmin şəhəri və Əli (ə) onun qapısıdır».**

---

[1] «Biharül-ənvar» cild 40, səh. 127.

[2] «Biharül-ənvar» cild 40, səh. 127.

Çox vaxt İlahi hökümlər əshab üçün qaranlıq qalırdı. Onlar qarşıya çıxan məsələnin qarşısında aciz qaldıqları üçün Həzrət Əli (ə)-a müraciət edir və məsələnin hökmünü öyrənirdilər. Əshabların bəzisi səhf fətva verən zaman Həzrət Əli (ə) onları hidayət edirdi. Elə buna görə də Ömər dəfələrlə deyib:

لَو لا عَلِيٌّ لَهَلَكَ عُمَرُ

«Əgər Əli (ə) olmasaydı Ömər həlak olardı».

Ömər başqa bir yerdə deyibdir:

أَعُوذُ مِن مُعضَلَةٍ لَيسَ فِيها أَبُوالحَسَنِ

«Həzrət Əli (ə) olmayan yerdə qarşıya çıxan müşküldən Allaha pənah aparıram».

Məlumatı olanlar və alimlər üçün məlum olduğu kimi heç vaxt Həzrət Əli (ə) bir dənə hökümdə belə onlara müraciət etmədi.

İbn Əbil Hədid bütün elmin alimlərini Həzrət Əli (ə)-ın şagirdləri bilirdi.

Həzrət Əli (ə)-ın zehni fövqaladə güclü idi. O Peyğəmbərin (s) bütün dediklərini əzbər bilirdi.

Allah-Təala tərəfindən gələn bütün xəbərləri Rəsulallah Əli (ə)-a buyurdu. «Haqqəh» surəsinin 12-ci ayəsi Həzrət Əli (ə)-ın haqqında nazil oldu. Həmin ayə bundan ibarətdir:

وَتَعِيها أُذُنٌ واعِيةٌ

Ərəblər Həzrət Əli (ə)-ı «əql» adlandırırdılar. Həzrət Əli (ə) özü müxtəlif yerlərdə öz elminin çoxluğundan xəbər verdi. Necə ki, buyurub:

سَلُونِی قَبلَ أَن تَفقِدُونِی

**«Ey camaat, nə qədər ki, mən sizin aranızdan gedməmişəm hər nə istəyirsiniz soruşun!»**

Camaat həmişə çətin məsələləri Əli (ə)-dan soruşur və cavabını eşidirdilər.

Təəcüblüdür ki, hər kəs Həzrət Əli (ə)-dan sonra belə bir məqamı (bütan elmlərə sahib olmağı) iddia edibdirsə, zillət və xarlıq içində rüsvay olubdur. Necə ki, Nasir Abbasinin padşahlıq dövründə Müqatil ibn Süleyman, İbn Cəvzi və Vaizi Bağdadi bu maqamı iddia edərək rüsvay oldular.

**On beşinçi fəzilət:** Həzrət Əli (ə) qeybi xəbərləri bilir və lazım olan vaxt xəbər verirdi. Həzrətin xəbər verdiyi qeybi xəbərlərin sayı-hesabı yoxdur. Mən burada həmin xəbərlərin bir neçəsini yazıram:

1 - Həzrət Əli (ə) dəfələrlə buyurmuşdu ki, İbn Mülcəm mənim başımı iki yerə bölüb saqqalımı başımın qanına boyayacaq.

2 - Həzrət, İmam Həsən (ə)-ın zəhərlə şəhid edilməsini xəbər vermişdi.

3 - Əli (ə) çox vaxt övladı Hüseyn (ə)-ın şəhadətindən xəbər verirdi. O, bir dəfə Kərbala səhrasından keçirdi. Həzrət şəhidlərin qətligahını, qadınların olduğu yerləri nvə dəvələrin dayanacağı yerləri göstərib oğlu Hüseyn (ə)-ın məzlumiyyətinə görə çox ağladı.

4 - Əli (ə) Bərra ibn Azibə dedi ki, sən İmam Hüseyn (ə)-ın çəhid olduğu dövrə qədər ömür sürəcəksən, amma oğlum Hüseynə (ə) kömək etməyəcəksən.

5 - Həzrət Əli (ə) xəbər verdi ki, məndən sonra Müaviyə yaşayacaq və müsəlmanların hakimiyyətini qəsb edəcək.

6 - Əli (ə) Həccac ibn Yusif Səqəfinin hökumətindən, Yusif ibn Ömərdən və onların kütləvi qırğınından, həmçinin

Bəni-Ümeyyənin dövründə camaatın giriftarçılığından xəbər verdi.

7 - Həzrət Əli (ə) «Nəhrəvan-Xəvariclərindən», onların çaydan keçməsindən, ölümündən və xəvaricin sərkərdəsi Zussüdyənin öldürülməsindən xəbər veribdir.

8 - Həzrət Əli (ə) öz əshabının bir dəstəsinin başına gələcək işləri və onların necə öldürülməsini xəbər verdi. Necə ki, Cüvəyrət ibn Müsəhhərin və Rüşəyd Həcərinin əl-ayağının kəsilməsini və onların dardan asılmasını xəbər verdi. Həmçinin Qənbərin, Kümeylin, Hicr ibn Ədinin öldürülməsini, Meysəm Təmmarın necə öldürülməsini, onun Əmr ibn Harisin evinin yaxınlığında dardan asılmasını və dar ağacının Meysəmə göstərdiyi xurma ağacından hazırlanmasını xəbər verdi.

9 - Xalid ibn Ürfətənin zəlalət qoşununa sərkərdəlik etməsini;

10 - «Nakisin», «Qasitin» və «Mariqinin» döyüşməsini;

11 - Təlhə və Zübeyr beyəti sındırmaq və Həzrət Əli (ə)-la müharibəyə hazırlaşmaq məqsədi ilə Məkkəyə tərəf getmək istəyirdilər. Onlar dedilər: - Biz ümrə həccinə gedirik. Həzrət Əli (ə) buyurdu: Xeyir, siz Bəsrə şəhərinə getmək istəyirdiniz.

Sonra Həzrət Əli (ə) öz əshabına buyurdu ki, bundan sonra siz Təlhə və Zübeyri böyük qoşunla görəcəksiniz.

12 - Həzrət Əli (ə) Salmanın «Mədain» şəhərində dünyadan getdiyi vaxt onun vəfatını camaata xəbər verdi və özü teyyül-ərz ilə Mədainə gəldi.

13 - O Həzrət Bəni-Ümeyyə və Bəni-Abbasın xilafətindən xəbər verdi. Əli (ə) öz xütbələrindən birində Bəni-Abbas xilifələrinin bəzi xüsusiyyətlərinə işarə etdi, o cümlədən Səffanın mehribanlığını, Mənsurun qan tökməsini, Rəşidin böyük səltənətini, Məmunun biliciliyini, Mütəvəkkilin inadkarlığını və oğlunun onu öldürməsini, Mötəmidin Sahibi

Zənc ilə müharibə etdiyi üçün çoxlu zəhmət çəkməsini, Müqtədirin öldürülməsini və onun üç oğlunun yəni Razi, Müttəqi və Mütiin xilafətə çatmasını xəbər verdi.

14 - Həzrət Əli (ə) Kufədə baş verəcək fitnələri və orada zülüm bayrağını əllərinə alan zalım sərkərdələrin bəlalara düşməsini xəbər veribdir.

15 - Həzrət Əli (ə) «Ziqar»da İbn Abbasa buyurdu: Min nəfərdən ibarət olan bir qoşun bizə kömək etməyə gələcək.

16 - Həzrət «Həlaku» qoşunun və onun fitnələrini xəbər verdi.

17 - Həzrət Əli (ə) «Cəməl» müharibəsindən sonra Bəsrə şəhərindəki çıxışında zəngilərin əli ilə bəsrəlilərin öldürülməsini xəbər verdi.

18 - Həzrət Əli (ə) Dəccal və dünyada baş verəcək hadislər haqqında xəbər veribdir.

19 - Əli (ə) buyurubdur: Gələcəkdə «Bağdad» adlı bir şəhər qurulacaq.

20 - Həzrət Əli (ə) buyurub:

وَأَيْمُ اللهِ لَتُغرَقَنَّ بَلدَتُكُم حَتّى كَأَنّى أَنظُرُ إِلى مَسجِدِها كَجُؤجُؤِ طَيرٍ فِى لُجَّةِ بَحرٍ

**«And olsun Allaha, sizin şəhəriniz (Bəsrə) suyun içində qərq olacaq, elə qərq olacaq ki, onun məscidi dəryada quşun sinəsi göründüyü kimi görünəcəkdir».**

21 - Həzrət Əli (ə) Abdullah ibn Zübeyr haqqında buyurub:

خَبٌّ ضَبٌّ يَرُومُ أمراً وَلا يُدرِكُهُ يَنصِبُ حِبالَةَ الدّينِ لاصطِيادِ وَ هُوَ بَعدُ مَصْلُوبُ قُرَيشٍ

**«Kinli və paxıl hiyləgərin məqsədi (xəlifə olmaq niyyəti) vardır. Lakin, o, məqsədinə çatmayacaq. O, din ilə tələ qurub dünyanı ovlamaq istəyir».**

22 - Əli (ə) Mühəmməd ibn Əbdullah Məhzin öldürülməsini xəbər verdi.

23 - Əli (ə)-ın buyurduğu qeybi xəbərlərdən biri Məhəmmədin qardaşı İbrahimin Vasit və Kufə şəhərinin arasında öldürülməsidir. Həzrət bu barədə buyurur:

بِبا خَمرى يُقتَلُ بَعدَ أَن يَظهَرَ وَتُقهَرُ بَعدَ أَن يَقهَرَ

**«Aşkar olandan sonra «Baxəmrada» öldürüləcək. O, düşmənə qələbə çalandan sonra məğlub olacaq».**

Həmçinin buyurur:

يَأتِيهِ سَهمٌ غَربٌ يَكُونُ فِيهِ مَنِيَّتُهُ فَيابُؤسَ الرّامِى شَلَّت يُدُهُ وَ وَهَنَ عَضُدُهُ

**«Onu bir nəfər naməlum oxatan oxlayacaq və onunla da dünyadan gedəcək. Ah! Həmin oxçu nə qədər qormaz və bədbəxdir. Əli-qolu şil olsun».**

24 - Həzrət Əli (ə) başqa bir yerdə öz qeybi xəbərində buyurdu:

ثُمَّ يَظهَرُ صاحِبُ القِيروانَ... مِن سُلالَةِ ذى البِداءِ المُسَجى بِالرِّداءِ

**«Həmin vaxt «Qirvanın» sahibi aşkar olacaq..., O, Zilbidanın nəslindəndir və əbanı özünə bükər».**

Həzrət burada «Fəxxidə» qətlə yetirilənlər, məğribdə Ələviyyə sultanlarının səltənəti və İsmailiyyə sultanları haqqında xəbər verir.

25 - Həzrət Əli (ə) «Ali-Bəveyh» sultanları haqqında buyurur:

وَمَن يَخرُج مِن دَيلَمانَ بَنُوا الصَّيادِ... حَتّى يَملِكُوا الزَّوراءِ وَ يَخلَعُوا الخُلَفاءَ

**«Deyləmandan bir-neçə övlad törəyəcək və onlar balığ övlayacaqlar...»**

Sonra Həzrət buyurur: **«Onlar Bağdadı fəth edəcəklər və xəlifələri qovacaqlar».**

26 - Əli (ə) Mərvanın[1] az müddətli səltənəti haqqında buyurur:

أَما إِنَّ لَهُ إِمرَةً كَلَعقَةِ الكَلبِ أَنفَعُ وَ هُوَ الأَكبَشُ ألأَربَعَةِ وَ سَتَلقى ألأُمَّةُ مِنهُ وَمِن وُلدِهِ يَوماً أحمَرَ

**«Agah olun ki, o qısa bir müddətdə hakimiyyət edəcək. Onun hökumətinin müddəti itin öz burnunu yalaması qədər olacaq. O dörd dənə cəngavərin atası olacaq. Ümmət onun və övladlarının əlində giriftar olacaq».**

27 - Həzrət Əli (ə) öz qeybi xəbərlərində Bəni-Abbasın xilafəti və türklərin onlara qalib gəlməsini xəbər veribdir.

**On altıncı fəzilət:** Həzrət Əli (ə) Rəsulullahdan (s) sonra xalqın içində ən zahid[2] şəxs idi. Bütün zahidlər Onun zöhdü qarşısında ikiqat olurdular. O, zahidlərin ağası idi. Heç vaxt doyum qarnına xörək yemədi. Onun geyimi hamının geyimindən sadə idi. Az hallarda çörəklə yanaşı başqa bir şey yeyərdi, o, da ya zeytun yağı ya da duz olardı.

Həzrət Əli (ə) Osman ibn Hənəfəyə yazdığı məktubda buyurur: **«Sizin İmamınız (Həzrət Əli (ə)) bu dünyada iki köhnə paltara və iki tikə quru çörəyə kifayət etdi...»**

Sonra Həzrət məktubun davamında qeyd edir: «Əgər mən istəsəydim xalis bal və buğda çörəyi yeyərdim, ipək paltarlar

---

[1] Mərvan ibn Həkəm Əməvi. Mərvani Əməvinin ikinci xəlifəsi olubdur. O, hicrinin 64-cü ilində Yezidin ölümündən və Müaviyə ibn Yezidin istefa verməsindən sonra Şamda xəlifə oldu. Onun hökuməti 5 aydan az davam etdi.

[2] Ən sadə həyat sürən şəxsə «zahid» deyilir.

geyərdim. Lakin, heç vaxt həva-həvəs mənə qalib gələ bilməz. Ola bilsin ki, Hicazda ya Yəməndə bir nəfər müsəlman çörək tapa bilmir və ac qarına yatır. Belə olan surətdə mən tox qarına yatım və mənim ətrafımdakılar ac qalsınlar? Onlar ac qala-qala məni «Möminlərin əmiri» ləqəbiylə çağırsınlar, lakin fəqirlərin çətinliklərinə, qəm-qüssələrinə şərik olmayım?!»[1]

Hər kəs Həzrət Əli (ə)-ın xütbələrini, kəlamlarını mütaliə etsə, Onun dünyaya etinasızlığına və həddindən artıq zöhdünə yəginlik tapar.

Həzrət Əli (ə) buyurur:

وَاللهِ إِنَّ دُنياكُم أَهوَنُ فِى عَيِنِى مِن عَراقِ خِنزِيرٍ فِى يَدِ مَخذُومٍ

**«Allaha and olsun, sizin dünyanız mənim gözümdə cüzam xəstəliyinə düçür olmuş şəxsin əlindəki üzərində azacıq ət olan donuz sümüyündən də qiymətsizdir».**[2]

**On yeddinci fəzilət:** Həzrət Əli (ə) xalqın ən ibadətcili, abidlərin ağası və çırağıdır. Həzrətin namazı hamının namazından uzun və orucu hamının orucundan çox idi. Allah bəndələri gecə namazını və müstəhəbbi namazları Əli (ə)-dan öyrənibdir.

Onun nurlu alnı səcdənin çoxluğundan yara bağlamışdı.

Bir dəfə Əli (ə)-ın qıçını oxladılar. Ox Həzrətin qıçına batdı. Oxu çıxardan zaman Həzrətin ağrı hiss etməməsi üçün gözlədilər ki, İmam namaza məşğul olsun. İmam namaz qıldığı zaman oxu qıçından çıxartdılar və Həzrət heç bir ağrı hiss etmədi. Çünki Əli (ə) namaz qıldığı vaxt bütün diqqəti Allah-Təalaya yönəlir və Haqq-Təaladan başqa heç bir şey haqqında fikirləşmirdi.

---

[1] «Nəhcül-bəlağa» cild 3, səh. 78, məktub 45.
[2] «Nəhcül-bəlağa» cild 3, səh. 205.

Həzrət Əli (ə) hər gecə min rəkət namaz qılırdı. Bəzi vaxt İlahi qorxunun nəticəsində ürəyi gedir və bihuş olurdu.

Bir dəfə Həzrətin kənizindən soruşdular: - Həzrət Əli (ə)-ın namazı ramazan (orucluq) ayında necə idi?

Kəniz dedi: - Ramaz və şəvval ayı Əli (ə)-ın yanında eyni idi, bütün gecələri ibadətlə keçirdirdi.

Həzrət Əli ibn Hüseyn (ə)[1] həddindən artıq ibadət etdiyi üçün ona «Zeynülabidin»[2] deyirdilər. Bununla belə o Həzrət buyururdu:

مَن يَقدِر عَلى عِبادَةِ عَلِيّ بنِ أَبِى طالِبٍ عليه السلام

**«Əliyyibni Əbu Talibin (ə) ibadətinə kimi qüdrəti çatar? Kim Əli (ə) kimi ibadət edə bilər?»**[3]

Bir dəfə Zirar Həzrət Əli (ə) haqqında Müaviyəyə dedi:

وَلَو رَأَيتَهُ إِذ مَثَّلَ فِى مِحرابِهِ وَقَد أَرخَى الَّيلُ سُدُولَهُ وَ غارَت نُجُومُهُ وَهُوَ قابِضٌ عَلى لِحيَتِهِ يَتَمَلمَلُ تَمَلمُلَ السَّلِيمِ وَ يَبكِى بُكاءَ الحَزينِ وَ هُوَ يَقُولُ يا دُنيا أَبِى تَعَرَّضتِ أَم اِلَيَّ تَشَوَّقتِ هَيهاتَ هَيهاتَ لا خاجَةَ لِى فِيكَ أَبَنتُكِ ثَلاثاً لا رَجعَةَ لِى عَلَيكِ» ثُمَّ يَقولُ: « واهُ واهُ لِبُعدِ السَّفَرِ وَ قِلَّةِ الزادِ وَ خُشُونَةِ الطَّرِيقِ

«Ey kaş, onun ibadət mehrabında (namaz qıldığı yerdə) görürdün. Elə ki, gecə öz qara donunu hər yerə sərirdi və ulduzlar aşağı enirdi (yəni gecənin ən zülmət çağlarında) öz mübarək saqqalını əlinə tuturdu, ilan çalmış adam kimi qıvrılır və müsibətə düşmüş şəxs kimi ağlayaraq buyururdu: - Ey dünya, mənim dalımca düşmüsən və məni ələ keçirtmək arzusundasan? Heç vaxt, heç vaxt! (bu mümkün olan iş deyil!) Mənim sənə ehtiyacım yoxdur. Sənə üç dəfə təlaq verdim, daha heç vaxt sənə sarı qayıtmayacağam.

---

[1] Dördüncü İmam.
[2] İbadətçilərin zinəti.
[3] «Biharül-ənvar» cild 41, səh. 17.

Sonra Həzrət buyurdu: - Ah, ah, aman axirət səfərinin uzunluğundan, azuqənin azlığından və yolun çətinliyindən».

Zirar deyir:

فَبَكى مُعاوِيَةُ وَ قالَ حَسبُكَ يا ضِرارَ كَذالِكَ وَاللهِ كانَ عَلِيٌّ عليه السلام رَحِمَ الله أَبا الحَسَنِ عليه السلام

«Müaviyə ağladı və dedi: - Ey Zirar, daha bəsdir. Allaha and olsun, Əli (ə) sən dediyin kimi idi. Allah onu rəhmət etsin!»

**On səkkizinci fəzilət:** Həzrət Əli (ə)-ın artıq dərəcədə səxavətli olmasıdır. Bu mətləb çox aydın olduğuna görə artıq izaha ehtiyacı yoxdur. Həzrət gündüzlər oruc tutar, gecələri ac qarına ibadət edərdi. Öz yeməyini başqalarına bağışlayardı. «Həl əta» surəsi onun bəxşişi barəsində nazil olmuşdur. Həmçinin bu ayə də

الَّذِينَ يُنْفِقُونَ أَمْوَالَهُمْ بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلَانِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِنْدَ رَبِّهِمْ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

***«Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Rəbbi yanında böyük mükafatları vardır».***[1] Həzrətin haqqında nazil olubdur.

Həzrət işləyir və aldığı hüququ sədəqə verirdi. Özü isə acından qarnına daş bağlayırdı. Əbu Tüfeyl deyir: Gördüm o Həzrət, yetimləri öz yanına çağırıb onlara bal yedirtdi və onlara elə məhəbbət göstərdi ki, Həzrətin bəzi səhabələri[2] yetim olmağı arzu etdilər.[3]

---

[1] «Bəqərə» surəsi, ayə 274.
[2] Dostları, əshabı.
[3] «Biharül-ənvar» cild 41, səh. 29.

Köçəri bir kişi Həzrətdən bir şey istədi. Həzrət ona «Min verin!» - deyə buyurdu. Əli (ə)-ın vəkili soruşdu: Qızıl ya gümüş? (Yəni min dinar verim ya min dirhəm?)

Həzrət buyurdu: Onların hər ikisi mənim nəzərimdə daşdır. Köçəri kişi üçün hansı faydalıdır onu verin.

Həzrət Əli (ə)-ın düşməni Müaviyə o Həzrətin səxavətli olmasına şəhadət verib deyir: - Əgər Əli (ə)-ın bir evi qızılla və o birisi samanla dolu olsaydı, əvvəl qızılı son dinarına qədər sədəqə verərdi.

Rəvayət olunmuşdur ki, «Yənbu» adlı bir yerdə o Həzrət üçün qənat[1] qazdılar və bu qənatdan su fəvvarə vururdu. Su fəvvarə kimi çıxdığı üçün bu yeri «Yənbu» adlandırdılar. Sonra o Həzrət gözaydınlığı verdilər. Həzrət buyurdu: Gələcək nəslə gözaydınlığı verin!

Sonra Həzrət buyururdu:

هِيَ صَدَقَةٌ بَتَّةٌ فِي حَجِيجِ بَيتِ اللهِ وَعابِرِ سَبيلِ اللهِ، لا تُباعُ وَلا تُوهَبُ فَمَن باعَها أَو وَهَبَها فَعَلَيهِ لَعنَةُ اللهِ وَالمَلائِكَةِ وَ النّاسِ أَجمَعِينَ، وَ لايَقبَلُ اللهُ مِنهُ صَرفًا وَ لاعَدلًا

**«O (orada çıxan su), Allah evinə (Kəbəyə) burdan keçib gedənlər və hacılar üçün həmişəlik ehsandır. Heç kəsə satılmaz və bağışlamaz. Hər kəs onu satsa ya başqasına bağışlasa, Allahın, mələklərin və camaatın lənəti ona olsun!»**[2]

Seyyid ibn Tavus «Kəşfül-mühəccə» kitabında rəvayət edir ki, Əli (ə) buyurdu: Mən Fatimə (s.ə) ilə evlənən zaman heç bir şeyim yox idi, amma bu gün mənim var-dövlətim Bəni-

---

[1] Arx, quyu Yerin altında su yatağı olur, suyu çıxmaq üçün orada arx qazırlar.

[2] «Biharül-ənvar» cild 42, səh. 71.

Haşim arasında bölünsə, onların hamısına çatar və maddi vəziyyətlərini yaxşılaşdırar.

Həmçinin rəvayət edir: Əli (ə) bütün malını vəqf[1] etdi. Onun arpa-buğdasının qiyməti 40 min əşrəfiyə[2] bərabər idi. Bununla belə Həzrət öz qılıncını satan zaman belə buyurdu: **Kim mənim qılıncımı alar? Əlbəttə əgər Mənim yanımda şam yeməyi olsaydı, onu satmazdım.**

**On doqquzuncu fəzilət:** O Həzrət yaxşı xasiyyətli (təbiətli) və gülərüz idi. Bu mətləb o qədər məşhurdur ki, hətta Əli (ə)-ın düşmənləri bu xüsusiyyəti onun üçün eyb saydılar. Əmras deyirdi: - O, çox zarafat edir. Əlbəttə Əmras Ömərin dediyi sözü təkrar edirdi. Ömər Əli (ə)-ın xəlifə seçilməməsi üçün «Əli (ə) çox zarafat edir» - deyə, bunu eyb saymışdır.

Nəql olunubdur ki, bir gün Müaviyə Qeys ibn Sədə dedi: Allah Əbul-Həsənə[3] rəhmət etsin, çox gülərüz və zarafatçı idi.

Qeys dedi: Bəli, düz deyirsən. Allahın Rəsulu da öz sahəbələri ilə zarafat edərdi və həmişə gülərüzlü idi. Ey Müaviyə! Sən zahirdə belə dedin ki, güya onu tərifləyirsən, amma həqiqətdə sən o cənabı pislədin. And olsun Allaha, Əli (ə) gülərüzlü və zarafatçı olmaqla yanaşı, hamıdan heybətli idi. Əli (ə)-ın übuhhəti təqva sayəsində idi. Şamın alçaqlarının təsəvvür etdikləri sənin übuhhətin kimi deyil.

Rəvayət olunmuşdur ki, Əli (ə) xurma satanların yanından keçirdi. Gördü ki, bir kəniz ağlayır. Ondan «Niyə ağlayırsan?» - deyə, soruşdu. Kəniz dedi: Ağam (sahibim) xurma almaq üçün mənə bir dirhəm verdi. Xurmanı alıb apardım, amma o bəyənmədi. İndi gətirmişəm qaytaram, xurma satan isə geri götürmür.

---

[1] Hamının istifadəsi üçün ayrılmış şeylər.
[2] Əşrəfi, keçmişdə İranda qızıl pul olmuşdur.
[3] Əli (ə)-ın künyəsi.

O cənab xurma satana buyurdu:

- Ey Allahın bəndəsi, bu kənizdir və onun heç bir ixtiyarı yoxdur. Onun dirhəmini qaytar, öz xurmanı geri al!

Xurma satan ayağa qalxdı Əli (ə)-ın sinəsinə vurub Onu itələdi. Camaat dedi: Ey kişi, bu Əmirəl-möminin Əli (ə)-dır.

O kişi qorxdu. Xurmanı alıb dirhəmi kənizə qaytardı. Sonra Əli (ə)-a dedi. Məni bağışla! Həzrət buyurdu: Əgər işində düz olsa, səni tez bağışlayaram.

Ümumiyyətlə Həzrət Əli (ə) gülərüz idi. Həmişə təbəssüm edərdi.

وَ كانَ عَلَيهِ السَّلامُ بِشرُهُ دائِمٌ وَ ثَغرُهُ غَيثٌ لِمَن رَغِبَ وَ غِياثٌ لِمَن رَهِبَ مالُ الآمِلِ وَ ثِمالُ الأَرامِلِ يَتَعَطَّفُ عَلَى رَعِيَّتِهِ وَ يَتَصَرَّفُ عَلى مَشِيَّتِهِ

«Həzrət Əli (ə) həmişə gülərüz idi. Hər kəsə ürək-dirək versəydi, elə bil ki, həmin şəxs üçün «ümid» yağış kimi yağırdı. Əli (ə)-ın qəlbində Allah qorxusu olduğu üçün başqalarının fəryadına çatardı və hamı ilə mehriban idi. Fəqirlərin, yoxsulların əlindən tuturdu. Öz iradəsi ilə işləri idarə edirdi».[1]

**İyirminci fəzilət:** Həzrət artıq dərəcədə tövazökar olubdur. Həzrət ev üçün odun gətirirdi, su çəkirdi, evi süpürürdü, öz ayaqqabısına yamaq vururdu. Bəzi vaxtlar qoca arvadların su qabını alıb öz çiynində gətirərdi. Həmişə yemək kisəsini çiyninə qoyub, yetimlər üçün yemək aparardı. Bazarlarda tənha gəzər və yolunu azanlara yol göstərərdi, acizlərə kömək edərdi.

Bir kişi oğlu ilə o Həzrətin qonağı idi. Yemək yeyəndən sonra Qənbər əl yumaq üçün su gətirdi. Həzrət su qabını ondan alıb kişinin əlini yudu. Ona and verdi ki, arxayınlıqla əlini

---

[1] «Biharül-ənvar» cild 41, səh. 51.

yusun və elə təsəvvür etsin ki, Qənbər[1] onun əlini yuyur. Qonağın əlini yuyandan sonra oğlu Məhəmməd Hənəfiyyəni çağırıb buyurdu: Ey əziz oğlum! Əgər qonağın oğlu bizə tək gəlsəydi, özüm onun əlini yuyardım. Lakin atası ilə gəlib və Allah-Təala ata və oğul arasında fərq qoyubdur. Ata ananın əlini yudu, oğul da oğulun əlini yusun.

Sonra Məhəmməd qonağın oğlunun əlini yudu.[2]

Həzrət ata minib, harasa getmək istəyirdi. Onun əshabı da Həzrətin arxasınca piyada yola düşdülər. Həzrət buyurdu: Hacətiniz vardır? Dedilər: Xeyir, istəyirik səninlə birlikdə gedək.

Buyurdu: Geri qayıdın! Piyadanın atlı ilə həmrah olması atlı üçün pislik, piyada üçün isə xarlıq (zəlillik)dir.[3]

وَ عَن أَبِي طالِبِ المَكّي :كانَ عَلِيٌّ عَلَيهِ السَّلامُ يَحمِلُ التَّمرَ وَ المالِحَ بِيَدِهِ وَ يَقُولُ:

لايَنقُصُ الكامِلَ مِن كَمالِهِ ماجَرَّ مِن نَفعٍ إِلَى عَيالِهِ

Əbu Talib Məkki deyir: Əli (ə) əlində xurma və balıq tutub yol gedərək buyururdu: Öz ailəsinə xidmət edən kamil şəxsin kamalından bir şey azalmır.[4]

**İyirmi birinci fəzilət:** Həzrət fövqaladə şücaətli idi. Həzrətin şücaətli olmasını dost-düşmən hamısı təsdiq edir. O bütün pəhləvanlara qalib və heç vaxt döyüşdən qaçmayıbdır. Bu mətləb, Həzrətin iştirak etdiyi Bədr, Ümid, Xeybər, Əhzab, Cəməl, Siffeyn və s. döyüşlərə nəzər saldıqda daha da aydınlaşır. Əli (ə)-ın qılıncı həmişə dəmir zirehlər, polad papaqlar üzərinə enərdi və onu parçalayıb düşməni öldürərdi.

---

[1] Əli (ə)-ın qulamı idi.
[2] «Biharül-ənvar» cild 41, səh. 54.
[3] «Biharül-ənvar» cild 41, səh. 55.
[4] «Biharül-ənvar» cild 41, səh. 54.

Əmirəl-möminin (ə) bu döyüşlərdə qeyri-adi (xariqul-adət) bir iş görmürdü. Həzrətin qüvvə və şüacaəti, Allahın bəşərə verdiyi qüvvə və şücaətidən ibarət idi. Dost və düşmən etiraf edir ki, Onun şücaəti keçmişdəkilərin şücaətini aradan apardı və gələcəkdəkilərin adlarını camaatın gözündən saldı. Həzrətin döyüşləri və döyüşlərdə göstərdiyi şücaətlər qiyamət gününə qədər dillər əzbəri olacaq və yaddan çıxmayacaq. Əli (ə) elə şücaətli bir şəxsdir ki, heç vaxt döyüşdən qaçmayıb və heç bir qoşundan qorxmayıbdır. Müaviyə Əli (ə)-a məktub yazdı ki, səninlə döyüşmək üçün böyük bir qoşunla gələcəyəm. Tirmah bu zaman Müaviyəyə dedi:

أَظُنُّكَ تُهَدِّدُ البَطَّ بِالشَّطِّ

**«Sənin Əli (ə)-ı böyük qoşunla qorxutmağın, ördəyi çoxlu sudan (böyük çaydan) qorxutmağa bənzəyir».**

Əli (ə)-ın qoşun dəryasından nə qorxusu var? Onun uzun dimdikli bir xoruzu var ki, (Malik Əştərə işarə edir) sənin bütün qoşununu buğda kimi dənləyər, indi qalıb Əli (ə)-ın özü!

Ümumiyyətlə düşmən heç vaxt Həzrətin müqabilində iman gətirməkdən başqa bir yolla nicat tapmayıbdır. Bir dəfə zərbə vurardı. Heç vaxt ikinci zərbəyə ehtiyac olmazdı. Həzrət pəhləvanlar öldürdü. Pəhləvanların qəbiləsi fəxr edirdi ki, onu Əli (ə) öldürüb. Buna görə də Əmr ibn Əbdəvədin bacısı, qardaşının mərsiyəsində bu məzmunda şeir oxudu:

Əgər Əmri Əli (ə)-dan başqası öldürsəydi, ömrü boyu ona ağlayardı. Amma onun qatili şücaətdə yeganə bir şəxs, kəramətdə yüksək bir şəxsiyyətdir. Onun qardaşımı öldürməsi ar deyil.

Bir an o Həzrətin müqabilində duran pəhləvanlar həmişə buna fəxr edib, öz şücaətli və qorxmaz olmasına öyünərdi. Kafir ölkələrin padşahları, öz məbədlərində o cənabın surətini

(şəkilini) çəkirdilər. Türk və Ali-Bəveyh padşahlarının bir qrupu, Həzrətin şəkilini təbərrük, düşmənə qələbə çalmaq naminə öz qılıncları üzərində çəkib özləri ilə gəzdirirdilər.

**İyirmi ikinci fəzilət:** Bilməliyik ki, o Həzrətin qüvvəsi aləmdə dillər əzbəridir. Heç kim onun kimi qüvvətli olmayıbdır. Heç kim onun dərəcəsinə yetişməyibdir. Xeybər qalasının qapısını möcüzəli əli ilə yerindən qoparatdı. Hətta bir qrup adam onu yerindən qaldıra bilmədilər. Ağır bir daşı quyunun üstündən götürdü, halbuki, qoşun onu yerindən tərpədə bilmirdi.

يا قالِعَ البابِ الَّتِى عَن هَزِّها        عَجَزَت أَكُفُّ أَربَعِينَ وَ أَربَع

«Ey 44 kişi yerindən tərpədə bilməyən qapını yerindən qopardan!»

İbn Şəhraşub[1] o Həzrətin qüvvəsi barəsində çoxlu hədislər nəql etmişdir. Məsələn: Həzrətin uşaqlıq vaxtında beləyi çırması, yüyrükdə olan zaman ilanın boğazından sıxıb onu öldürməsi və s...

Həzrətin Kufə və Məşhəd məscidinin sütünlarında barmağının izi, Təkrit, Musel və sair yerlərdə ayağının izi, Məkkədə Sur dağında böyük bir daşın üzərində qılıncının izi, Xeybər qalasında bir daşın üzərində və Badiyə dağlarında nizəsinin əsəri çox qədim zamanlardan tanınmışdır.

Deyirlər ki, Əmirəl-möminin (ə) hər kəsin əlini möhkəm sıxsaydı, nəfəsi kəsilərdi. Əgər qüvvəsini bir az da artır saydı, o adamı öldürərdi.

Əli (ə) dəyirman daşının miləsini boyunbağı edib Xalid ibn Validin boynuna asdı. Heç kim onu xilas edə bilmədi. Nəhayət, Həzrət özü onu tikə-tikə edib uzaqa atdı. Həmçinin rəvayət

---

[1] «Mənaqibe Ali Əbi Talib» kitabının müəllifi.

olunur ki, Həzrət Əli (ə) Xalidin boğazını iki barmağı (orta barmaq və baş barmağın yanındakı barmaq) ilə elə sıxdı ki, az qaldı həlak olsun. Xalid möhkəm qışqırdı və paltarını batırdı.

Həzrətin uşaqlıq çağlarında quyunun arasında asılı surətdə qalan süd qardaşını saxlaması və bunun kimi çoxlu rəvayətlər hamı üçün məlumdur.

Əli (ə)-ın maraqlı və möcüzəli işlərindən biri budur ki, o uzun illər Peyğəmbərin (s) kənarında kafirlər ilə cihad etdi və öz xilafəti dövründə Cəməl [1], Siffeyn [2] və Nəhrivan [3] döyüşlərində şücaətlə vuruşdu, heç vaxt məğlub olmadı vaxt güclü yaralanmadı. Həmişə öz rəqibinə qələbə çalardı. Onunla döyüşə çıxan heç vaxt canını qurtara bilmirdi. Döyüşdüyü bayraq altında bütün düşmənləri məğlub edər və heç vaxt düşmən qoşununun çoxluğundan qorxmazdı. Həmişə şir kimi döşmənə hücum çəkərdi.

**İyirmi üçüncü fəzilət:** Həzrət fəsihlərin[4] fəsihi idi. Bu mətləb o qədər aydındır ki, hətta Müaviyə buna iqrar edib deyir: - And olsun Allaha, Qüreyş tayfası üçün fəsahət və bəlağət[5] yolunu Əli (ə)-dan başqa heç kim açmamışdır. Söz və danışıq qanununu Ondan başqa kim təlim etməmişdir.

Fəsahət və bəlağət mütəxəssisləri o Həzrətin kəlamının tərifində belə deyirlər:

دُونَ كَلامِ الخالِق فَوقَ كَلامِ المَخلُوقِ

**«Əli (ə)-ın kəlamı, Allah kəlamından aşağı, məxluqatın kəlamından isə yuxarıdır».**

---

[1] **Cəməl döyüşü** - Ayişə, Təlhə və Zübeyrin törətdiyi müharibə.
[2] **Siffeyn döyüşü** - Müaviyə ilə Əli (ə)-ın arasında gedən müharibədir.
[3] **Nəhrivan döyüşü** - Xəvaricin, İmam Əli (ə)-ın əleyhinə cıxışları.
[4] Gözəl və aydın danışma qabilliyyətinə malik olan şəxs.
[5] Fikri incə, gözəl və aydın ifadələrlə anlatma, natiqlik.

Buna, «Nəhcül-bəlağə» kitabı ən yaxşı şahiddir.

Ərəb mühasibləri xitabə və yazmaq üslubunu Əli (ə)-dan öyrəniblər. Mərvanın xəzinəsi hesabdarı olan Əbdülhəmid Əmirəl-möminin (ə)-ın kəlamlarından yüz fəslini əzbər bilirdi.

وَزَعَمَ أَهلُ الدَّواوينَ لَو لا كَلامُ عَلِيّ بنِ اَبى طالِبٍ عليه السلام وَ خُطبَةُ بَلاغَتُهُ فِى مَنطِقِهِ ما أحسَنَ أَحَدٌ أَن يَكتُبَ اِلى اَميرِ جُندٍ وَلا اِلى رَعِيَّةٍ

Divan yazanların və yazıçıların əqidəsi bundan ibarət idi ki, əgər Əli (ə)-ın kəlamı, xütbələri, balağət və fəsahəti olmasaydı, heç kim qoşunun sərkədəsinə və ya bir şəxsə yaxşı və düzgün bir məktub yaza bilməzdi.

Rəvayət olunmuşdur ki, Həzrət minbərdən aşağı endi, camaat onun fəsahət-bəlağətini tərifləyib dedilər: Biz səndən başqa fəsahətli, bəlağətli bir adam tanımırıq və eşitməmişik. Həzrət təbəssüm edib buyurdu: **Axı necə belə olmayım, bir halda ki, Məkkədə (Kəbənin içində) doğulmuşam.**

Həzrət Əli (ə)-ın kəlamlarının, fəsahətinin və hikmətinin həddini Allah və onun Rəsulu bilir. Heç kim o Həzrətin kəlam və xütbələri kimi bir şey yazmağı arzu etməyib və xəyalına gətirməyibdir. Əgər bəzi sünni alimləri «Şiqşiqiyyə xütbəsini» Həzrətin xütbələrindən saymayıb, onu Seyyid Rəziyə[1] nisbət veriblərsə, başqa bir məsələyə görə olubdur. O da bundan ibarətdir ki, onlar xəlifələrin Əmirəl-möminin (ə) etdikləri zülümləri ört-bastır etmək istəyirdilər. Amma ədəbiyyatçılara və alimlərə onların sözlərinin zəif və dəlilsiz olması gizli deyil. Bir çox alim, Seyyid Rəzi doğulmamışdan qabaq bu xütbənin keçmiş kitablarda olmasını qeyd etmişdir. İbn Əbil Hədidin, ərəb fəsihləri və ədəbiyyat alimlərinin rəyi budur ki, Seyyid

[1] O, «Nəhcül-bələğəni» toplayan və şiənin böyük alimlərindən biridir.

Rəzi və başqaları heç vaxt bu kəlmələrlə xütbə söyləyə bilməzlər.

**İyirmi dördüncü fəzilət:** Həzrətin ölüləri diriltməsi və xəstələrə şəfa verməsi barəsində etdiyi dualar qəbul olundu. Məsələn: 1- Babil[1] ərazisində çürümüş kəllənin dirilməsi və Həzrət ilə danışması. Orada bir məscid tikdilər. Məscid «Cümcümə» (yeni kəllə) adı ilə şəhrət tapdı. Həmin məscidin əsərləri indi də Hillə ərazisində «Rəddi-Şəms» məscidinin yaxınlığında qalıbdır. Mən «Hidayətüz-zahirin» kitabında hər iki məscid barəsində məlumat vermişəm.

2 - Sam ibn Nuhu diriltməsi;

3 - Əshabi-Kəhfi diriltməsi; Bəsat hədisində bu hadisə yazılıbdır. Əmirəl-möminin (ə) öz sahabələrindən bir neçəsini hava ilə «Əshabi-Kəhf» mağarasının yanına apardı. Sahabə Əshabi-Kəhf salam verdilər, amma cavab eşitmədilər. Onlar (Əshabi-Kəhf) Əli (ə)-dan başqası ilə danışmadılar.

4 - Rəvayət olnumuşdur ki, Peyğəmbər (s) xəstə idi. Əmirəl-möminin (ə) Həzrətin iyadətinə gəldi. Həzrət öz əlini Peyğəmbərin (s) mübarək sinəsinə qoyub dedi:

يا أُمَّ مِلدَم أُخرُجِى عَن رَسُولِ اللهِ

**«Ey qızdırma! Allahın Rəsulunun bədənindən çıx!»**

Elə həmin an qızdırma Peyğəmbərin (s) bədənindən çıxdı, Həzrəti Rəsul qalxıb oturdu.

5 - Həzrət Siffeyin döyüşündə Hişam ibn Ədiyy Həmadaninin kəsilmiş əlini birləşdirib sağaltdı.

---

[1] **Babil** - İraqda Hillə şəhərinin yaxınlığında yerləşən şəhər.

6 - Həzrət öz aşiqlərindən biri olan zənci kişinin kəsilmiş əlini birləşdirib sağaltdı (Onun əli oğurluğ etdiyi üçün, Əli (ə)-ın əmri ilə kəsilmişdi).[1]

**İyirmi beşinci fəzilət:** Həzrətin bir necə nəfərin haqqında etdiyi nifrinin qəbul olmasıdır. Həzrət, Bəsir ibn Ərtatın haqqında nifrin etdi ki, ağlını itirsin. Bəsir dəli oldu. O, həmişə bir qılınc istəyirdi. Ağacdan düzəlmiş bir qılınc və bir mütəkkəni ona verdilər. O, qılınc ilə mütəkkəyə o qədər vururdu ki, nəhayət yıxılıb özündən gedirdi. Bəsir cəhənnəmə vasil olana qədər bu halda idi.

Həzrət, Təlhə və Zübeyr haqqında nifrin etdi ki, pis və zillət içində ölsünlər. Əmr ibn Cərmuz, Zübeyri Bəsrənin yaxınlığındakı «Vadiyyüs-Siba»-da yatdığı yerdə öldürüb cəsədini torpağa basdırdı. Təlhəni isə Mərvan ibn Həkəm Cəməl döyüşündə ox ilə vurdu. Ox onun damarını qırdı. Səhrada gızmar günəş altında qan yavaş-yavaş Təlhənin bədənindən, axıb onu həlak etdi. Təlhə özü deyirdi: Qüreyş tayfasında heç bir kişinin qanı mənim qanım kimi hədər olmadı.

**İyirmi altıncı fəzilət:** Cinn və heyvanların o Həzrətdən itaət etməsidir. Bu mətləb şir və Cüveyriə ibn Müshər (جويرية بن مسهر) hədisində aydınlaşır.

1 - Cüveyr öz səfərində şiri görüb ona salam verərək dedi: Əmirəl-möminin (ə) mənə sənin zərərindən aman verib. Şir bunu eşidən kimi, geri dönüb beş dəfə nərə çəkərək getdi.[2]

2 - Həzrətin Kufə minbərində əjdaha ilan ilə danışması;

3 - Quşlar, canavar və balıqların Həzrət ilə söhbəti;

4 - Fərat cayının balıqlarının Həzrətə salam verməsi;

---

[1] «Biharul-Ənvar» cild 41, səh. 202.
[2] «Biharul-Ənvar» cild 41, səh. 245.

5 - Həzrətin ayaqqabısını qarğanın götürməsi və onun içindən ilanın düşməsi;

6 - Azərbaycanlı kişi və onun xam dəvəsinin hekayəsi;

7 - Yahudi kişinin mallarının itməsi və Əli (ə)-ın əmri ilə cinlərin onları gətirməsi;

8 - Əqiq və sair vadilərdə Həzrətin cinlərdən beyət götürməsi.

Bunların hər biri başqa kitablarda şərh olunubdur.[1]

**İyirmi yeddinci fəzilət:** Həzrətin cansız təbiət və bitkilər üzərində bir çox möcüzələri müşahidə olunmuşdur. Məsələn: Mədinədə Peyğəmbərin (s) yaşadığı dövrdə günəş o Həzrət üçün geri qaytarıldı. Həmçinin Peyğəmbər (s) dünyadan gedəndən sonra «Babil» ərazisində günəş geri qaytarıldı.

Sünni və şiə alimləri «Günəşin geri qaytarılması» hədisini nəql ediblər. Bəzi alimlər günəşin geri qaytarılmasını mümkün olması haqqında kitab yazıbdır. Sünni və şiə şairləri bu hədisi şeirə də çəkiblər. Həzrət üçün günəşin geri qaytarılması, çoxlu kitablarda yazılıbdır.[2]

Əbu Bəkrin dövründə Mədinədə güclü bir zəlzələ baş verdi. Zəzələ dayanmırdı, Həzrətin hökmü ilə zəlzələ dayanı, yer sakitləşdi.[3]

Əmirəl-möminin (ə)-ın əlində kiçik bir daş dilə gəldi.

Həzrət «Teyyül-ərz» [4] vasitəsi ilə Mədain şəhərinə Salmanın cənazəsinin yanına getdi. Ona qüsl verdi, kəfənə büküb və dəfn etdi.

---

[1] «Biharul-Ənvar» cild 41.

[2] «Biharul-Ənvar» cild 41, «Radi-Şəms» fəslinə müraciət edin.

[3] «Biharul-Ənvar» cild 41, səh. 254.

[4] Bir şəxsin, bir anda və maddi vasitə olmadan uzun bir məsafəni getməsinə «Teyyül-ərz» deyilir.

Həzrətin möcüzələrindən biri də «Besət» hədisidir.[1]

Əbu Hüreyrə Həzrət Əli (ə)-ın yanına gəlib öz ailəsi üçün darıxdığını və onları görmək istədiyini bildirdi. Həzrət onu «Teyyül-ərz» vasitəsiylə evinə apardı.

Həzrətin zifaf[2] gecəsində, yer öz xəbərləri haqqında onunla apardı.

Bir şəxs Həzrətdən borc almağa gəlmişdi. Həzrət kəsəyi qızıl edib ona verdi.

Əli (ə) bir divarın kənarında oturmuşdu. Divar aşmaq istəyirdi. Həzrət «Dayan!» - deyə, ona əmr etdi və divar dayandı.

Bir dəfə dəmir zireh Həzrətin əlində yumuşaldı. Xalid deyir: Gördüm ki, Həzrət zirehin həlqələrini əli ilə təmir edirdi. Mənə buyurdu: Ey Xalid! Allah bizim bərəkətimizə görə, Davud (ə)-ın əlində dəmiri yumşaltdı.

Mədinədə xurma ağacları Əli (ə) və Peyğəmbərin (s) fəzilətinə şəhadət verdilər. Həzrət həmin xurma ağaclarının adını «Seyhani» qoydu.

Həzrətin möcüzəsi ilə quru armud ağacı yaşıllaşdı.

Əli (ə)-ın əmri ilə yay (kaman) əjdaha ilana çevrildi.

Yəmən ərazisində ağac və daş-kəsək o Həzrətə salam verirdilər.

Fərat çayı daşıb-coşan zaman Əli (ə) onun sakitləşməsinə və suyun azalmasına əmr etdi.[3]

**İyirmi səkkizinci fəzilət:** Əli (ə) xoştəbiət insan idi. Həmişə ona pislik edənləri bağışlayardı. Həzrətin öz düşmənləri ilə etdiyi rəftar bunu da aydınlaşdırır. Mərvan ibn

---

[1] Məlumat toplamaq istəyənlər, «Biharul-Ənvar» cild 39, səh. 138-ə müraciət etsinlər.

[2] Evlənən günün birinci gecəsi.

[3] «Biharul-Ənvar» cild 41 və «Mədinətül-məacizə» müraciət edin!

Həkəm, Abdullah ibn Zübeyr Cəməl müharibəsində Həzrətin əsiri oldular, amma Əli (ə) onları azad etdi. Əli (ə) Ayişəyə qələbə çaldıqdan sonra, onunla son dərəcədə mehriban rəftar edib, Mədinəyə qaytardı.

Bəsrə əhalisi Həzrətin və onun övladlarının üstünə qılınc çəkdilər, Həzrət Əli (ə) söyüş verdilər. Lakin Həzrət qələbə çaldıqdan sonra, onlara aman verdi. Mal və övladlarını qarət etməyə qoymadı.

Əli (ə)-ın bu xüsusiyyəti Müaviyə ilə Siffeyndəki döyüşündə daha çox gözəl çarpır. Müaviyə əvvəl suyu ələ keçirtdi. Əli (ə) və onun qoşununu su içməyə qoymadı. Bundan bir az sonra Əli (ə) su olan məntəqəni ələ keçirib onları susuz səhraya qovdu. Həzrətin sahəbələri dedilər: Sən də onlara su içməyə icazə vermə! Qoy susuzluqdan həlak olsunlar və döyüşə ehtiyac olmasın.

Əli (ə) buyurdu: Yox! And olsun Allaha! Mən onlar kimi etməyəcəyəm. Qələbə çalmaq üçün mənə qılınc kifayət edir.

Sonra əmr etdi ki, suyun yolunu bir tərəfdən Müaviyənin qoşunu üçün açıq qoysun.

**İyirmi doqquzuncu fəzilət:** Həzrətin tədbiri, siyasəti hamıdan çox və Allahın dinində hamıdan ciddi idi. O Həzrət özü buyurmuşdur:

لَو لا التُّقى لَكُنتُ أَدهَى العَرَبِ

**«Əgər Allahdan qorxmasaydım və təqvalı olmasaydım, ərəblərin hamısından çox mən hiylə yollarına əl atardım».**

Həzrət Əli (ə) din məsələlərində o qədər ciddi idi ki, hətta başqaları ilə öz övlad və qohumları arasında fərq qoymurdu. Bu mətləb Həzrətin «Əqil» və «İbn Abbas» ilə etdiyi rəftarla

daha da aydınlaşır. «Əsəl»[1] hədisinə və Ümmü Gülsümün boyunbağını ariyə[2] almasına diqqət etdikdə görürük ki, Həzrət öz övladı ilə də həmin rəftarı edirdi.[3]

Həzrət Əli (ə) bəxşiş etdiyi zaman öz bacısı Ümmü Hani və onun əcəm[4] kənizi arasında fərq qoymayıb, hər ikisinə 20 dirhəm verdi. Həmçinin Əqil ilə zənci kişinin arasında fərq qoymadı.

قالَ عَقيلُ: لَتَجعَلُنِى وَ اَسوَداً مِن سُودانِ المَدينَةِ واحِداً؟! فَقالَ عليه السلام: وَما فَضلُكَ عَلَيهِ اِلّا بِسابِقَةٍ اَو تَقوى

Əqil dedi: «Məni Mədinənin qara zəncisi ilə bərabər tutursan?»

Əli (ə) buyurdu: **«Sənin ondan nə üstünlüyün vardır? İnsanın üstünlüyü tez müsəlman olmaqda və başqasından təqvalı olmaqdadır».**

وَ رُوِىَ أَنَّهُ قالَ"عَبدُاللهِ بنِ جَعفَرٍ" لِعَلِيٍّ عليه السلام: يا اَمِيرَ المُؤمِنِينَ لَو اَمَرتَنِى بِمَعُونَةٍ اَو نَفَقَةٍ فَوَاللهِ مالِى نَفَقَةٌ اِلَّا اَن اَبِيعَ دابَّتِى! فَقالَ: لا وَاللهِ ما اَجِدُ لَكَ شَيئًا اِلَّا اَن تَأمُرَ عَمَّكَ اَن يَسرِقَ فَيُعطِيكَ.

Rəvayət olunmuşdur ki, Cəfəri-Təyyarın oğlu Əbdullah Əli (ə)-a dedi: Ey Əmirəl-möminin (ə)! Əgər əmr etsəydin və dolanışığım üçün mənə bir şey versəydilər nə olardı? And olsun Allaha, ailəm saxlamağa bir şeyim yoxdur. Bir atım var, gərək onu satıb ailəmi dolandıram.

Əli (ə) buyurdu:

---

[1] Bal.
[2] Ariyə, müvəqqəti istifadəyə alınan şeydir.
[3] «Mənaqib» Şəhr ibn Aşub cild 2, səh. 107-108.
[4] Qeyri ərəb olan şəxsə «əcəm» deyilir.

**«And olsun Allaha, sənə verməyə heç nəyim yoxdur. Ancaq gərək əmindən[1] istəyəsən oğurluq edib sənə versin. Bu da heç vaxt mümkün olan şey deyil».**

**Otuzuncu fəzilət:** O Həzrət Kəbədə, Allahın evində dünyaya göz açdı. Həzrət Əli (ə) Peyğəmbərin (s) təvəllüdündən 30 il keçəndən sonra, rəcəb ayının 13-də cümə günündə dünyaya gəldi. Bu fəzilətə yalnız Həzrət malikdir.

Məkkənin ən şərəfli yeri hərəmdir. Hərəmin ən şərəfli yeri məsciddir. Məscidin ən şərəfli məkanı Kəbədir. Bu şərəfli məkanda Əli (ə)-dan başqa heç kim dünyaya gəlməmişdir.

---

[1] Əli (ə) Əbdullahın əmisi idi.

## ON ÜÇÜNCÜ FƏSİL

Ən şərəfətli nəsil, təvvəllüd, övlad və qohumluq (kürəkən olmaq) hamısı Əli (ə)-ın vücudunda cəm olmuşdur və heç kim Onun dərəcəsinə yetişməyibdir. Çünki, Həzrət özü Haşimidir[1] və iki Haşimidən (Əbu Talib və Fətimə binti Əsəd) dünyaya gəlibdir. Kəbədə dünyaya gəlibdir. Atası Əbu Talib, Məkkənin və Qüreyş tayfasının rəisi idi. Əbu Talib Peyğəmbəri (s) uşaqlıq dövründən öhdəsinə götürmüşdü və onu öz evində saxlayırdı. Peyğəmbəri (s) müşrik və kafirlərin şərrindən qorudu. Əbu Talibin yaşadığı dövürdə, Həzrət Rəsulun (s) hicrətə ehtiyacı olmadı. Əbu Talib dünyadan gedəndən sonra, Peyğəmbər (s) köməksiz, himayəsiz qalıb Məkkədən Mədinəyə hicrət etdi.

Əli (ə)-ın anası Fatimə, Əsədin qızı idi. Əsəd isə Haşim ibn Əbdi Mənafın oğlu idi. Fatimə binti Əsəd Peyğəmbərə ana kimi baxırdı və onun Peyğəmbərə (s) etdiyi xidmətlər məlumdur. Fatimə binti Əsəd Peyğəmbər (s) ilk dəfə iman gətirənlərdəndir. O, Mədinəyə hicrət etdi.

Fatimə dünyadan gedən zaman Həzrət Rəsul (s) onu öz köynəyi ilə kəfənlədi. Sonra Fatiməni dəf etməmişdən qabaq onun qəbrinə girib yatdı ki, qəbir əzabından amanda qalsın. Peyğəmbəri (s) ona oğlu Əli (ə)-ın imamət və vilayətini bəşarət verdi.

Əli (ə)-ın əmisi oğlu Allahın Rəsulun, Peyğəmbərin sonuncusu Həzrət Mühəmməd ibn Abdullahdır (s).

---

[1] Haşim Peyğəmbərin babalarından biridir.

Əli (ə)-ın qardaşı Zülcinaheyn[1] Cəfəri Təyyardır. Əmisi şəhidlərin ağası Həmzədir. Əli (ə)-ın ata-babaları Peyğəmbər (s)-in ata-babası, ana və nənəsi Peyğəmbər (s)-in ana və nənəsidir. Onun əti, qanı, Peyğəmbər (s)-in ətinə və qanına qarışıb, ruhunun nuru Həzrət Rəsulun (s) nuruna bağlıdır. Adəm yaranmamışdan qabaq Əbdülmüttəlibin sülbünə qədər onların nuru bir idi. Əbdülmüttəlibin sülbündən sonra Abdüllahın və Əbu Talibin sülbündə bir-birlərindən ayrıldılar. Adəmin iki ağası bir-birindən ayrılandan sonra yenidən bir-birinə qovuşdular. Birincisi (Peyğəmbər (s)) münzir, ikincis Əli (ə)) hidayət edəndir.

Münzir və Hadi «Rəd» surəsinin 7-ci ayəsinin məzmununa işarədir. Allah-Təala İslam Peyğəmbərinə buyurur:

إِنَّمَا أَنْتَ مُنْذِرٌ ۖ وَلِكُلِّ قَوْمٍ هَادٍ

***«Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (doğru yol göstərən) bir rəhbəri (peyğəmbəri) vardır!»***

Rəvayətdə «Hadi»[2] sözünü Əli (ə) barəsində təfsir edirlər.

Həzrət Əli (ə)-ın fəzilətindən biri də Peyğəmbər (s) ilə qohum (kürəkəni) olmasıdır. Allahın Rəsulu (s), qızı Fatiməni (dünya qadınlarının xanımı və qızlarının ən şərəflisini) Əli (ə)-a verdi. Peyğəmbər (s) Fatiməni çox istəyirdi. Onun üçün təvazö edib ayağa qalxar, onu öpüb iyləyərdi. Peyğəmbərin (s) Fatiməyə olan məhəbbəti öz qızı olduğu üçün yox, bəlkə Fatimənin Allah yanında şərafətli və sevimli olması üçün idi.

Bu məhəbbət başqa məhəbbətlərdən fərqlidir.

---

[1] İki qanad sahibi (Behiştdə).
[2] Düz yol göstərən, hidayət edən.

Allahın məhbubunu sevmək, Allahı sevməkdir. Peyğəmbər dəfələrlə buyurmuşdur: «Fatimə (s.ə) mənim ürəyimin parasıdır, ona əziyyət etmək mənə əziyyət etmək, onun razılığı mənim razılığım, onun qəzəbi mənim qəzəbim deməkdir».

Əli (ə)-ın başqa şərəfi onun övladlarıdır. Heç kimin Əli (ə)-ın şərəfli övladları kimi övladı olmayıbdır. İmam Həsən (ə) və İmam Hüseyn (ə) onun övladlarıdır. İmam Həsən (ə) və Hüseyn (ə) Behişt cavanlarının ağasıdır. Peyğəmbərin (s) onlara olan məhəbbəti heç kim üçün gizli deyil. Həzrət Abbas, Məhəmməd Hənəfiyyə, Zeynəb, Ümmü-Gülsüm və başqa övladlarının şan-şövkəti, böyüklüyü hamıya aydındır.

İmam Həsən (ə) və İmam Hüseyn (ə)-ın övladları şərəfin son dərəcəsinə nail olublar. İmam Həsən (ə) övladları aşağıdakılardan ibarətdir: Qasim, Əbdüllah, Həsən-Müsənna, Həsən Müsəlləs, Əbdüllah Məhz, Hüseyn ibn Əli (Fəxx şəhidi), İdris ibn Əbdüllah, İsmail ibn İbrahim ibn Həsən Müsənna (Təbatəba ləqəbi ilə şöhrət tapıbdır.) Həzrət Əbdüləzim, Ali-Tavus seyyidləri və s. Mən bunların bairəsində «Müntəhəl-amal fi zikri məsaibin-nəbiyyə vəl-al» kitabında yazmışam.[1]

İmam Hüseyn (ə)-ın övladları isə 9 dənə məsum imamlardan ibarətdir. Onların birincisi səcdə edənlərin ağası, zahidlərin rəhbəri cənab Əliyyibni Hüseyn Zeynülabidin (ə)-dır. O, ibadətdə babası Əmirəl-möminin (ə) çox oxşayırdı. Hər gün[2] 1000 rükət namaz qılırdı. Həmişə gecə namazı qılar, gündüzlər oruc tutar, Quran və dua oxuyardı. Allahın Rəsulu (s) onun adını «Abidlərin ağası» - deyə çağırmışdı. Bəzi vaxtlar Həzrət namaz qılanda rəngi dəyişərdi. Onun halı əzəmətli

---

[1] «Müntəhəl-amal» cild 1, səh. 175.
[2] Gecə və gündüz.

Allahın müqabilində, yazıq bəndələrin halı kimi idi. Allahın qorxusundan bütün bədən üzvləri titrəyirdi. Onun namazı, «müvəddi»[1] namaz idi. Gecələr yemək kilsəsini çiyninə atır, dinar və dirhəm kisələrini özü ilə götürüb fəqir-füqəraların, yetimlərin evinə apardı. O, yemək və pul paylayanda mübarək üzünü örtərdi ki, heç kim onu tanımasın. Həzrət dünyadan gedəndən sonra, ona qüsl vermək üçün soyundurdular. Həzrətin mübarək çiynində həmin kisələrin qoyduğunu izi gördülər. Həzrətin dərisi kisə daşımaqdan dəvənin dizinin qabağına oxşayırdı.

Rəvayət olunur ki, İmam Zeynülabidin (ə) Mədinə yoxsullarının 100 nəfərinin xərcini öz öhdəsinə götürmüşdü.

Bir gün Həzrət bir dəstə adamın yanından keçirdi. Gördü ki, onlar Həzrətin qeybətini edirlər. Həzrət onların yanında durub, buyurdu: **Əgər mənim üçün saydığın bu eyblər düz olsa, Allah məni bağışlasın, əgər yalan deyirsinizsə, Allah sizi bağışlasın.**

Həzrət çox namaz qıldığına görə onun səcdə etdiyi üzvlər qabıq bağlamışdı. Buna görə də onu «zussəfənat» [2] adlandırdılar. Hər ildə bir neçə dəfə həmin qabıqlar qopurdu və Həzrət onu bir yerə yığırdı. Dünyadan gedəndən sonra, o qabıqları Həzrət ilə dəfn etdilər.

Zeynülabidin (ə) Kərbala hadisəsindən sonra 35 il həyat sürdü. Bu qısa zaman Bəni-Ümeyyənin hökmranlığının ən şiddətli zamanı idi. İmam Səccad[3] (ə)-ın camaatı hidayət etməyə imakan və qüdrəti yox idi. Çarəsiz qalıb camaatdan

---

[1] Namaz qılarkən ömrünün son anlarını gözünün qabağına gətirən və qıldığı namazı axırıncı namaz kimi təsəvvür edən şəxsə «müvəddi» deyilir.

[2] Çoxlu qabar sahibi.

[3] İmam Zeynülabidin (ə)-ın ləqəbi.

ayrıldı və ibadətə, duaya, münacata məşğul oldu. Yalnız gizli surətdə atasını və babasını ziyarət etmək üçün İraqa gedərdi.

İslam alimlərinin ibadət və zahidlik haqqında yazdığı bütün kitablarda Həzrətin mübarək adı qeyd olunmuşdur. Həzrətin həmişəki ibadətlərindən biri də, atası İmam Hüseyn (ə)-a ağlamaq idi. O, ömrü boy Kərbala hadisəsini unutmadı. İftar vaxtı onun üçün su və yemək gətirəndə, atsının ac və susuzluğunu yadına salıb ağlayardı. Atasının kəsilmiş mübarək başını Yezidin məclisində görən zamandan, heç vaxt qoyun başı yeməzdi. Həzrət həmin məclisdə o qədər ağladı ki, onun mübarək gözünə zərər yetişəcəyindən qorxdular.

Rəvayət olunubdur ki, Əbdül Məlik Mərvanın xilafəti zamanı, onun oğlu Hişam həccə getdi. Təvaf[1] halında Həcərül-Əsvədə [2] çatdı, camaata çoxluğundan yaxınlaşa Həcərül-Əsvədə bilmədi. Heç kim ona etina etmədi. Sonra Məscidül-Hərəmda onun üçün bir minbər qoydular. O, minbərin üstündə oturdu və şamlılar onun ətrafına toplaşdılar. Bu zaman İmam Zeynülabidin Əliyyibni Hüseyn (ə) içəri daxil oldu. Onun surəti (sifəti) orada olanların hamısından gözəl və nurlu idi. Həzrətin bədənindən gələn ətirli iy, adamı özünə cəzb edirdi. Alnında səcdənin yeri qalmışdı. Həzrət təvaf etməyə başladı. Həcərül-Əsvədə yetişən zaman, camaat onun əzəmət və heybətinə görə kənara çəkildilər. Həzrəti Həcərül-Əsvədə əlini sürtüb ziyarət etdi. Hişam bu hadisəni görəndə çox qəzəbləndi. Şam əhalisindən bir nəfər Həzrətə olunan hörməti görüb təəccüb edərək Hişamdan soruşdu: Bu kişi kimdir ki, cammat ona belə hörmət edirlər?

---

[1] Kəbənin ətrafına 7 dəfə fırlanmaq.
[2] Qara daş.

Çəpgöz Hişam, Şam əhalisi İmamı tanımasın deyə, dedi: - Onu tanımıram!

Fərəzdəq [1] orada idi, dərhal dedi: Əgər Hişam onu tanımırsa, mən onu tanıyıram. Şamlı kişi dedi: Ey Əba Firas[2] o kimdir?

Sonra Fərəzdəq Həzrətin tərəfində 40 beyt mürətəcilən[3] şeir dedi.

Hişam qəzəbləndi. Fərəzdəqə verilən hədiyyəni (bəxşişi) kəsdi. Əmr etdi ki, onu Əsfanda[4] həbs etsinlər. Bu xəbər Əliyyibni Hüseyn (ə)-a çatan kimi, Fərəzdəq üçün 12000 dirhəm göndərib ondan üzr istədi. Fərəzdəq pulu qəbul etməyib Həzrətə qaytardı. Həzrət ikinci dəfə pulu onun üçün göndərdi.

Əbdürrəhman Cami [5] deyir ki, Fərəzdəq dünyadan gedəndən sonra kufəli bir qadın, onu yuxuda görüb, soruşur Allah səninlə necə rəftar etdi?

Fərəzdəq cavab verir: «Allah Əli ibn Hüseynin tərifində dediyim qəsidəyə görə məni bağışladı».

Cəmi əlavə edərək, deyir: «Allah bu qəsidənin bərəkətinə xatir bütün aləmi bağışlasa yeri vardır».

Həzrətin təvəllüdü hicrətin 36-cı ilində camadiül-ula ayının ortasında, şəhadəti isə hcrətin 95-ci ilində Məhərrəm ayının 18-də (və 25-də) olmuşdur.

O Həzrətin (Əli (ə)) başqa oğlu, əvvəl və axır elmləri açan Mühəmməd Baqir (ə)-dır. İmam Baqir (ə) ibadət, zahidlik və elmdə hamıdan yüksək idi. Onun anası İmam Həsən (ə)-ın qızı Fatimədir. Fatiməyə «Ümmü Əbdüllah» və «Siddiqə» də

---

[1] İslamın tanınmış şairlərindəndir. Hicrətin 110-cu ilində vəfat edibdir.

[2] Fərəzdəqin künyəsidir.

[3] Dərhal, o saat şeir demək.

[4] Məkkənin yaxınlığında məntəqə adıdır.

[5] Sünni alimidir.

deyirdilər. İmam Həsən (ə) nəslindən (qadınlardan) Fatimənin məqam və dərəcəsinə heç bir qadın çatmamışdır. Buna görə də İmam Baqir (ə)-a «İbnul-xeyrəteyn»[1] (إبن الخيرتين) deyirdilr.

Mühəmməd Peyğəməbər (s) Cabir ibn Abdullaha buyurubdur: «Ey Cabir! Ümidvaram ki, sən Hüseynin övladlarından biri olan «Mühəmməd»i ziyarət edənə qədər ömür sürəcəksən. Mühəmməd (ə) bütün elmləri acacaq. Onunla görüşən zaman, mənim salamımı ona çatdırarsan».

Cabir, Məhəmməd Baqir (ə)-ın zəmanəsinə qədər yaşayıb, Peyğəməbər (s)-in salamını o Həzrətə çatdırdı.

Həzrət «Baqirul-Ülum» [2] ləqəbini Peyğəməbər (s)-in sözləri əsasında veriblər.

Həzrətin din elmlərində, Quranın təfsirində, əhkam və ədəb fənnlərində olan əsərləri bütün düşüncəli və insaflı adamlar üçün gizli deyil. Bu emlər barəsində Həzrətdən o qədər rəvayət nəql olunmuşdur ki, ağıl onu dərk etməkdə acizdir. Həzrətin səhabəsi, tərəfdarları və müsəlmanların böyük fəqih (müctəhid)-ləri həmişə o Həzrətin elmindən istifadə ediblər.

Şeyx Müfid, Abdullah ibn Əta Məkkidən rəvayət edir: «Alimləri İmam Baqir (ə)-dan başqa heç kəsin yanında heç vaxt kiçik, zəif və həqir görmədim. Həkəm ibn Üteybə o qədər elmi və böyük məqamı ilə İmam Baqir (ə)-ın yanında ibtidai məktəb şakirdinə bənzəyirdi».

Cabir ibn Yəzid Cəfi, o Həzrətdən rəvayət nəql edəndə həmişə belə deyərdi: Bu hadisə mənə övsiyaların vəsisi, Peyğəmbərin elminin varisi, Mühəmməd ibn Əli ibn Hüseyn (ə) buyurmuşdur.

---

[1] İki xeyirli şəxsin oğlu. Çünki, İmam Müghəmməd Baqir (ə) həm ata, həm də ana tərəfdən İmam nəslindən idi.

[2] Elmləri açan.

Şeyx Kəşşi, Mühəmməd ibn Müslimdən rəvayət edir: Mən qarşıya çıxan bütün çətin məsələlər barəsində İmam Baqir (ə)-dan soruşdum. O Həzrətdən 30 min hədis, İmam Sadiq (ə)-dan isə 16 min hədis soruşub, öyrənmişəm.

يا باقِرَ العِلمِ لِأَهلِ التُّقى          وَ خَيرَ مَن لَبّى عَلى الأَحبُلِ.

Şeirin məzmunu: «Ey təqvalı şəxslər üçün elm qapısını açan və həcc mərasimində daşlar üstündə «ləbbeyk» deyən ən yaxşı şəxs!»

İmam Baqir (ə) təvəllüdü hicrətin 57-ci ilində, Rəcəb ayının əvvəlində, şəhadəti isə hicrətin 114-cü ilində, zilhəccə ayının 17-də olmuşdur. O cənabın qatili İbrahim ibn Vəlid və ya Hişam ibn Əbdül Məlikdir.

Həzrət Əli (ə)-ın övladlarından biri həqiqət və müşkülləri bəyan edən, şərqin və qərbin imamı **Əbu Əbdullah Cəfəri Sadiq (ə)**-dır. Onun səmada adı Sadiqdir. Şiə və Cəfəri məzhəbinin tərəfdarlarına o Həzrətin fəzilət, zahidlik, ibadət, hikmət və elmi aydındır. Onun fəzilətləri heç bir kitaba sığmaz və heç bir dil ilə bəyan etmək olmaz. Hətta səma mələkləri onun dərəcəsini dərk edə bilməzlər. Dörd min nəfər o Həzrətdən rəvayət nəql ediblər. Hər biri öz qabiliyyət və istedadı miqdarında İmam Sadiq (ə)-dan elm öyrənibdir. O cümlədən, Əban ibn Təğləb 30 min hədis, Məhəmməd ibn Müslim isə 16 min hədis o Həzrətdən öyrəniblər.

Bütün dini kitablar İmam Sadiq (ə)-ın elmi və hədisləri ilə doludur. İndiyə qədər Onun elminin heç onda bir hissəsinə belə yiyələnə bilməmişik. O Həzrətdən bizə çatan elm dənizdən götürülən bir damcıya bənzəyir.

Malik ibn Ənəs[1] deyib: İmam Sadiqdən fəzilətli, təqvalı, abid və elmli bir şəxsi indiyə qədər bəşəriyyət görməyib və onun barəsində eşitməyibdir.

أنتَ يا جَعفَرُ فَوقَ المَدحِ وَالمَدحُ عِنـاءٌ          إِنَّما الأَشرافُ أَرضٌ وَ لَهُم أَنتَ سَماءٌ
جازَ حَدُّ المَدحِ مَن قَد وَلَدَتهُ الأَنبِياءِ

«Ey Cəfər! Sən tərifdən yuxarı və tərif səndən aşağıdır.

Əşraf (böyük adamlar) yer kürəsi kimidir və sən onların asimanısan».

Peyğəmbər nəslindən olan şəxsin məqamını tərif qaliblərində bəyan etmək mümkün deyil».

İmam Sadiq (ə)-ın təvəllüdü hicrətin 83-cü ilində, rabiül-əvvəl ayının 17-də, şəhadəti isə hicrətin 148-ci ilində, rəcəb ayının ortasında olmuşdur.

Həzrətin şəhadəti Mənsur Dəvaniqinin xilafəti zamanı baş vermişdir.

**İmam Musa ibn Cəfər (ə)**, İmam Sadiq (ə)-ın övladlarından biridir. Kazım, Fəqih, Sabir, Alim, Saleh bəndə o Həzrətin ləqəbləridir. İmam Kazım (ə) öz zəmanəsinin ən abid şəxsi idi. O, oruc tutar, uzun səcdələr edər və çox ağlayardı. Həzrətin ibadəti barəsində alimlər nəql edirlər ki, o Həzrət gecə nafilələrini, (müstəhəbbi namazlarını) sübh namazına birləşdirərdi. Sübh namazını qılıb qurtaran kimi, günəş çıxana qədər dua oxuyardı. Sonra başını səcdəyə qoyub günortaya qədər səcdə edərdi. Həzrət çox vaxt bu duanı oxuyardı:

اَللّهُمَّ اِنّي اَسأَلُكَ الرّاحَةَ عِندَ المَوتِ وَالعَفوَ عِندَ الحِسابِ

«İlahi ölüm zamanı səndən rahatlıq, hesab günü isə əfv diləyirəm».

---

[1] Sünnilərin 4 rəhbərindən biridir.

Bu dua da Həzrətin dualarından idi:

عَظُمَ الذَّنْبُ مِنْ عَبْدِكَ فَلْيَحْسُنِ الْعَفْوُ مِنْ عِنْدِكَ

«İlahi sənin bəndənin günahı böyük, sənin rəhmin isə çox gözəldir».

Həzrət bu duanı oxuyar və Allahın qorxusundan o qədər ağlayardı ki, onun mübarək saqqalı göz yaşı ilə islanardı».

Qohum-əqrabaya mehribanlıq etməkdə və ehsan verməkdə hamıdan üstün idi. Mədinə yoxsullarını yoxlayardı. Gecələr çiyninə zənbil atar (zənbildə pul, un, xurma və s. olardı), yoxsullar üçün apardı və onlar bunun hardan və kimin tərəfindən olduğunu bilməzdilər.

Əbul-Fərəc deyir: O Həzrətə xəbər verdilər ki, bir şəxs çox pərişan və halı pisdir. Həzrət ona bir kisə dinar verdi. O cənabın hər bir pul kisəsində 200 və ya 300 dinar olardı. Onun pul kisələri mal-dövləti çox olan adam üçün məsəl olmuşdu.

İmam Kazım (ə)-ın təvəllüdü Əbada[1] hicrətinin 121-ci ilində, səfər ayının 7-də, şəhadəti isə Harun ər-Rəşidin zamanında, hicrətin 183-cü ilində, rəcəb ayının 9-da baş vermişdi.

Həzrətin övladlarından biri də möminlərin gözünün nuru, böyük şəxslərin fəxri, qəriblərin pənahı **Əbul Həsən Əli ibn Musa Rza (ə)-dır**.

Əbasət Hərəvi deyir: Mən Əli ibn Musa Rza (ə)-dan alim bir şəxs görməmişəm. Onu görən bütün alimlər mənim dediyim sözə şəhadət verirlər. Məmun həmişə müxtəlif məclislər təşkil verir, din alimlərini, fəqihləri və mütəkəllimlərini[2] İmam Rza (ə) ilə mübahisə etmək üçün ora dəvət edirdi. Həzrət (ə) onların

---

[1] Məkkə və Mədinə arasında məntəqə adıdır.
[2] İlahiyyat alimi.

hamısını məğlub edərdi. Alimlər Onun fəzilətinə və özlərinin naqisliyinə iqrar edirdilər.

Sonra Əbasət deyir: Mühəmməd ibn İsaq ibn Musa atasından mənə hədis nəql edir ki, atam deyirdi: Atam Musa ibn Cəfər (ə) öz oğlanlarına buyurardı: «Ey mənim övladlarım! Sizin qardaşınız Əliyyibni Musa (ə) [1] Ali-Mühəmmədin alimidir, din haqqında hər nə sualınız varsa, ondan soruşun, onun buyurduqlarını əzbərləyin. Həqiqətən, atam Cəfər ibn Mühəmməd (ə) dəfələrlə mənə buyurdu: Ali Mühəmmədin (s) alimi sənin sülbündəndir[2]. Ey kaş mən onu görürdüm! Onun adı, Əmirəl-möminin Əli (ə)-ın adı ilə eynidir».

İbrahim ibn Abbas belə rəvayət edir: Mən heç vaxt görmədim ki, İmam Rza (ə) birinin sözünü kəssin. O, heç kimi əli boş qaytarmırdı. İmkanı qədər hamıya kömək edərdi. Heç kimin qarşısında ayağını uzatmaz, məclisdə camaatın qarşısında divara söykənməzdi. Heç vaxt camaatın gözü önündə tüpürməzdi. Uca səslə gülməzdi. Həmişə təbəssüm edərdi. Həzrət süfrə başında oturan zaman, bütün işçilərini, hətta qapıçı və nökəri də yanına çağırıb birlikdə yemək yeyərdi. Həzrət İmam Rza (ə)-ın adəti bu idi ki, gecə az yatar, çox ibadət edər və çox vaxt oruc tutardı. Hər ay üç gün oruc (ayın birinci, axırıncı cümə axşamı və ayın orta günü - çərşənbə günü) tutardı. O, buyurardı: Bu üç günün orucu dəhr orucun müqabilindədir.

İmam Rza (ə)-ı hamı tanıyırdı. Həzrət gizli surətdə sədəqə verərdi. O, çox vaxt gecələr sədəqə verərdi.

Mühəmməd ibn İbaddan nəql olunmuşdur ki, Həzrət İmam Rza (ə) yayda həsir, qışda isə kilim üstündə oturardı. Köhnə

---

[1] İmam Rza.

[2] Sülalə, nəsl.

paltar geyərdi. Amma məclisə və ya camaat içinə çıxanda yaxşı paltar geyinərdi.

Rəvayət olunur ki, bir gün İmam Rza (ə) hamama getdi. Orada bir şəxs var idi. İmamı tanımırdı, Həzrətə xitab edib dedi: Gəl mənim belimə kisə vur!

Həzrət onun belinə kisə vurmağa başladı. Bir az keçəndən sonra, orada gələnlər Həzrəti tanıdılar. İmamdan üzr istəməyə başladılar. Həzrət onları sakitləşdirib o şəxsin belini axıra qədər kisələdi.

Müəmmar ibn Xəllad deyir: Həzrət yemək üçün süfrəyə əyləşən zaman, öz yanında böyük bir kasa qoyardı və süfrədə olan yeməkləri ən yaxşısından bir miqdar götürüb həmin kasaya qoyardı. Sonra isə onu miskin və yoxsullara verməyi tapşırardı.

Həzrətin xidmətçisi Nadir deyirdi: O cənab yemək yediyimiz zaman bizə iş tapşırmazdı.

Həzrətin Yasir adlı başqa bir xadimi deyirdi ki, Həzrət bizə buyurdu: Siz yemək yediyiniz zaman, əgər mən otağa daxil olsam, ayağa qalxmayın!

Rəvayət olunubdur ki, bir nəfər Həzrətə dedi: Yer üzündə, heç kəsin ara-babası sizin ata-babanızdan adlı-sanlı və şərəfli deyil.

İmam buyurdu: Atalarımın getdiyi yol və şərəafətli Allaha itaət etdiklərinə və təqvalarına görədir.

Başqa bir kişi dedi: And olsun Allaha, sən xalqın ən yaxşısısan.

Həzrət buyurdu: Ey kişi! And içmə! Hər kəsin təqvası və Allaha bəndəliyi məndən çox olsa, o məndən yaxşıdır. And olsun Allaha ki, bu ayə öz qüvvəsini itirməyibdir.

وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ

***«Bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (Yəni ən təqvalı çəxs Allahın yanında əzizdir)».***[1]

Həzrətin gözəl əxlaqı və ibadəti barəsində çoxlu hədislər vardır. Hədisdə gəlmişdir ki, çox vaxt gün ərzində 1000 rükət namaz qılardı. Hər üç gündə bir dəfə Quranı xətm edərdi. Həzrət buyurur: Mən bundan da tez Quranı xətm edə bilərəm, lakin hər ayənin barəsində fikirləşirəm ki, bu ayə nəyin barəsində və nə vaxt nazil olmuşdur. Buna görə mən üç günə bir Quran xətm edirəm.

Onun tövhid, maarif və elmlər barəsində kəlamı, hikmət və moizə barəsində şeirləri çoxdur. İmam Rza (ə) bu şeiri çox oxuyardı:

اِذاكُنْتَ فِى خَيرٍ فَلا تَعتَمِد بِهِ وَلكِن قُل اللّهُمَّ سَلِّم وَ تَمِّم

«Nemət və xeyr içində olan zaman, ona etimad etmə! Lakin de: İlahi salamat saxla və kamil et».

Ümumiyyətlə, İmam Rza (ə)-ın fəziləti həddən artıq çoxdur. Heç kim onun fəzilətinin nə qədər olduğunu bəyan edə bilməz. Həqiqətdə onun fəzilətini bir yerə toplamaq, dənizin suyunu bir otağa yığmaq deməkdir.

İmam Rza (ə)-ın təvvəllüdü hicrinin 148-ci ilində Ziqədə ayının 11-də, şəhadəti isə hicrinin 203-cü ilində səfər ayında, Məmunun xilafəti dövründə baş vermişdir.

Həzrət Əli (ə) övladlarından biri də abidlərin ağası **İmam Mühəmməd ibn Əli Cavad (ə)-dır**. Həzrətin ləqəblərindən biri «Təqi»dir. İmam Rza (ə) dünyadan köçəndə İmam Cavad

---

[1] «Hucurat» surəsi, ayə 13.

(ə)-ın doqquz yaşı var idi.[1] İmam Məhəmməd Təqi (ə)-ın doqquz yaşı az olduğuna görə, camaat onun imamətliyi barəsində şəkk edirdi. Bu məsələ bir müddət bu halda qaldı. Həcc zmanı yetişdi. Alimlər, fazillər və dünyanın hər tərəfindən şiə alimləri həccə gəldilər. İmam Cavad (ə) həcc mərasimini qurtarandan sonra onlar Həzrətin hüzuruna gəldilər. Onun möcüzə, kəramət, elm və kəmalını müşahidə edib, İmam olmasına iqrar etdilər. Şəkk və şübhə ləkəsini öz qəlblərinin güzgüsündən sildilər. Şeyx Küleyni rəvayət edir: Həzrətdən 30 mindən ən çətin məsələlər barəsində sual etdilər və o cənab bu sualların hamısına kamil surətdə cavab verdi.

Məmun İmam Rza (ə)-ın şəhadətindən sonra həmişə camaatın danlaq və məzəmməti ilə qarşılaşırdı. O, zahirdə özünü bu xəta[2] və günahdan paklaşdırmaq üçün Xorasan səfərindən Bağdada qayıdan kimi, Həzrət Cavad (ə)-ı Mədinədən Bağdada dəvət etdi. İmam Bağdada gəldi. Məmun Həzrətlə görüşmədən ova getdi. Ova gedərkən yolda İmam Cavad (ə)-ı ziyarət edib görüşdü. Sonra səhraya getdi. Məmunun şahini (ov quşu, tərlan) havada balaca bir balıq ovladı. Məmun ovdan qayıdanda yenə də İmam Mühəmməd Təqi (ə)-ı gördü. O, balığı əlində gizlədib İmama dedi: - Bu nədir?

İmam buyurdu: - Allah-Təala dənizləri yaradıb, ondan bulud göylərə qalxır, bulud balaca balığın özü ilə yuxarı aparır. Sultanların şahini onları ovlayır və sultan onu əlinin ortasında gizlədib nübüvvət[3] sülaləsini (yəni İmamı) imtahan edir.

Məmun dedi: - Həqiqətən, sən İmam Rza (ə)-ın övladısan. Bu ailədən maraqlı işlər, sirlər uzaq deyil.

---

[1] Əlbəttə bəziləri deyirlər ki, 7 yaşı var idi.
[2] Səhv, əyri və düzgün olmayan bir iş.
[3] Peyğəmbər nəslindən olan.

Sonra İmam Təqini (ə) öz yanına çağırıb ona böyük hörmət etdi. Öz qızı Ümmü-Fəzli o Həzrətə vermək istədi. Lakin Bəni-Abbas etiraz edib bu işə razı olmadılar. Məmun onların rəyini bəyənmədi. Bəni-Abbas dedi: Bu uşaqdır. Hələ elm və kamal əldə etməyib. Əgər səbr etsən və o, böyüyüb kamala çatandan sonra Ümmü-Fəzli onunla evləndirsən çox yaxşı olardı.

Məmun dedi: - Onun elmi Lədünnidir[1]. Təhsil almağa ehtiyac yoxdur. Əgər istəyirsinizsə, zəmanının alimlərini toplayıb onu imtahan edin.

Onlar məclis təşkil verdilər. Bütün alimlərdən savadlı olan Yəhya ibn Əksəmi[2] və başqa alim və fazilləri oraya dəvət etdilər. Sonra Məmun əmr etdi ki, İmam Məhəmməd Təqi (ə) üçün məclisin yuxarısında yer düzəltsinlər. Onun üçün iki mütəkkə qoydular. Sonra İmam gəlib məclisin başında əyləşdi. Yəhya ibn Əksəm Həzrətin müqabilində oturdu. Məmun da Həzrətin yanında oturdu. Sonra Yəhya Məmuna üzünü tutub dedi: - İcazə verirsiniz Əbu Cəfərdən[3] məsələ soruşum?

Məmun dedi: - Onun özündən icazə al!

Yəhya Əbu Cəfərdən (ə) izn istədi. İmam ona izn verdi.

Yəhya soruşdu: Mührim[4] bir şəxsin ov ovlayıb onu öldürməsi barəsində nə buyurursunuz?

Həzrət Əbu Cəfər (ə) buyurdu: Bu məsələnin müxtəlif surətləri vardır. De görüm mührim şəxs Hildə[5] olub ya

---

[1] Allah tərəfindəndir. İmamın vücudunda elm və kamal vardır.

[2] Yəhya ibn Əksəm Bağdadda, Məmunun sarayında qazi idi. O, çox fasiq, murdar və alçaq adam idi. Bu barədə artıq məlumat toplamaq üçün Məsudinin «Mürucuz-Zəhəb» kitabına və İbn Xəlkanın tarix kitabına müraciət edin.

[3] İmam Məhəmməd Təqi (ə)-ın künyəsidir.

[4] Mührim - Həccə gedib ehram bağlayan, ehram paltarı geyən.

[5] Yer adıdır.

hərəmdə? Alim idi ya nadan? Bilərəkdən ov ovlayıb ya səhvən? Azad idi ya bəndə (nökər, qul)? Balaca idi ya böyük? Bu onun ilk ovu idi ya yenə də ov etmişdi? O, quş ovlamışdı ya başqa ov idi? Kiçik ov idi ya böyük? Mührim o işə israr edirdi ya peşman olmuşdu? Gecə ov etdi ya gündüz? Ümrə [1] ehramında idi, ya həcci töməttə[2] ehramında?

Yəhya məsələnin müxtəlif surətlərini eşidib, heyran qaldı. Ağlı başından çıxdı, acizlik onun sifətində aşkar oldu, dili topuq vurdu. Bu vaxt məclisdə olanlar onun təslim olmasını müşahidə etdilər.

Məmun dedi: - İndi inkar etdiyiniz şəxsi yaxşı tanıdınız. Sonra öz qızını o Həzrətə verdi. İmam Məhəmməd Təqi (ə) kəbin xütbəsini oxuyub, Məmunun qızını 500 dirhəm mehriyyə[3] ilə özünə həyat yoldaşı seçdi. Sonra Məmun əmr etdi ki, müşk və ənbər (ətir) gətirsinlər. Məmunun xüsusi adamları müşk və ənbər ilə saqqalarını ətirlədilər. Yemək hazırladı. Camaat yemək yedikdən sonra, Məmun onların hərəsinə layiq hədiyyələr verdi. İmam Cavad (ə)-dan yuxarıda qeyd olunmuş məsələnin hökmünü şərh etdi. Məmunun «əhsən-əhsən» - deyən səsi ucaldı. Bu zaman Həzrətdən istədilər ki, Yəhyadan bir məsələ soruşsun. Həzrət ondan bir məsələni soruşdu, lakin Yəhya cavab verə bilmədi.

İmam Cavadın (ə) təvəllüdü hicrinin 195-ci ilində, Ramazan ayının ortasında (başqa bir nəzərə görə Rəcəbin 10-da) şəhadəti isə hicrətin 220-ci ilində Zilqədə ayının axırlarında baş vermişdir.

---

[1] Balaca həcc, həccin bir qismətidir. Ümrəyə gedən şəxs «hacı» sayılmır.
[2] Əsil həcc, böyük həcc – həcci tömöttöə gedən şəxs hacı sayılır.
[3] Başlıq.

Mötəsim [1] Həzrəti zəhər ilə şəhadətə çatdırdı. Həzrət dünyadan gedəndə 25 yaşı var idi. Onun mübarək qəbri Kazimeyndə, babası Musa ibn Cəfər (ə)-ın qəbrinin arxa tərəfindən yerləşir.

Həzrət Əli (ə)-ın övladlarından biri də cənab Əbul Həsən (salis) İmam Əli ibn Nəqi (ə)-dır. Həzrətin ləqəbi «Hadi»-dir.

Mütəvvəkkil[2] o Həzrəti Mədinədən Samirraya dəvət etdi. Samirra İraqın şəhərlərindən biridir. İmam Nəqi (ə) vəfat edənə qədər Samirrada yaşadı. İmam Əli ibn Nəqi (ə) və onun oğlu İmam Həsən Əsgəri (ə) Samirranın «Əsgər» məhəlləsində yaşadıqlarına görə onlara «Əgəri» deyirdilər.

Mütəvvəkkilin o Həzrətə etdiyi zülm və əziyyət yazmaqla qurtarmaz. Mütəvvəkkilin, Həzrətin özünə, işlərinə, dostlarına, ələvilərə, Fatimə övladlarına, İmam Hüseyn qəbrinə, zəvvarlarına etdiyi zülm və əziyyyəti sonsuz dərəcədə idi. Mütəvvəkkil, Abbasilərin ən kafiri idi. O, xəbis, alçaq və nanəcib bir adam idi. Ali-Əbu Talib ilə düşmənçilik edərdi. Onlara töhmət vurar, həmişə əziyyət edərdi. İmam Hüseyn (ə)-ın mübarək qəbrini aradan aparmağa çalışır, o Həzrətin zəvvarlarına əzab-əziyyət verərdi. Onun etdiyi cinayətlər tarix səhifələrini qan ağladır.

Qərmaninin «Əxbarüd-düvəl»[3] kitabında qeyd olunmuşdur ki, Mütəvvəkkil 237-ci hicri ilində İmam Hüseyn (ə)-ın qəbirini dağıtmağı əmr etdi. Qəbrin ətrafındakı evləri də xaraba etdi. Əmr etdi ki, orada əkinçilik etsinlər.

---

[1] Abbasilərin 8-ci xəlifəsi, Harunun oğlu, Məmunun qardaşıdır. Onun hökuməti 218-ci ilə qədər olmuşdur.

[2] Mütəvvəkkil Abbasilərin 10-cu xəlifəsi və onlrın ən kafiri və cinayətkarıdır. Onun hökuməti 232-ci hicri ilindən 247-ci ilə qədər olmuşdur.

[3] Əbul-Həsən Əhməd ibn Sənan Dəməşqi Qərmani 1019-cı hicri ilində dünyadan getmişdir.

İmam Hüseyn (ə)-ın qəbrini ziyarət etməyi hamı üçün, qadağan etdi. Kərbəla torpağını şumladılar. Müsəlmanlar bu işdən çox narahat oldular. Bağdad əhalisi divarlara Mütəvvəkkil üçün söyüş yazırdılar. Şairlər onun üçün satira yazırdılar.

Hədisşünaslar, İbn Sikkitin (şiə alimi) həyatı barəsində yazıbdır: O, Mütəvvəkkilin oğlanlarının «ədəb» müəllimi idi. Bir gün, Mütəvvəkkil ondan soruşdu: Sənin nəzərində mənim iki oğlum, Mötəzz və Müəyyid yaxşıdır ya Həsən və Hüseyn (ə)?

İbn Sikkit İmam Həsən (ə) və Hüseyn (ə)-ın fəzilətlərini saymağa başladı və axırda dedi: Əli (ə)-ın nökəri Qənbər səndən və sənin iki oğlundan yaxşıdır!

Mütəvvəkkil əmr etdi ki, onun dilini boğazından çıxartsınlar.

Mütəvvəkkil Əli (ə)-a cəsarət etməsi, söyüş verməsi və Həzrətin məqamını kiçiltmək istəməsi səbəb oldu ki, onun öz oğlu öz «Müntəsir Billah» atasının ölmünə höküm versin.

Əbül Fərəc İsfahani rəvayət etmişdir: Mütəvvəkkil, Ömər ibn Fərəc Rəxcini Məkkə və Mədinənin valisi[1] qoymuşdu. Ömər, Ali-Əbu Talibə ehsan və yaxşılıq etməyə qadağan etdi. Bu iş barəsində o qədər çalışdı ki, camaat canının qorxusundan Ələvilərə[2] kömək və ehsan etmədilər. Ömər o qədər Əmirəl-möminin (ə)-ın övladlarına zülm etmişdi və onları iqtisadi böhranda saxlamışdı ki, Ələvi qadınlarının bütün paltarları köhnəlib, para-para olmuşdu. Hətta bir köynəkdən artıq paltarları yox idi ki, onu geyib namazda iştirak etsinlər. Bu

---

[1] Böyük hökumət məmuru.

[2] Əli (ə)-ın övladları.

köynəyi növbə ilə geyib, namazda iştirak qalırdılar. Bu vəziyyət Mütəvvəkkil ölənə qədər davam etdi.

Məsudi rəvayət edir: İmam Əliyyən Nəqi (ə) barəsində Mütəvvəkkilə xəbər verdilər ki, onun evində çoxlu silah və Qum əhalisi tərəfindən gəlmiş çoxlu kağız (məktub) var. İmam sənin əleyhinə mübarizəyə qalxmaq istəyir.

Mütəvvəkkil öz adamlarından bir qurupunu Həzrətin evinə göndərdi. Onlar gecə İmamın evinə hücum etdilər, evi axtardılar, lakin bir şey tapmadılar. Gördülər ki, o Həzrət otağlardan birinin qapısını bağlayıb, yun paltar geyib, yerin üzərində xırda daşlar üzərində oturub Allaha ibadət edir və Quran oxumaqla məşğuldur.

İmam Nəqi (ə)-ı elə bu halda Mütəvvəkkilin yanına apardılar. Dedilər: Onun evini axtardıq, amma bir şey tapmadıq. İmamı üzü qibləyə oturdub Quran oxuduğu halda gördük. Mütəvvəkkil bu vaxt şərab məclisində idi. Sonra İmam Nəqi (ə)-ı o məclisə daxil etdilər. Mütəvvəkkilin əlində şərab camı var idi. İmama təzim edib, onu öz yanında oturtdu, şərab camını Həzrətə tərəf uzadaraq ona təklif etdi. İmam buyurdu: And olsun Allaha! Heç vaxt mənim ətimə-qanıma şərab daxil olmayıb.

İmam həmin məclisdə onlar üçün bir necə beyt şeir oxudu. Mütəvvəkkil bu şeiri eşidib o qədər ağladı ki, saqqalı yaş oldu. Həmçinin məclisdə onların hamısı ağladı.

«Kənzül-Fəvaid» [1] kitabında rəvayət olunmuşdur ki, Mütəvvəkkil əlindəki şərab camını yerə vurdu: Kef məclisi onlara nuş olmadı. Bu hadisələrə diqqət yetirdikdə məlum olur ki, Mütəvvəkkilin dövrü İmam üçün nə qədər çətin olubdur.

---

[1] Əbul Fəth Məhəmməd ibn Əli Kəracəkinin kitabı.

İmam Nəqi (ə)-ın təvəllüdü, Səriyyada[1] hicrinin 212-ci ilində, zilhiccə ayının ortalarında, şəhadəti isə 254-cü hicri ilinin Cəmadiül-axirə ayınınn axırlarında (və ya rəcəbin 3-də) Mötəzz Billahın xilafəti zamanı baş vermişdi.

Salam olsun İmam Nəqi (ə)-a!

Həzrətin övladlarından biri də **Cənab Əbu Mühəmməd İmam Həsən Əsgəridir**. Həzrətin vücudunda fəzilət, müdriklik, elm, zöhd, kamal, ağıl, ismət, şücaət, kərimlik və ibadət cəm olunmuşdur.

Həzrət Mədinədə 232-ci hicri ilinin rəbiül-əvvəl ayının əvvəllərində şəhadətə yetişdi. Həzrətin vəfatı zamanı Samirra şəhərini nalə və şivən səsləri bürümüşdü. Bütün bazarlar bağlanmışdı. Bütün Bəni-Haşim, Bəni-Abbas, qazilər, qoşunlar və xalq Həzrətin cənazəsi üstünə toplaşmışdılar. Həmən gün, Samirrada qiyamət qopmuşdu. Sonra o Həzrəti, atasının qəbrinin arxa tərəfində, Həzrətin öz evində dəfn etdilər.

Həzrətin övladlarından biri **Höccət ibn Həsən İmam Zaman Məhdi Ali-Mühəmməd Sahibbəzzaman (ə)**-dır.

İmam Zaman hicrətin 255-ci ilində, şəban ayının 15-də dünyaya göz açdı. Atası vəfat edəndən sonra, imamlıq ona 5 yaşında çatdı. Bu şəxs həmin vədə verilmiş Mehdi (ə)-dır Allahın Rəsulu və bütün İmamlar onun barəsində xəbər verərək, deyiblər ki, O, qılınc sahibidir (yəni qiyam edəcək). Ali Mühəmmədin dövləti onun zühuru zamanı diriləcək. Həzrət üçün iki qeybət[2] olacaq. Birinci Qeybəti-suğra[3], ikincisi isə Qeybəti-Kubradır[4]. Həzrət zühur edənə qədər dünya davam edəcək. Dünya zülm və cinayət ilə dolandan sonra Həzrət

---

[1] Mədinənin ətrafında məhəllə adıdır.
[2] Qeybət yəni qeybə çəkilmək.
[3] Qeybəti-suğra yəni kiçik qeybət deməkdir.
[4] Qeybəti-kubra yəni böyük qeybət deməkdir.

zühur edib dünyanı ədalətlə dolduracaq. Həzrətin zühuru üçün bir neçə nişanə (əlamət) buyururblar. Ümmətin ən yaxşı əməli Həzrətin zühurunu gözləməkdir. Qeybəti-suğra Həzrət doğulan zamandan, 329-cu hicri ilinə qədər (yəni Həzrətin dördüncü naibi Əliyyibni Məhəmməd Səməri vəfat edən zamana qədər) davam etdi. Səməri vəfat edəndən sonra isə Qeybəti-Kubra başladı. İndiyyə qədr 1004 ildir ki, Həzrət cammatın gözünə görsənmir və qeybdədir[1]. Həzrətin şiələri gecə-gündüz onun zühurunu gözləyirlər. Ünidvarıq bu uzun gecələr sona yetsin və ağamız zühur etsin. Günəşin doğması ilə bizi sevindirsin.

فَقَد طالَ الإنتِظارُ وَ شَمِتَ بِنا الفُجّارُ

---

[1] Əlbəttə bu kitab yazılan zamana qədər. 1004 il keçib. Ancaq indiki zamna qıdır 1078 il keçmişdir.

## ON DÖRDÜNCÜ FƏSİL

Keçən fəsil Əli (ə)-ın nəsli və övladları haqqında olduğuna görə, yadıma düşdü ki, Bətha Seyyidi, Qüreyşin rəisi Əbu Talibin haqqını unutmayı. Əbu Talib, Əbul-Əimmə[1] (ə)-dır. Onun islama etdiyi xidmət, Peyğəmbər (s)-ə etdiyi köməklər o qədərdir ki, ondan təşəkkür etmək lazımdır. Həqir bəndə, bu kitabın savabını canab Əbu Talibdən istəyirəm. Ümidvaram ki, bizə mərhəmət edərək müşküllərimizi həll etsin. Çünki o, səxavətli və kərimdir.

فَإِنَّهُ جَوادٌ كَرِيمٌ

Əbu Talib, Peyğəmnbərin atası Abdüllah və Zübeyr ibn Əbdülmütəllib ilə anadan bir qardaşdır. Onların anası Fatimə binti Əmr ibn Aiz Məxzumidir. Peyğəmbər (s) səkkiz yaşında olanda Əbdülmüttəlib dünyadan getdi. Vəfat etməmişdən qabaq Mühəmməd (s)-i Əbu Talibə tapşırdı. Peyğəmbəri (s) qorumağı ona çox sifariş etdi.

Əbu Talib ömrünün son anına qədər dili və gücü ilə Peyğəmbərə (s) kömək edib, onu qorudu. Peyğəmbər (s) qorumaq üçün öz imanını aşjar etmədi. Dünyadan gedəndə isə İslama iman gətirməsini aşkar etdi. Buna xatir onun haqqında rəvayət olunmuşdur ki, Əbu Talib imanlı saxlamaqda Əshabu-Kəhfə bənzəyir. Buna görə də Allah-Təala onun savabını iki bərabər verdi.[2]

---

[1] İmamların atası.
[2] «Biraharul-ənvar» cild 35, səh. 120.

«Kafi» kitabında rəvayət olunmuşdur ki, Əbu Talib peyğəmbərlərin vəsiyyətlərini əmanət saxlayırdı və onu Peyğəmbər (s)-ə təhvil verdi.[1]

Əbu Talib, Peyğəmbər (s)-ə kömək etməkdən əlavə, başqalarını ona kömək etməyə dəvət edirdi. Əbu Talib, Əli (ə)-a buyurdu: Ey mənim oğlum! Əmin oğluna həmişə kömək et və ona dayağ ol! Əgər onun yolu ilə getsən bütün xəta-bəladan, əyri yoldan nicat taparsan.

Sonra dedi:

اِنَّ الوَثِيقَةَ فِى لُزُومِ مُحَمَّدٍ (ص)     فَشدُد بِصُحبَتِهِ عَلِىُّ يَدَيكا

«Mühəmməd (s) ilə bir yerdə olmaq etibarlı bir işdir. Bəs, ey Əli! Hər iki əlinlə ondan yapış və onun həmdəmi olmaqda möhkəm ol!»

Peyğəmbər (s) namaz qılanda Əli (ə) ona iqtida edirdi. Bir gün Əbu Talib onların yanından keçirdi. Cəfərə (Əbu Talibin oğludur) üzünü tutub dedi: Oğlum, sən də əmin oğlunun bir tərəfindən dur, ona iqtida et!

Cəfər Həzrət Rəsulun başqa bir tərəfində durdu. Peyğəmbər (s) belə görəndə, bir az qabaqa getdi: Əli (ə) və Cəfər ilə camaat namazı qıldı. Əbu Talib çox şad oldu. Hətta şadlığın əsəri, onun sifətində aşkar olmuşdu. Əbu Talib buyurdu:

إِنَّ عَلَيّاً وَ جَعْفَراً ثِقَتي     عِنْدَ مُلِمِّ الزَّمانِ وَ الْكَرْبِ
لا تَخَذُ لا وَانْصُر ابْنَ عَمَّكُما     أَخِي لِأُمِّي مِنْ بَيْنِهِمْ وَ اَبِي
وَاللهِ لا اَخْذُلُ النَّبِيَّ وَ لا     يَخْذُلُهُ مِنْ بَنِي ذُوحَسَبٍ

«Əli (ə) və Cəfər müsibət və çətin günlərdə mənim güvəndiyim şəxslərdir. Əminiz oğlu tək və köməksiz

[1] «Biraharul-ənvar» cild 35, səh. 72.

qoymayın, ona kömək edin! Qardaçlarımın arasında bu mənim doğma qardaşım oğludur.

And olasun Allaha! Peyğəmbəri (s) tənha qoymayacağam. Övladlarımın şərəflisi də onu tənha qoymayacaq».

Rəvayət olunmuşdur ki, Peyğəmbər (s) namazı qurtarandan sonra Cəfərə buyurdu: Ey Cəfər! Əmin oğlunun qolundan yapışdığına görə (yəni ona dayağ olduğuna görə) həqiqətən, Allah-Təala bunun müqabilində sənə iki qanad verəcək və onun vasitəsi ilə Behiştdə uçacaqsan.[1]

Peyğəmbər (s) aşkara dəvət etməyə başladı və müsəlmanlar günbə-gün çoxalmağa başladı. Bu iş Qüreyşin kafirləri üçün çox ağır idi. Onlar qərara aldılar ki, hər qəbilədə müsəlman olsa, həmin qəbilədən olan müsəlmanın tayfası və qohum-əqrabası, onu cəzalandırsınlar. Onları elə qorxutsunlar ki, daha bir kəs müsəlman olmasın. Həmin vaxt mübarək ayə nazil oldu.

أَلَمْ تَكُنْ أَرْضُ اللّٰهِ وَاسِعَةً

***«Məgər Allahın torpağı geniş deyildimi!»***[2]

Müsəlmanların bir qrupu Cəfər ibn Əbu Talibin başçılığı ilə Həbəşistana hicrət etdilər. Onlar Həbəşistana çatdılar. Həbəşistanın padşahı Nəcaşi onlara çox hörmət etdi. Qüreyşlilər Əmr As və Əmarə ibn Vəlidi çoxlu hədiyyələrlə Nəcaşinin yanına göndərdilər. Ondan istədilər ki, müsəlmanlara kömək etməyib onları Qüreyşin kafirlərinə qaytarsın. Nəcaşi onların hədiyyələrinə etina etmədi. Cəfər və onun dostlarına həddən artıq hörmət və kömək etdi. Bu xəbər Əbu Talibə yetişən zaman, Nəcaşinin tərəfində qasidə dedi.

---

[1] «Biraharul-ənvar» cild 35, səh. 121.
[2] «Nisa» surəsi, ayə 97.

Nəcaşi həmin qasidəni eşidib çox şad oldu. Müsəlmanlara daha da yaxşılıq göstərdi. Bu xəbər Əbu Talibə yetişdi. O, Nəcaşinin müsəlman olmasına ümid bağladı. Onun üçün şeir göndərib, müsəlman olmağa və Peyğəmbərin (s) yolu ilə getməyə dəvət etdi.

Şiə və sünni alimləri rəvayət edirlər ki, Əbu Talib (ə) hər sübh və axşam Peyğəmbərin (s) hal-əhvalı ilə maraqlanır həmişə düşmənlərdən qoruyardı. Qüreyş kafirlərinin o Həzrətə xətər yetirməsindən qorxardı. Bir gün Peyğəmbəri (s) görmədi. Axşam oldu Həzrəti tapa bilmədi. Öz oğlanlarını və nökərlərini toplayıb dedi: Agah olun! Peyğəmbər (s) itib və mən güman edirəm ki, Qüreyş onun üçün bir hiylə qurub. Mən bir yerdən başqa, hər yeri axtarmışam.

Sonra 20 nəfər öz oğlan və nökərlərindən seçib, onlara dedi: Gedin öz xəncərlərinizi hazırlayın və hər biriniz Qüreyş başçılarından birinin yanında oturun. Mən axtarmadığım tərəfə gedirəm. Əgər onu tapıb gətirsəm, bir iş görməyin. Əgər gəldim və Mühəmməd (s) mənim yanımda olmadı, bu zaman hər biriniz öz xəncərinizlə yanınızdakı Qüreyş başçısını vurun. Öz xəncərlərinizi itiləyin ki, onları rahat öldürə biləsiniz. Sonra Əbu Talib Peyğəmbər (s)-i axtarmağa getdi. Onu Məkkənin aşağı tərəfində, bir daşın yanında ibadət ilə məşğul olduğu halda tapdı. Peyğəmbər (s)-i qucaqlayıb, öpdü. Əlindən tutub dedi: Ey qardaş oğlu! Az qalmışdı ki, tayfan sənə görə özlərini ölüm caynaqları altına atsın.

Qüreyşlilərin hamısı Kəbənin yaxınlığında oturmuşdular. Əbu Talib qəzəbli halda öz nökərlərinə dedi: Paltarlarınızın altında gizlətdiyinizi çıxardın.

Nökərlər xəncərləri çıxartdılar.

Cənab Əbu Talib dedi: İki gün idi ki, Mühəmmədi (s) görmürdüm. Qorxurdum siz onu həlakətə yetirmiş olasız.

Bununla əmr etdim ki, hər birinizin yanında biri otursun. Əgər Mühəmmədi (s) tapmayıb gəlsəm sizi xəncər ilə vursunlar və məndən izn almasınlar.

Qüreyşlilər dedilər: Aya bu iş baş verəcəkdi?

Əbu Talib dedi: Bəli Kəbənin Allahına and olsun! Sonra o, Peyğəmbər (s) ilə getdi.

Nəql olunub ki, Peyğəmbər (s) məsciddə namaz qıldığı halda Məkkənin kafirləri onun paltarının üzərinə təzək tökdülər. Həzrət (s) Əbu Talibin yanına gedib, buyurdu: Mənim şərəfim, nəsəbim və qədrim sizin yanınızda necədir?

Əbu Talib dedi: Nə olubdur?

Həzrət başına gələn hadisəni onun üçün danışdı. Əbu Talib qəzəbləndi, qılıncını götürüb Həmzəyə dedi: Özünlə bir az təzək götür mənimlə gəl!

Sonra əlində qılınc Məscidül-hərama daxil oldu. Kafirlərə dedi: Kim yerindən qalxsa, boynunu vuracağam. Həmzəyə dedi: Təzəyi bu kafirlərin bığ və saqqallarına sürt!

Sonra Peyğəmbərə (s) üzünü tutub dedi: Sənin şərəfin, nəsəbin və qədrin bizim yanımızda belədir.[1]

Əbu Talib Peyğəmbər (s)-in tərifi, camaatı onun dininə iman gətirməyə və ona kömək etməyə dəvət etməsi barəsində çoxlu şeir yazıbdır.

Bu nümunə üçün bir necə beyt yazırıq:

يُرَّجُونَ أن نَسْخى بقَـتـْل مُحَّمَدٍ    وَ لَم نَختَضِبْ سَمْرَ العَوالي مِن الدَّمِ
كَذِبتُم وَ بيتِ اللهِ حَتـّـى تَفَلَّقُوا    جَمَاجِمَ تـُلـْقى بِالحَطِيمِ و زَمْزَمِ

«Onlar arzu edirlər biz Peyğəmbərin (s) ölümü barəsində güzəşt edək, nizələrin başını al qana boyamaq və heç nə

[1] «Biraharul-ənvar» cild 35, səh. 125.

deмək. And olsun Allahın evinə! Onlar puç xəyal edirlər. Kəbə və Zəmzəmin ətrafında görünən başlar gərək parçalansın».[1]

أَلَمْ تَعْلَمُوا أَنّا وَجَدْنا مُحَمَّداً    رَسُولاً كَمُوسى خُطَّ فى أَوَّلِ الْكُتُبِ
فَلَسنا وَ بَيتِ اللهِ نُسلِمُ اَحمَداً    لِعَزّاءَ مِن عَضِّ الزَّمانِ وَلا كَربٍ

«Bilirsiniz ki, biz Mühəmmədi (s) Musa kimi Peyğəmbər bilirik? Bu keçmiş (əvvəlki) kitablarda yazılmışdır.

And olsun, Allahın evinə! Biz zamanın sıxıntısına və əziyyətinə görə Əhmədi (s) (yəni Məhəmmədi) kafirlərə təslim edən deyilik».[2]

فَلا تَسفَحُوا اَحلامَكُم فِى مُحَمَّدٍ    وَلا تَتبَعُوا اَمرَ الغُواةِ الأَشائِمِ
تَمَنَّيتُم اَن تَقتُلُوهُ وَ اِنَّما    اَمانِيكُم هذِى كَاَحلامِ نائِمِ
وَاِنَّكُمُ اللهِ لا تَقتُلُونَهُ    وَلَمّا تَرَوا قَطفَ اللُّحى وَالجَماجِمِ

«Peyğəmbərin (s) barəsində puç xəyallar etməyin! Bədbəxt azğınların arxasınca getməyin...!

Arzu edirsiniz ki, onu öldürəsiniz, sizin bu arzularınız yuxu görən şəxsin xəyalları kimidir. And olsun Allaha! Başların kəsilməsini müşahidə etmədən, onu öldürə bilməzsiniz».[3]

Rəvayət olunmuşdur: Peyğəmbər (s) səcdə halında idi. Əbu Cəhl Peyğəmbərin (s) yanından keçəndə Həzrəti (s) vurmaq üçün bir daş götürdü. Daş onun əlinə yapışdı.

Əbu Cəhl öz məqsədinə nail ola bilmədi.

Ümumiyyətlə, Əbu Talibin qəsidə və şeirləri çoxdur. Əli (ə) istəyirdi ki, camaat Əbu Talibin şeirlərini rəvayət etsinlər, yazsınlar və buyurdu: Onları öyrənin və öz övladlarınıza

[1] «Biraharul-ənvar» cild 35, səh. 159.
[2] «Biraharul-ənvar» cild 35, səh. 159.
[3] «Biraharul-ənvar» cild 35, səh. 160.

öyrədin. Əbu Talib Allahın dinini qəbul etmiş və müsəlmandır. Əbu Talibin şeirlərində elm çoxdur.[1]

Şair Əmir Əbul Fəvarisdən belə nəql olunur: Vəzir Yəhya ibn Hübeyrənin məclisində idim. Bu məclisdən alimlər və fazillər var idi. O cümlədən, İbn Xəşşab və Əbul Fərəc ibn Cuzi də orada idi. Əbu Talibin şeirlərindən söz düşdü. Vəzir dedi: Əbu Talibin şeirləri əgər iman üzündən olsaydı, çox yaşı olardı. Çünki o, müsəlman olmayıbdır. Şeirlərinin yaxşı olmasının nə faydası var?

Mən öz-özümə dedim: Yaxşıdır onun cavabını Allaha xatir verim.

Mən dedim: Ya Mövlana! (Ey mənim ağam!) Hansı dəlilə əsasən Əbu Talibin imanı yox idi?

Dedi: Əgər imanı var idisə, niyə aşkar etmədi?

Dedim: Əgər aşkar etsəydi, Peyğəmbər (s) köməksiz qalardı.

Bu sözdən sonra vəzir sakit oldu. Heç bir cavab demədi. Mənə verilən hüququ kəsdi. Mən də onun barəsində dediyim şeirləri tapıb, pozdum və məhv etdim.[2]

---

[1] «Biraharul-ənvar» cild 35, səh. 115.
[2] «Biraharul-ənvar» cild 35, səh. 135.

# MÜNDƏRİCAT

ÖN SÖZ
BİRİNCİ FƏSİL
İKİNCİ FƏSİL
ÜÇÜNCÜ FƏSİL
DÖRDÜNCÜ FƏSİL
BEŞİNCİ FƏSİL
ALTINCI FƏSİL
YEDDİNCİ FƏSİL
SƏKKİZİNCİ FƏSİL
DOQQUZUNCU FƏSİL
ONUNCU FƏSİL
ON BİRİNCİ FƏSİL
ON İKİNCİ FƏSİL
ƏMİRƏL-MÖMİNİN ƏLİ (Ə)-IN FƏZİLƏTLƏRİ HAQQINDA OLAN AYƏ VƏ HƏDİSLƏR
HƏZRƏT ƏLİ (Ə)-IN HAQQINDA NAZİL OLMUŞ BEŞ AYƏ
HƏZRƏT ƏLİ (Ə)-IN İMAMƏTİNİ SÜBUT EDƏN BEŞ HƏDİS
HƏZRƏT ƏLİ (Ə)-IN FƏZİLƏTLƏRİ VƏ KAMALLARI
ON ÜÇÜNCÜ FƏSİL
ON DÖRDÜNCÜ FƏSİL